Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 24 (6067) 5 iyul 2024-cü il | Qiyməti 40 qəpik

## Türk Dövlətləri rəhbərlərinin Şuşada sammiti başladı




**Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçiriləcək qeyri-rəsmi sammitinin dəqiq tarixi açıqlanıb.**

**Məlumata görə, iyulun 5-6-da Şuşada Türk Dövlətləri Təşkilatının liderlərinin iştirakı ilə sammit keçiriləcək.**

**Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təşkil olunacaq sammitdə Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan liderləri iştirak edəcəklər. Tədbirdə müşahidəçi ölkələrin liderlərinin və TDT-nin Baş katibinin də iştirakı gözlənilir. "Nəqliyyat bağlantısı və iqlim fəaliyyəti vasitəsilə davamlı gələcəyin qurulması" mövzusunda keçiriləcək sammit təşkilatın əsas məsələləri və gündəliyi üzrə yüksək səviyyəli müzakirələr üçün platforma rolunu oynayacaq. Sammitdən sonra Qarabağ Bəyannaməsinin, eləcə də bir sıra digər mühüm sənədlərin imzalanması gözlənilir.**

**Şuşada keçiriləcək sammitdən əvvəl TDT Xarici İşlər Nazirləri Şurasının iclası keçiriləcək.**

## Azərbaycan Ordusu Türkiyə və Pakistanla birgə təlimlər keçirəcək



**Azərbaycan, Türkiyə və Pakistanın silahlı qüvvələri mütəmadi qaydada birgə təlimlər keçirəcəklər.**

Adalet.az xəbər verir ki, bu barədə iyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüşdə razılıq əldə edilib.

Görüşdə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulanıb və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edilib. Təklif məmnunluqla qəbul olunub. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulanıb

## NAMƏRD SOVET ZAMANINDA...

**Marşrut avtobusları aylıq abonoment satırdılar. Bu da hər kəsin işinə yarıyırdı.**

**Sovet İttifaqını yox, müəyyən yaxşı ənənələrini qaytarmaq pis olmazdı.**

**Ay hökumət, gör neyləyirsən?**

## *CAN, AY MAKRON!*



**Ermənilərin böyük bacısı, Fransanın prezidenti Makronun partiyası parlament seçkilərində biabırcasına uduzdu.**

**Makronun başı qarışdı Ermənistanı silahlandırmağa, Cənubi Qafqazda gərginliyi artırmağa özünün dalı yadından çıxdı.**

## SAĞ OLSUN PARTİYA VƏ HÖKUMƏTİMİZ




**60-70-ci illərdə taksi sürücüləri ən hörmətli zümrə idi. Taksi sürücüsü toya, məclisə girəndə az qala hamı ayağa qalxırdı və məclisin yuxarı başında əyləşdirilirdi.**

Sağ olsun partiya və hökumətimiz, taksi sürücülərinin hörmətini qaldırdı. Bayaq bir taksiyə minmişdim, sürücünün forsu yeri-göyü dağıdırdı.



Qiymətlərin artırılmasını xalqımız böyük rüh yüksəkliyi ilə qarşılamışdır.

## *FÜZULİYƏ TƏYYARƏ İLƏ GETMƏK SƏRF EDİR, YOXSA?!*



**Deməli, Füzuliyə uçmaq üçün iki saat əvvəldən Aeroportda olmalısan.**

**Evindən Aeroporta da ən azı yarım saat yoldu, təbii ki, tıxaca düşməsən. 45 dəqiqə, 1 saat da uçuşdu. Təyyarədən yen, baqajını gözlə, sonra da məsələn, Horadizə yarım saatlıq yol. Özünüz hesablayın, görün nə qədər vaxtınız gedir. Amma maşınla, yəni taksiylə (adambaşı da 15 manat, hələ istəsən yolda düşüb çay da içə bilərsən) Bakıdan Horadizə ən uzağı 3,5 saatlıq yoldu.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## SƏSİNİZİ KƏSİN, GÖRƏK BU İT UŞAĞI BURA NİYƏ GƏLİB?!



**Rəşad Məcidlə şəhəri gəzirik. Bu mənim 38 il əvvəl gördüyüm səliqəsiz-səhmansız Laçın deyil. Camaatı daşdan çörək çıxarmağı bacarsa da, şəhərin üzündən bir kasıblıq, fağırlıq yağırdı. Yaraşıqlı, ikimərtəbəli evlər çox olsa da, amma ümumiyyətlə, şəhər yöndəmsiz və səliqəsiz idi.**

**İndi maşallah, əvvəl də qeyd etdiyim kimi, Laçın İsveçrənin abad bir dağ qəsəbələrinə oxşayırdı. Şəhər çox zövqlə tikilmişdi. Köhnə evlər də zövqlə bərpa olunmuşdu, küçələr də geniş və işıqlı.**

**Laçın quşu qartallar fəsiləsinə daxildir. Çox ucadan uçur. Ona görə də Laçının quşqonmayan dağlarına Laçın dağları deyirlər. Şəhər də onun döşündə salınıb.**

**Sovet vaxtı uzun müddət rəhmətlik Muradxan Cabbarov rəhbərlik edib Laçına, müstəqillik illərimizdə də bir müddət şəhər ona tapşırılmışdı.**

**Bax: səh.8-9**

## MƏNİM DƏ QIZIM ONDANDI

İqtisadçılar, ekspertlər qiymətlərin artırılmasını o qədər gözəl tərifləyib bizə yedirdirlər ki, adamın matıqutu quruyur.

Heç demə, qiymətlərin artırılması xalqımızın rifah halının yüksəlməsi üçündü. Yadıma köhnə bir anekdot düşdü. İki qadın söhbət edir. Biri deyir:

**- Mənim qızım şirkət rəhbərinin katibəsidi, yüksək maaş alır, şirkətin rəhbəri tez-tez onu özüylə xarici səfərlərə aparır, hərdən də Antalyaya istirahətə gedirlər.**

O biri qadın deyir:

**- Mənim də qızım ondandı, amma mən sənin kimi bəzəkli-düzəkli danışa bilmirəm.**

# Prezident Astanada dövlət başçıları ilə görüşdü



**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Astanaya səfərə gəlib.**

Adalet.az xəbər verir ki, Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş nazirinin müavini Kanat Bozumbayev və digər rəsmi şəxslər qarşıladılar.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib.

***

Astanada Prezident İlham Əliyevin Si Cinpinlə görüşü keçirilib.

Adalet.az xəbər verir ki, Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü baş tutub.

***

İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü keçirilib.

***

**İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş keçirilib.**

# İlham Əliyev: Azərbaycanla Rusiya arasında milli valyutalarda qarşılıqlı hesablaşmalar artır

**Həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Prezidenti İlham Əliyev Astanada Rusiya lideri Vladimir Putinlə görüşündə deyib.

Dövlət başçısı qeyd edib ki, milli valyutalarda qarşılıqlı hesablaşmalar artır:

"Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır. Beləliklə, Sizinlə bir neçə il əvvəl danışdıqlarımız artıq uğurla həyata keçirilir".

# Putin: Azərbaycanla Rusiya arasında hər şey müsbət inkişaf edir

**Qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir.**

Adalet.az-ın məlumatına görə, bunu Rusiya Prezidenti Vladimir Putin Astanada Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə deyib:

"Dövriyyə dörd milyarddan çoxdur, məncə, 4,3-4,5 milyarddır və bu, Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var. Ümumiyyətlə, hər şey müsbət inkişaf edir".

# *Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında görüş keçirilib*

**Azərbaycana səfəri çərçivəsində Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabonenin başçılıq etdiyi arxeoloq və ekspertlərdən ibarət nümayəndə heyətinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovla görüşü olub.**

Adalet.az xəbər verir ki, görüşdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib, müxtəlif səviyyələrdə reallaşan qarşılıqlı səfərlərin, o cümlədən 2002-ci ildə Papa II İohann Pavelin, 2016-cı ildə Papa Fransiskin ölkəmizə, Azərbaycan Respublikası-



nın Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın isə Vatikana səfərlərinin həm ikitərəfli əlaqələr, həm də sivilizasiyalararası dialoq baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb, imzalanan sənədlərin münasibətlərimizin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Müzakirələr zamanı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin fəaliyyətindən, formalaşmış səmərəli əməkdaşlıqdan, birgə layihələrin icrasından məmnunluq ifadə edilib, hazırda da müştərək layihələr üzərində işlərin uğurla davam etdirildiyi bildirilib. Vurğulanıb ki, Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin Fond tərəfindən bərpasının həyata keçirilməsi, mədəni irsin qorunması sahəsində işlərin görülməsi ikitərəfli münasibətlərin dərinləşməsinə töhfədir.

Paskal Yakabone görülən bütün işlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Dini etiqad və vicdan azadlığının tam təmin olunduğu, çoxlu sayda dini icmanın fəaliyyət göstərdiyi, hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şəraitin təmin edildiyi Azərbaycanda digər dini icmalara olduğu kimi, katolik icmaya da göstərilən diqqət, ölkəmizdə kilsə və məbədlərin, o cümlədən katolik kilsələrin bərpası istiqamətində görülən işlər yüksək dəyərləndirilib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun gələcəkdə də Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində yeni layihələrə açıq olduğunu diqqətə çatdırıb.

Görüşdə tarixi və mədəni əhəmiyyət daşıyan abidələrin bərpası istiqamətində təcrübə mübadiləsinin əhəmiyyətinə də nəzər salınıb.

Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabone hər 25 ildən bir Müqəddəs Taxt-Tacda keçirilən və növbəti mərasimin 2025-ci ilə təsadüf etdiyi Müqəddəs Yubiley İli ilə bağlı tədbirə Heydər Əliyev Fondunun da dəvətli olduğunu diqqətə çatdırıb.

## *Dövlət Departamenti: Bakı ilə İrəvan arasında davam edən müzakirələr bizim üçün prioritetdir*



**Azərbaycan və Ermənistanla Vaşinqtonda keçiriləcək NATO sammiti çərçivəsində konkret görüşlər və tapşırıqlar istiqamətində işləməyi davam etdirəcəyik.**

Adalet.az xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel brifinqdə deyib.

O bildirib ki, iki ölkə arasında davam edən müzakirələr ABŞ Dövlət Departamenti üçün prioritetdir: "Cənubi Qafqazdakı bir məsələ kontekstində geniş şəkildə deyim ki, bu bizim üçün və Dövlət Departamentinin digər rəsmiləri üçün prioritetdir. Şübhəsiz ki, sammit çərçivəsində konkret görüşlər və tapşırıqlar istiqamətində işləməyi davam etdirəcəyik. Sadəcə, hələlik konkret gündəliklə danışmaq istəmirəm".

**Qeyd edək ki, NATO sammiti iyulun 9-11-də Vaşinqtonda keçiriləcək və sammitdə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri səviyyəsində iştirak edəcəyi gözlənilir.**

# DAXİLİ İŞLƏR NAZİRİ, GENERAL-POLKOVNİK CƏNAB VİLAYƏT EYVAZOVA



**Cənab Nazir!**

Sizi və Daxili İşlər Orqanlarının bütün əməkdaşlarını 2 iyul peşə bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə və rəhbərlik etdiyiniz təşkilatın bütün əməkdaşlarına yeni-yeni uğurlar arzulayıram.

**Cənab Nazir!**

Qarabağ müharibələrində Azərbaycan Polisi 900-dən artıq şəhid vermiş, onlardan 62-si Milli Qəhrəman adına layiq görülmüş, 400-dən də çox polis qazi olmuşdur.

2023-cü ildə Qarabağda separatizmin kökünün kəsilməsində Azərbaycan Polisi qəhrəmanlıq nümayiş etdirmişdir.

İndiyədək neçə-neçə polis əməkdaşı cinayətkarlıqla mübarizədə xalqımızın əmin-amanlığını, vətənimizin asayişini qorumaq naminə öz şirin canından keçmişdir. Elə sonuncu hadisə, Xəzər rayonunda üç gənc polis əməkdaşı xalqa və dövlətə açılan atəşə sinəsini sipər etmiş və qəhrəmancasına həlak olmuşdur.

Son illər narkotiklərə qarşı polisimizin apardığı mübarizəni də xüsusi qeyd etmək istərdim.

Hazırda azad olmuş torpaqlarda yayın istisində, qışın şaxtasında, qarında Azərbaycan Polisi fədakarlıqla xidmət edir.

**Cənab Nazir!**

Bir daha Sizi və Daxili İşlər Orqanlarının bütün əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edir və dövlətimizin, xalqımızın asayişinin qorunmasında daha böyük uğurlar arzulayıram.

**Hörmətlə:**
**Aqil ABBAS,**
**Millət vəkili, yazıçı**

## *Ayxan Hacızadə: "Həm Türkiyə, həm də Pakistanla əlaqələrimiz qarşılıqlı hörmət və etimada əsaslanır"*

**Azərbaycanın həm Türkiyə, həm də Pakistanla ikitərəfli əlaqələri xalqlarımızın qardaşlığına, tarixi və mədəni bağlarına, qarşılıqlı hörmət və etimadına əsaslanır.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada ikitərəfli və çoxtərəfli görüşləri ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin yerli medianın suallarına cavabında deyib. A.Hacızadə qeyd edib ki, belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimiz davamlı və hərtərəfli inkişaf, müxtəlif sahələri əhatə edən sıx əməkdaşlıq, qarşılıqlı maraq doğuran məsələlər üzrə beynəlxalq səviyyədə birgə fəaliyyət və dəstəklə səciyyələnib. "Üç ölkənin parlament sədrləri, xarici işlər nazirləri, müdafiə nazirlikləri səviyyəsində indiyə qədər bir sıra üçtərəfli görüşlər, tədbirlər və təlimlər keçirilib, əhəmiyyətli məsələlər üzrə razılıqlar əldə edilib və əməkdaşlıq səviyyəsi daha da genişlənib. Xüsusilə vurğulamaq lazımdır ki, nümunəvi xarakter daşıyan bu üçtərəfli əməkdaşlıq platformaları beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq, yalnız sülh, təhlükəsizlik sabitlik və tərəqqini təşviq edir. Astanada liderlər səviyyəsində keçirilmiş bu görüş üç ölkə arasında münasibətlərin yeni səviyyəyə yüksəlməsi, məhz liderlərin rəhbərliyi ilə üçtərəfli əməkdaşlıq platformasının güclənməsi və müntəzəm şəkildə təşkili, Azərbaycan-Pakistan-Türkiyənin yeni istiqamətlərdə strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinə təkan verəcək", - A.Hacızadə vurğulayıb.

## *Avropa Ukraynanın qələbəsinə inanmır?..*

**Avropa İttifaqının beynəlxalq əlaqələr komitəsinin, Aİ-yə üzv dövlətlərin vətəndaşları arasında apardığı sorğuların nəticələrinə görə, avropalıların əksəriyyəti Ukraynanın qələbəsinə skeptik yanaşırlar.**

Sorğuların nəticələrinə görə, avropalırar daha çox Ukraynanın qalib gələcəyinə inanmadıqlarını bildiriblər. 14 ölkədə müharibənin sülh yolu ilə başa çatacağını düşünürlər. Bu müharibədə Rusiyanın qalib gələcəyinə inananlarda kifayət qədərdir. Yunanıstan vətəndaşlarının 31 faizi, İtaliya vətəndaşlarının 22 faizi, Almaniya və Fransa vətəndaşlarının 20 faizi bu qənaətdədir.

**Rüstəm Hacıyev**

# Vətənin sadiq oğulları...

**Azərbaycan dövlətçiliyinin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin təmin edilməsində polisin əvəzsiz xidmətləri var! Vətənin ən ağır günündə - Birinci Qarabağ müharibəsində elə öncə döyüşə atılan və düşmənlə vuruşan polis olub.**

Bu barədə Ulu Öndər Heydər Əliyev də çıxışlarında bu fikiri səsləndirərək deyib ki, ermənilərə qarşı döyüsdə birinci polis sinəsini qabağa verərək vuruşub və vaxt konüllü batalyonlar vardı, ordu da yaxşı təşkil olunmamışdı.

Bax belə bir vəziyyətdə Azərbaycan polisi düsmənlə qəhrəmancasına vuruşub!





Mən bir jurnalist olaraq Ümummilli lider Heydər Əliyevin dediklərinin şahidi və iştirakçısı olmuşam 1991-93- çü illərdə Qarabağ müharibəsinin ağır illərində həftələrlə, günlərlə Füzuli, Cəbrayıl, Ağdam, Qubadlı, Laçın , Şuşa polisinin yanında olmuşam . Onların neçə döyüsdüyünü, kəndlərimizi azad etmələrini gözlərimlə görmüşəm! Onlar aslan kimi vuruşurdular. Füzuli rayon polis şöbəsinin rəisi,Binnət Məmmədovun və əməkdaşlarinin Yuxarı və Asağı Veysəlli, Cəmilli, Qacar, Məngələnata uğurunda mücadilələrin heç vaxt unuda bilmərəm. Polis güllə yarası alırdı, elə səngərdə yarasını sarıtdırıb yenidən döyüsə atılırdı. Üsəlik də döyüsdə məni qoruyurdular və deyirdilər ki, jurnalistdən sən güllə dəyər peşmançılıq olar. Mən deyirdim ki, sizdən artıq deyiləm! O, döyüşlərdə bizi Allah qoruyurdu, yoxsa düşmən gülləsindən qaçmaq olmazdı! Cəbrayıl rayon polis şöbəsinin rəisi Rəşid Məmmədov heç vaxt yadımdan çıxmayacaq. Ermənilər onun başına milyonlarla pul qoymuşdular. Hələ də səsi qulağımdadır. Səhər-səhər cörək yedik, özü də silahı götürüb ,mənimlə bir yerdə səngərə getdı. Həmin döyüsdə Hadrutun on iki kəndi erməni işğalından azad edildi və həmin kəndlərə Azərbaycan bayrağı sancıldı! Bax belə! Amma sonradan Rəşid Məmmədov müəmmalı avtomobil qəzasında öldü! Nə isə...

Azərbaycan polisi torpaqlarımızı azad edərkən belə döyüşüb.Yüzlərlə şəhid verib, nə qədər polis əməkdaşı yaralanıb, qazi və qalib olub! İkinci Qarabağ Savaşında da onlar şir kimi döyüşüblər! Şir kimi döyüşən igidlər Azərbaycan bayrağını azad elədikləri şəhərlərə, qəsəbələrə, kəndlərə sancıblar! Onlar ölkəmizdə cinayətkarlığa qarşı mübarizdə canlarından keçiblər.

Xəzər rayonunun Şüvəlan qəsəbəsində cinayətkarı zərərsizləşdirərkən üç polis əməkdaşı qəhrəmancasına şəhid oldu! Yerləri Cənnət olsun! Bu peşən bayramında mən iki xidmətin- Dövlət Yol Polisi İdarəsinin və Çevik Polis Alayının əməkdaşlarını xüsusilə vurğulamaq istəyirəm. Çünki onlar öz vəzifə borclarını məsuliyyətlə yerinə yetirir, dövlətə, vətənə və xalqa sədaqətlə xidmət edirlər.

**Bir daha peşə bayramı münasibətilə Daxili İşlər Naziri , general- polkovnik cənab Vilayət Eyvazov başda olmaqla , bütün polis əməkdaşlarını təbrik edir, onlara can sağlığı və uğurlar arzulayırıq! Və deyirik: nə yaxşı Vətəni və xalqı qoruyan belə şərəfli polislərimiz var! Allah sizi qorusun, Azərbaycan Polisi!!!**

**EMİL FAİQOĞLU**

*Aqil ABBAS*

# BU FUTBOL DEYİLDİ, ÇANAQQALA SAVAŞIYDI...

***Türkiyə millisi 1\8 finalda Avstriya ilə sonadək qurd kimi çarpışdılar. Hamı Avstriyanı fovarid sayırdı.***

***Xokkey haqqında bir rus filmi var, çox duyğusal filmdi. Həmin filmin bir yerində gözlərim doldu. Məşqçi qapıçıya deyir: "Zaşişay varota, kak Rodinu zaşişaeş".***



***Avstriya ilə oyunda da milli komandamızın qapıçısı Mert qapını deyil, Türkiyəni qoruyurdu.***

***Bir sözlə, türklər 300 milyonluq türk xalqına sevinc yaşatdılar.***

***Və yenə deyirəm, sübut elədilər ki, məşqçisiz də futbol oynayıb qalib gəlmək olarmış.***

***Növbəti rəqib Niderlanddı. Haydı, Türkiyə, inşallah, Niderlandı da yenərsiz.***

***Tanrı köməyiniz olsun.***

***Və o da çox xoş idi ki, bütün stadion türk bayraqlarına boyanmışdı. Bir Azərbaycan bayrağı da gördüm. Bu o deməkdir ki, bütün Azərbaycan da sizinlədir.***

## *TAKSİLƏRİN BAHALAŞMAĞI CƏHƏNNƏM, QƏHƏTƏ ÇIXIBLAR*



**Əvvəllər taksi çağıranda uzağı 4-5 dəqiqəyə gəlirdi, bəzən heç 3 dəqiqə də gözləmirdim. İndi elə bil marşrut avtobusudu, yarım saat gözləməlisən, o da gəlib çıxsa.**

5 milyonluq şəhərdə hələ ki cəmi 12 min taksiyə sertifikatdı-nədi ondan veriblər. Maşınları köhnə olan taksi sürücüləri uşaqlarının gözünə baxa bilmirlər.

Bu yaxşıdı, hər şeydə Avropa standartına keçirik, amma həyat səviyyəsində...

## *BAJI, MƏN QƏRVƏNDDƏ DÜŞƏJƏM*

Ağdamdan Bakıya təyyarə uçuşu zamanı bir sağlam, boylu-buxunlu oğlan durur trapın ortasında. Yuxarı çıxanlara da mane olur, aşağı yenənlərə də. Axırda stüardessa əsəbləşib deyir:

**- Ay qardaş, ya yuxarı çıx, ya da trapdan yen də.**

**- Yox ey, bajı, mən Bakıya getmirəm, yolda, Qərvənddə düşəjəm.**

Qərvənd də Ağdamdan 20 kilometr aralı bir kənddi.

## *Türkiyədən İrana çağırış - PKK-ya silah tədarükünü dayandırın*

**Türkiyə İrandan PKK terror təşkilatına silah tədarükünü dayandırmağı və silahlı qruplaşmalara qarşı Ankaranın hərbi əməliyyatına müdaxilə etməməyi tələb edib.**

Adalet.az xəbər verir ki, bu barədə "Yeni Şafak" qəzeti mənbələrə istinadən məlumat yayıb.

"Ötən həftə Türkiyə ilə İran arasında Süleymaniyyədə (İraq) görüş baş tutub. İclasda Türkiyə Xarici İşlər Nazirliyinin və təhlükəsizlik qüvvələrinin nümayəndələri iştirak ediblər.

İrandan PKK-ya silah tədarükünün dayandırılması tələb edilib və terror təşkilatına qarşı mübarizədə əməkdaşlıq təklif edilib", - məlumatda qeyd edilib.

Bildirilib ki, fotofaktlar, eləcə də İranın sərhəd bölgəsində terrorçuları Türkiyə ərazisinə dəfələrlə köçürdüyünü təsdiq edən sənədlər təqdim edilib. Türkiyə tərəfi İrandan bu transferlərdən imtina etməyi tələb edib.

İran tərəfi öz növbəsində PKK-ya heç bir silah tədarükü etmədiklərini bəyan edib.

# Səfərbərlik Xidmətinin 218 əməkdaşı məsuliyyətə cəlb edilib

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ötən il may ayından etibarən korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində kompleks tədbirlər, o cümlədən normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində müvafiq işlər uğurla davam etdirilir.**

Adalet.az xəbər verir ki, qanunvericiliyin tələblərini pozmuş vəzifəli şəxslər barəsində xidməti yoxlamalar aparılaraq ötən il 78, 2024-cü ilin I yarımilliyində isə 140 əməkdaş barəsində ciddi intizam tənbehi və təşkilatiştat tədbirləri görülmüşdür. 2023-cü ildə 15 fakt üzrə 22, 2024-cü ildə isə 25 fakt üzrə 47 nəfər barəsində toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

"Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 06.09.2023-cü il tarixli 2317 nömrəli Fərmanının icrası ilə bağlı müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı barəsində "sıradankənar həqiqi hərbi xidmətə yararlı", "həqiqi hərbi xidmətə müvəqqəti yararsız", "dinc dövrdə həqiqi hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı" və "həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsız" qərarları qəbul edilmiş vətəndaşların yekun tibbi müayinəsi 01.07.2024-cü il tarixdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçirilir ki, bu da korrupsiya hallarının qarşısının alınması, obyektivliyin təmin edilməsi və şəffaflığın artırılmasında daha da müsbət nəticələr verəcəkdir.

Qeyd edək ki, bu kimi tədbirlər "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbay-



can Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamının, korrupsiyaya şərait yaradan amillərin aradan qaldırılması ilə bağlı tələb və tapşırıqlarının icrasını təmin etmək məqsədilə həyata keçirilir.

**Xidmətin strukturunda korrupsiya hüquq pozuntusu və digər qanunsuz tələblə üzləşən vətəndaşların 9100 Çağrı Mərkəzinə və ya info@seferberlik.gov.az elektron ünvanına müraciət etməsi xahiş olunur. Xidməti fəaliyyətdə şəffaflığın və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə bu kimi tədbirlər davamlı olaraq həyata keçiriləcək.**

## *Azərbaycan mobil internetə qoşulmada irəliləyib*

**Azərbaycan mobil internetə qoşulma üzrə beynəlxalq göstəricilərdə irəliləyib.**

Adalet.az bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə istinadən xəbər verir.

Məlumata görə, GSM Assosiasiyası 2023-cü il üçün "Mobile Connectivity Index" hesabatını dərc edib. Sənəd 173 ölkə üzrə dünya əhalisinin 99 %-nin mobil internetə qoşulması üzrə göstəriciləri əhatə edir.

Hesabata görə, ölkəmiz ötən il mobil internetə qoşulma üzrə 69,33 indeks xalı toplayıb. Bu da 2022-ci illə müqayisədə artım deməkdir.

**Eyni zamanda 2023-cü ilin göstəricilərinə görə, Azərbaycan "Mobile Connectivity Index" üzrə "Keçid" (Transitioner) qrupundan, "İnkişaf etmiş" (Advanced) qrupuna daxil edilib.**



Rüstəm Hacıyev

# Makron istefa verəcəkmi?

***Fransada parlament seçkilərinin ilk turu keçirildi***
***Fransanı nələr gözləyir? Sağçılar qalib gəldi...***

***Fransa parlamentinə seçkilər 2027- ci ildə keçirilməliydi. Lakin avroparlamentə seçkilərdə Le Pen və Jordan Bardellanın rəhbərlik etdikləri sağçı "Milli birlik" partiyasının qalib gəlməsi, Fransa prezidenti Makronu parlamentin aşağı palatasını buraxmaq məcburiyyətində qoydu.***

***"Bu Avropanı müdafiə edən bizim partiya üçün yaxşı nəticə olmadı. Ona görə də mən özümü heç nə baş verməmiş kimi apara bilmərəm. Konstitusiyanın 12-ci bəndinə əsasən mən müzakirələr apardım və qərara gəldim ki, səsvermə yolu ilə yeni parlament seçilsin. Ona görə də mən "Milli yığıncağı" buraxıram" - deyə Makron bəyan etdi.***

***Nəticədə Makronun gözləntilərinin əksinə olaraq, keçirilən birinci turda sağçı "Milli birlik" partiyası seçicilərin 33.4 faizini qazanmaqla qalib gəldi. İlk turun nəticələrinə görə, ikinci yeri seçicilərin 27.98 faiz səsini qazanan, sosialistləri, kommunistləri, yaşılları və solçu populistləri birləşdirən "Yeni xalq cəbhəsi partiyası" tutdu. Prezident Makronu dəstəkləyən mərkəzçilər bloku 20.8 faiz səslə üçüncü oldu.***

***Makron utandığından nəticələrə şərh verməsə də, onun koalisiyasından olan baş nazir Qabriel Attal çıxış edərək, respublikaçı qüvvələri sağçılara qaşı birliyə çağırdı.***

***Məğlubiyyətdən olmayan başını da itirən Makron isə, fransızları "Milli birlik" partiyasına qarşı "geniş demokratik və respublika" mitinqinə çağırdı. Guya fransız xalqı qatı sağçıların qələbəsini istəmir.***

***Onun bu vəhdi də uğursuzluq nəticələndi. Bu adam anlamır ki, xalq artıq demokratiyaya uyğun olaraq səsini verib və öz iradəsini bildirib.***

***Makron hakimiyyətinin bir çox şəhərlərdə təşkil etdikləri mitinqlər qarşıdurmalarla yadda qaldı. Mitinqçilərguya makronçular, Fələstin bayraqları ilə (?) küçələrə çıxdılar, öz "ləyaqətlərini" daha doğrusu makronçuluqlarını göstərərək, mağazaların vitrinlərini qırdılar, iğtişaşlar yaratdılar.***

***Nəticədə fransız polisi hərəkətə keçdi, mitinqçilərə qarşı qaz balonlarından istifadə etməklə mitinqləri dağıtdılar.***

***İndi franslzlar iyulun 7-də keçiriləcək ikinci tura hazırlaşırlar. Müxtəlif sorğuların nəticələrinə görə, Le Penin partiyası parlamentdə 295 yer qazana bilər. Bu isə Makronun tam məğlubiyyəti olar. Xatırladırıq ki, parlament çoxluğunu qazanmaq üçün 289 mandat da kifayət edir.***

***Görəsən Le Pen gözlənilən sayda mandatı qazanarsa, Makronun ləyaqəti çatıb prezidentlikdən də istefa verəcəkmi?***

## İlk gündən...



**Taksi xidməti ilə bağlı Tarif Şurasının qərarı artıq iyulun 1- dən qüvvəyə minib.**

**Elə həmin günü həmişə getdiyimiz yerə taksi çağırdıq. Öncə sifariş etdiyiniz taksi gec gəldi, ikincisi də əvvəllər beş manata getdiyimiz ünvana bu dəfə səkkiz manata apardı. Elə sözün düzü, belə də gözləyirdik! Bizdə hər bir yenilik camaatın başında çartlayır. Və belə yenilik heç kimə lazım deyil. O**

**ndansa, borc- xaricə düşüb avtomobil almaq daha yaxşıdır. Həmin günü taksidən istifadə edən digər dostlarımız da bu xidmətdən çox narazılıq etdilər və dedilər ki, bahadır, ikinci dəfə o taksilərə minməyəcəyik!**

**Rəyini soruşdugumuz insanların çoxu baha olduğuna görə, taksi xidmətindən narazı qaldıqlarını bildirdilər. Və onu da dedilər ki, yeni taksi qiymətləri ortabab və kasıblar üçün deyil, ancaq varlılar üçün əlverişlidir! Görünür, indən sonra pensiyçilar və digər imkansız adamlar tay taksiyə minə bilməyəcəklər! Heç onların pulu qiymətləri qalxmış metroya və avtobuslara çatmir, o ki, qala taksi ola!**

**EMİL FAİQOĞLU**

# ATƏT PA-da Ermənistan konstitusiyasının dəyişdirilməsi tələb edildi

**ATƏT PA-nın Buxarestdə keçirilən 31-ci illik Sessiyasının bugünkü plenar iclasında çıxış edən Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadiyyat və Ekologiya Baş Komitəsinin sədri Azay Quliyev ölkəmizin rəsmi mövqeyini Assambleya üzvlərinin diqqətinə çatdırıb:**

Adalet.az xəbər verir ki, Azay Quliyev bildirib ki, münaqişə başa çatdıqdan sonra Ermənistan ictimai bəyanatlarında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını, ölkəmizə qarşı ərazi iddialarından əl çəkdiyini qeyd edib.

"Lakin, hələ də ciddi bir məsələ açıq qalır: Ermənistanın sözdə verdiyi bəyanatla əməli üst-üstə düşürmü ? Cavab isə sadədir, YOX!

Çünki Ermənistan Konstitusiyasında təəssüf ki, hələ də Azərbaycan ərazisinin bir hissəsinin Ermənistana birləşdirilməsi ilə bağlı ərazi iddiaları var".

Deputat daha sonra qeyd edib: "Belə anormal müddəanın olması hamımızı narahat etməlidir, çünki dünyada münasibətləri normallaşdırmaq və qonşusu ilə sülh müqaviləsi bağlamaq istəyən heç bir dövlət özünün əsas




sənədində həmin dövlətə qarşı ərazi iddialarını özündə əks erdirən bu cür bəndləri saxlaya bilməz. Bu paradoks və ziddiyyət Ermənistanın bəyan etdiyi sülh istəyini və bu prinsipə sadiqliyini ciddi şəkildə sarsıdır. Azərbaycan haqlı olaraq onun milli təhlükəsizliyinə birbaşa təsir edən bu qanunsuz iddiaların aradan qaldırılmasını tələb edir. Lakin Ermənistanın Azərbaycanın haqlı narahatlığını daxili işlərə qarışmaq kimi qələmə verməklə kövrək olan qarşılıqlı etimada zərbə vurmaqda və sülh müqaviləsini gecikdirməkdə davam edir.

Həmkarlar, razılaşırsınız ki, qonşuya qarşı ərazi iddiaları heç bir ölkənin daxili işi ola bilməz! Bu cür rəsmi iddialar regionda sülhə və təhlükəsizliyə birbaşa təhdiddir, hətta beynəlxalq narahatlıq doğuran məsələdir və ona görə də Azərbaycana qarşı olan ərazi iddiası sülh müqaviləsinin imzalanması üçün əsas maneədir və bu müddəa Ermənistan Konstitusiyasından tezliklə çıxarılmalıdır. Bu davranış həm də Ermənistanın elan etdiyi sülh gündəliyi ilə onun addımları arasında uyğunsuzluğu daha da qabarıq göstərir".

Sonda isə Azay Quliyev ATƏT-in Minsk Qrupu, ATƏT-in fəaliyyətdə olan Sədrliyinin şəxsi nümayəndəsi vəzifəsini və Yüksək Səviyyəli Planlaşdırma Qrupunu münaqişədən sonrakı reallığa uyğun olmadığını və tamamilə əhəmiyyətsiz bir quruma çevrildiyini əsas gətirərək onların ləğvini tələb edib:

"Bu cür qeyri-funksional qurumların saxlanması üçün hər il təxminən 2 milyon avronun ayrılmasını əsaslandırmaq çətindir və bu ciddi suallar doğurur. Ona görə də mən ATƏT-in Daimi və Nazirlər Şuralarını heç bir mənası və fəaliyyəti qalmayan qeyd etdiyim strukturların ləğvi məsələsini rəsmi şəkildə nəzərdən keçirməyə çağırıram".

# DSX: Ötən ay dövlət sərhədini pozmağa çalışan 30 nəfər saxlanılıb

2024-cü ilin iyun ayı ərzində dövlət sərhədini pozduqlarına görə 30 nəfər saxlanılıb.

Dövlət Sərhəd Xidmətindən Adalet.az-a verilən məlumata görə, saxlanılan şəxslərin 12-i İran, 7-i Azərbaycan, 6-ı Pakistan, 2-i Əfqanıstan, 2-i Türkiyə və 1-i Nepal vətəndaşı olub.

Qanunsuz miqrasiya ilə mübarizə tədbirləri nəticəsində 10 nəfər saxta tarix möhürü, saxtalaşdırılmış pasport, özgəsinə məxsus sənədlə dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılıb.

Sərhəd rejim qaydalarını pozduqlarına görə 851 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 295 nəfər saxlanılaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olunan 452 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olunan 9 nəfərin ölkəyə daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı



mübarizə tədbirləri nəticəsində 455 kiloqram 466 qram narkotik vasitə və narkotik tərkibli güclü təsiredici vasitə hesab edilən 1642 ədəd həb aşkarlanaraq dövriyyədən çıxarılıb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı həyata keçirilmiş mübarizə tədbirləri nəticəsində ümumi dəyəri 5 milyon 123 min 255 manat olan qaçaqmal, o cümlədən dərman preparatları və tütün məmulatları saxlanılıb.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

# Baqrata qoşulan, Paşinyana etiraz edən «prezident» «bariqa» imiş?

**Xəbər vermişdik ki, 2024-cü ilin fevralında hüquq-mühafizə orqanları qondarma və ləğv olunmuş artsax "prezidenti" Samvel Şahramanyanın mühafizəçisi Aşot Danielyanı 2 sutka müddətinə həbs etmişdi.O, narkotik maddə saxlamaq və satmaqda şübhəli bilinərək həbs edilib, lakin 60 saat sonra ona qarşı heç bir ittiham irəli sürülməyib və Danielyan sərbəst buraxılıb.**

Sonra nə oldu?

Deməli İyunun 21-də Emənistan Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı polis qüvvələri qondarma və ləğv edilmiş qurumun Ermənistandakı nümayəndəliyinin darvazasını sındıraraq xüsusi texnika vasitəsilə özündən bəyə- "prezident"ə xidmət edən maşını oradan götürdülər.

Ermənistanın İstintaq Komitəsiməlumat yayıb ki, Şahramanyanın xidməti avtomobili narkotik vasitələrin qanunsuz dövriyyəsi işi çərçivəsində ələ keçirilib.

Deməli, qondarma president əslində bir bariqa imiş.. yəni narkotik satıcısı



Qeyd edək ki, iyunun 14-də Ermənistan Baş naziri Nikol Paşinyanın "Qarabağın "elitası" 2 saata Bakıya təslim oldu" fikri separatçı Şahramanyanı ,həddindən artıq qəzəbləndirmişdi deyə , iyunun 15 də Samvel Şahramanyanın jurnalistlərə açıqlamaları olmuşdu.

O, etiraz mitinqlərinə dəstək nümayiş etdirməklə bərabər, baş nazirin yalan danışdığını bildirmişdi:

"Biz hər cür toqquşma və zorakılığı pisləyirik. Polis qeyri-mütənasib güc tətbiq etməkdən çəkinməli və vəziyyəti ayıq şəkildə qiymətləndirməlidir. Parlamentdə səslənən bəyanatlara gəlincə, mən yaxın vaxtlarda ictimaiyyət qarşısında çıxış edəcəyəm. Camaat həqiqəti öyrənəcək. Orada səslənən fikirlərin reallıqla heç bir əlaqəsi yoxdur.

Milyardlarla silahı geridə qoymağımıza gəlincə, Paşinyan silahların kimin balansında olduğunu və buna görə kimin məsuliyyət daşıdığını yaxşı bilməlidir. Artsax ordusu son günə qədər Ermənistan hökumətinə tabe olub və Müdafiə Nazirliyinin ərazi bölməsinə çevrilib".

Samvel Şahramanyan həmin gün onu da bildirmişdi ki, "artsax"məsələsi hələki bağlanmayıb: "Artsax ermənilərinin məsələsinin ədalətli həllinə imkan verəcək mexanizmlər tapmaq lazımdır".

***P.S. İndi ay Samvel gördün "artsax" məsələsi necə bağlandı? Sən hökümətlə "hökümətlik" eləmək gücündə deyilsən axı?! Yetim qızsan, qıvrıl yat.***

**Əntiqə Rəşid**

# Stoltenberqin əminliyi hardan qaynaqlanır?

**Yaponiyanın "Yomiuri Shimbun" qəzetinə müsahibə verən NATO-nun baş katibi Yens Stoltenberq bəyan edib ki, ABŞ alyansın ən güclü tərəfdaşıdır və prezident seçkilərinin nəticələrindən asılı olmayaraq, Ukraynaya dəstək göstərməyə davam edəcək.**

Baş katib xatırladıb ki, ABŞ-ın hər iki partiyasının siyasi dairələrində, Ukraynanı dəstəkləyən qüvvələr kifayət qədərdir. Onlar, hətta Donald Tramp prezident seçilsə belə, Ukrayna ilə bağlı fikirlərini dəyişməyəcəklər.

"Kimin prezident seçilməsundən asılı olmayaraq, ABŞ NATO-nun ən güclü tərəfdaşı olaraq qalacaqdır"- deyə Stoltenberq bəyan edib.

Tramp dəfələrlə bəyan edib ki, prezident seçilərsə, müharibəni dayandıracaq. Yəni, Co Baydendən fərqli olaraq, Ukraynanı ağır şərtlərlə danışıqlar masasına oturdacaq. Ərazilərinin demək olar ki, yarısı işğal olunan Ukrayna bu ağır şərtləri qəbul edəcəkmi? Əsas sual budur. Belə olan vəziyyətdə,




NATO-nun "ən güclü tərəfdaşının" prezidenti Tramp Ukraynaya dəstiyini davam etdirəcəkmi? Etməyəcəksə, NATO əsas söz sahibinin əksinə olaraq, Ukraynaya silah-sursat yardımını davam etdirməyə maliyyə gücü çatacaqmı?

Bidiyimiz qədər, Şimali Atlantika Alyansının əsas maliyyə dəstəyinin 70-80 faizini ABŞ qarşılayır. Alyansın silah-sursat ehtiyatlnı Birləşmiş Ştatlar təmin edir. Yəni, aydındır ki, alyansın "xozeyni" istəmədiyi təqdirdə kimsə-kiməsə bir sent belə yardlm edə bilməz...

İkincisi də, Alyansın baş katibi artıq anlamalıdır ki, məhz "əsas güclü tərəfdaş" adlandırdığı ABŞ-ın bilavəsitə "səyləri" nəticəsində Ukrayna münaqişəsi geri dönüşü mümkün olmayan çıxılmaz vəziyyətə gəlib çıxıb...

Hazırki vəziyyəti qiymətləndirsək görəririk ki, münaqişənin sona çatması üçün, ya Ukrayna işğal olunan ərazilərinin birdəfəlik itirilməsiylə razılaşmalıdır, yəni kapitulyasiya aktını imzalamalıdır, ya da Rusiya hərbi qüvvələrini, Krım də daxil olmaqla işğal etdiyi Xerson, Zaparojye, Donbass və Luqansk vilayətləri ərazilərindən çıxarmalıdır, bu da başı imperiyanın bərpası xəyalları ilə dumanlanan Putinin məğlubiyyəti kimi qiymətləndirilər ki, bunun da böyük ambisiyaslarla yaşayan Rusiya prezidentinin qəbul edəcəyi mümkün görünmür...

**Yəni görünən odur ki, müharibə sonsuzluğa qədər uzana bilər...**

**Rüstəm Hacıyev**

# "Məzlum" modundan "qəhrəman" moduna keçiş: Qriqoryanın savaş xatirələri

**Erməni yazarlar Qarabağ müharibəsi ilə əlaqədər yeni nağıllar, əfsanər, xəstə təxəyyül məhsulu oçerk və məqalələr yazmaq mərhələsinə qədəm qoyublar.**

İndi onlar olanları deyil olmayanları , hardasa oxuduqlarını özününküləşdirib yazmağa çalışır, bununla da 10 XTQ döyüşçüsünün qabağından qaçan 1500 erməni hərbçisindən deyil, yerlə yeksan olmuş "qəhrəman erməni xalqı"nın mifini yeniləməklə məşğuldurlar.

Əslində proses yeni başlayır. Çünki əvvəllər erməni jurnalist və yazarları ancaq "məzlum" qismində göstərilir, "günahsız insanlar"ın acı taleyi qələmə alınırdı. Amma indi "qəhrəman" mifi dövrəyə girib.

Bu gün erməni mediası Hetq.am saytı Ermənistanın terrorçu ordusunda Qarabağda işğalçılıq əməli ilə məşğul olmuş 8-ci atıcı briqadanın 3-cü batalyonunda rabitəçi olan Elmira Qriqoryandan , necə deyərlər, "sijilləmə" düzəldib.

Sayt yazır: Nareştər (Narınclar) meşələrində çəkilmiş bu fotoda Elmira gülür, tonqal ətrafında toplaşan silahdaşları ilə oturub.

Elmira deyir:"2023-cü il sentyabrın 23-ü idi, bizim batalyonumuz azərbaycanlıların hücumundan sonra qurbanlar və yaralıları artdı mühasirəyə mühasirəyə düşdü.

Fotoda göründüyü kimi, biz blokadada, qeyri-müəyyənlik içində otururuq. Mənim qızdırmam var, amma gülürəm.

Mən daxili narahatlığımı göstərmək, əsgər yoldaşlarıma əziyyət vermək istəmirəm, artıq diqqət mərkəzindəyəm".

Sayt əlavə edir:"Elmira İrəvanlıdır, 2021-ci ildən Qarabağda hərbi xidmətdə olub. Onun əri on ildən çox Qarabağda xidmət edib.

Elmira:"Hələ 2020-ci ildə, Qarabağ müharibəsindən əvvəl mən Qarabağda xidmət etmək, ərimin yanında olmaq istəyirdim, amma o zaman alınmadı. Təhsilə görə tibb bacısıyam, amma yeni peşə öyrənməyə, hərbçi olmağa hazır idim. 2021-ci ildə düzəldi, Qarabağa getdim və xidmətə qoşuldum. Hər iki övladım İrəvanda baba-babalarının yanında qalıb".



Əvvəlcə hərbi hissədə aşpaz işləməyə qərar versə də, 44 gündən sonra fikrini dəyişib. "Dedim: ordu varsa, xidmətsə, yalnız silahla. Vedrəni tüfənglə əvəz etdim".

Həmin batalyonda Elmiradan başqa daha bir qadın əsgər, tibb bacısı İnqa Qalstyan da var idi. Onlar müxtəlif günlərdə döyüş növbətçiliyinə gedirdilər. Sentyabrın 19-da, azərbaycanlıların hücumu günü İnqa monastırın yardım məntəqəsinə çağırılıb. Sentyabrın 19-da saat 12:30-da Azərbaycan silahlı qüvvələri Qarabağla bütün təmas xəttini atəşə tutmağa başlayıb. İlk mərmilərdən biri komanda məntəqəsinin qarşısında partladı.

Elmira deyir: "Mən hər cür kömək etməyə, onlar qədər güclü olduğumu göstərməyə çalışdım" .

Sentyabrın 20-də saat 13:00-da tərəflər arasında atəşkəs elan edilib .

Sentyabrın 23-də Rusiya sülhməramlıları və Azərbaycan hərbçilərinin nümayəndələri erməni hərbçiləri tərksilah edərək Stepanakertə aparıblar. "Silahları təhvil verəndə cibimdən qumbaranı çıxarıb dedim ki, götür, mənə də lazım deyil. Qarabağı tərk etmək çətin idi, çox çətin idi. Fikirləşirdim ki, bu qısa zamanda bu qədər əlaqə saxlayan mən olsaydım, geridə evləri, xatirələri, məzarları qoyub gedənlər nə deyərlər" - Elmira deyir.

O, Ermənistanda hərbi karyerasını davam etdirmir, Qarabağdan sonra xidmətə qayıtmağın çətin olduğunu deyir.

İndi Elmiranın əsgərlik yaşında olan oğlu xidmətə getməyə hazırlaşır.

***P.S.** Artıq bir aksiyomadır ki, bu toplum çox həyasız və sırtıq bir toplumdur. Başqasının torpağına hücum edib, dili, dini, irqi ayrı olan günahsız insanları süngüdən keçirən, heç kəsə aman verməyən terrorçu olduqlarını məharətlə gizlədə bilirlər.*

*Hətta özlərini dünya ictimaiyyətinə "məzlum" formatında da sırımağı bacarırlar. Elmira deyir ki, mühasirədə olsaq da çox təmkinli idik, sakit idik, gülümsəyirdik! Bu əlbəttə ki, ermənilərin "cəsurluğu"nun göstəricisi deyildi.*

*Bu Azərbaycan ordusunun beynəlxalq qanunlara, insanlığa uyğun mənəviyyatının tərbiyəsinin , əxlaqının göstəricisi idi. Bilirdiniz ki, mühasirədə ələ keçsəniz də Azərbaycan Dövləti siz xüsusi təyarə ilə problemsiz birbaşa İrəvan aeroportunda doğmalarınıza təhvil verəcəkdi.*

*Kaş ki, bu müharibədə Azərbaycan Ordusu da Ermənistan ordusunun keçmiş təcrübəsindən istifadə edəydi. Ölkəsinə qarşı döyüşənləri mühasirəyə saldıqdan sonra, onları diri - diri yandıraydı, başının dərisini soyaydı, tankın arxasına bağlayıb dağlarda, dərələrdə sürüyəydi. Dinc əhalini isə diri-diri , kütləvi şəkildə torpağa basdıraydı. Bax onda da, görəsən belə təmkinli, sakit ola biləcəkdiniz? Çox şükür ki, Azərbaycan Ordusu böyük bir imtahandan alnı açıq, üzü ağ çıxdı!*

*Və bəxtiniz onda gətirdi ki, erməni xislətli bir orduyla deyil, Azərbaycanlı qanı, Azərbaycanlı ləyaqəti olan bir ordu ilə qarşılaşdınız! Təəssüf ki, biz bu mövzuda sizin qədər şanslı olmadıq. Biz sürü ilə ocağımıza darışmış çaqqal sürüsü, qaniçən terrorçu, muzlu separatçılarla döyüşdük!*

**Əntiqə Rəşid**

Əntiqə Rəşid

# Laçının Məcnunu...



***Bu gün Əməkdar artist Məhəbbət Kazımovun doğum günüdür***

*O Məhəbbət Kazımov ki, gözünü bu həyata yumana qədər təkcə oxumadı, doğulduğu, uşaqlığı keçdiyi, gəncliyinə qədəm qoyduğu yurda "Laçın "deyib nalə çəkdi, ağı dedi, haray saldı. Elə bir ürəyinə dammışdı ki, bu dünyadan əlləri Laçına uzanıqlı gedəcəkdi.*

*Müğənninin "Laçınım" deyərkən necə korun-korun yandığını ilk misrada dinlədikcə onunla birlikdə yanmamaq mümkün deyildi, heç indi də özünə təsəlli verə bilmirsən...O yanğı adamı xoşbəxt anında da yaxalayanda xoşbəxtlik göyə çəkilir.*

*İndi düşünürəm, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Kəlbəcər və digər köçkün rayonların sakini olmuş onlarla Xalq artisti, Əməkdar artist adı almış, yüzlərlə "ad"sız müğənniləri, xanəndələri vardı. Amma heç*





*biri Məhəbbət Kazımov ola bilmədi, onun kimi həm özünü, həm dinləyicisini , həm yeri-göyü yandırıb qovura bilmədi. Təəssüf ki, uzun köçkünlük illərində ikinci bir "Məhəbbət"ə rast gəlmədik.*

*"Laçınım" yarandığı gündən bir mahnı olmadı, bir himn, bir çağırış, bir rekviyem oldu.*

*Çünki Məhəbbət Kazımov onu oxumurdu...Nalə çəkirdi, ağı deyirdi, həsrətini, kədərini,qəhərini hayqırırdı. Mahnının sədaları ətrafa yayılanda gözüm qarşısında belə bir mənzərə görünürdü. Köçkünlər sıra ilə boz torpağın üstündə bardaş qurub sinələrinə, dizlərinə"şaxsey" vurur, boz torpağı ovuclayıb başlarına tökür, göz yaşları sel olub yanaqlarından axır... Özüm də kövrəlirdim... indi də mahnının sədaları altında bu yazını yazdığım anda yenə kövrəlirəm, gözlərim dolur.*

*Yana-yana ömrü əbədi şama dönən əməkdar artistin ruhu şaddır. Artıq 2 il əvvəl fotosu Laçının Çorman kəndində asılıb. Elə ruhu da o dağlarda qartal kimi cövlan etdiyinə şübhəm yoxdur. Çünki torpağa gömülən Məhəbbət Kazımovun yalnız nəşi idi. Vətənə vurğun, Vətənə valeh, Vətənə məcnun Ruhu azaddır, xoşbəxtdir!Doğum günün mübarək təkrarsız müğənni, təkrarasız məcnun!*

*Nə yaxşı ki, var olmusan!*

*Əsl adı Möhübbət Allahverdi oğlu Kazımov 1953-cü il iyul ayının 2-də Laçın rayonunun Çorman kəndində anadan olub.*

*Ailədə səkkiz bacı, dörd qardaş olublar. Atası Allahverdi təsərrüfatla məşğul olub. Anası Südabə isə evdar xanım olubdur. Məhəbbət Kazımov ilk təhsilini Şamkənd kənd orta məktəbində alıbdır. Kiçik yaşlarından istedadına görə digər bacı-qardaşlarından seçilib. Musiqi təhsili alması üçün qohum-tanışların təkidi ilə 1974-cü ildə Bakı şəhərinə gedib. Asəf Zeynallı adına musiqi texnikumuna qəbul olub. İlk muğam dərslərini Nəriman Əliyevdən almış, sonradan Ağaxan Abdullayevin sinifində oxuyub.*

*1976-cı ildən professional səhnədə çıxış edirdi. "Dan Ulduzu" ansamblının solisti olmuşdur. Azərbaycanın bir çox konsert salonlarında öz tamaşaçılarına solo konsertlər verib.*

*Bir çox xarici ölkələrdə, Türkiyədə, Rusiyada, İranda, Çexoslovakiyada və başqa ölkələrdə qastrol səfərlərində olubdur. Məhəbbət Kazımov əsasən Azərbaycan milli musiqisi janrında, bir çox tanınmış mahnı və muğamlar oxuyubdur. Ən çox sevilən mahnılarından biri də "Laçınım" mahnısıdır. 14 sentyabr 2012-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artist" fəxri adına layiq görülüb.*

*1990-cı ildə ailə həyatı qurub, üç övlad atası idi*

*27 yanvar 2014-cü ildə uzun sürən xəstəlikdən sonra vəfat edib. Xırdalan qəbiristanlığında dəfn olunub.*

*Məhəbbət Kazımov vəfat edənə qədər "Laçın" instirumental ansamblının rəhbəri olub.*

*Ruhu daima şad, məkanı Cənnət olsun!*



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# İkinci nəfəs...

*İnsan xəstələnəndə göydə Allaha və yerdə həkimlərə ümid edir. Heç şübhəsiz, hər bir pasiyent bu hissləri və duyğuları yaşayır.*

*O xəstələr ki həkimə inanır və ona ümid bəsləyir, onlar gec-tez şəfa tapırlar! Vay o günə ki, həkimə inanmayasan və ümid bəsləməyəsən.*

*Bu yaxınlarda doğmalarımdan birinin səhhətində əsəblə bağlı problem yaranmışdı. Ona görə də həkimlər onun 2 nömrəli Klinik Psixiatriya Xəstəxanasında müalicə olunmasını məsləhət bilmişdilər. Xəstəmizi həmin müalicə ocağına apardıq və oradakı həkimlərlə görüşdük. Məlum oldu ki, bizim xəstəni həkim-psixiatr Sura Müzəffər qızı Fərmanova müalicə edəcək. O, xəstəmizi müayinə etdi və sonra da müalicəyə başladı. Bir ay müddətində xəstəmizdə böyük dəyişiklik yarandı və onun səhhəti daha da yaxşılaşdı.*

*Sura Fərmanova Azərbaycan Tibb Universitetini bitirib və 2013-cü ildən bu klinikada çalışır. Çox savadlı, sadə və səmimi bir insandır. Onunla bir dəfə söhbət edən kimi ürəyinin və qəlbinin böyüklüyünü hiss edirsən. Və onu da hiss edirsən ki, Sura xanım çox gözəl insan olmaqla yanaşı, gözəl bir aura sahibidir.*

*Onun müsbət və işıqlı enerjisini onunla görüşən hər bir adam hiss edir. Bax, əsl həkim belə olmalıdır; sevgisini, ürəyinin işığını onun yanına gələn pasiyentdən əsirgəməməlidir! Heç əsirgəmir də! Bu klinikada onun kimi həkimlər barmaqla sayılır və onlardan biri də həkim-psixiatr Leyla Bəşirovadır! O da çox gözəl insandır və vaxtı ilə bizim xəstənin üstündə zəhməti olub. Onun yaxşılığını heç vaxt yaddan çıxarmarıq!*

*Ona görə də xəstəxananın baş həkimi İlqar Əfəndiyevə, Sura Fərmanovaya, Leyla Bəşirovaya və bütün həkim personalına təşəkkürümüzü bildiririk.*

*Və deyirik: həkimlər yer üzünün mələkləridir, Allah insanlara ikinci nəfəs verən belə mələk çöhrəli, nur sifətli həkimlərimizi qorusun!!!*

# Keşiş Baqrat Gorusda sayıqladı: "Artsaxa qayıtmaq arzumuz var..."



**Xəbər verdiyimiz kimi Ermənistanı bir-birinə qarışdıran arxiyepiskop bu gün artıq 4 gündür ki, Zəngəzurdadır. Gorusda ermənilərlə görüş keçirən Baqrat artıq Ermənistanla Azərbaycan arasında münasibətlərdə "araqarışdırmaq" missiyasına söykənərək çıxışlar edib.**

O, Qarabağı könüllü tərk edən ermənilərin Ermənistana gəlməsindən xəcalət çəkdiyini bildirib: "Mən Artsaxdan olan qardaş və bacılarımıza xüsusi müraciət etmək istəyirəm. Mən İrəvanda və hər yerdə demişəm ki, sizin burada olmağımız bizim ayıbımızdır.

Bizim utancımız təkcə o mənada deyil ki, siz bu gün öz vətənimizdən zorla köçürülmüsünüz, həm də ona görə ki, biz heç nə edə bilməmişik ki, bizim vətənimiz, Artsax dünyamız ermənilərlə nəfəs alsın.

Sizi hər görəndə andımızı təzələyirik ki, vətənimizə qayıtmaq arzumuz var".

Qeyd edək ki, Baqrat Qalstanyan ötən ay İrəvanda keçmiş separatçı rejimin təmsilçiləri ilə o cümlədən Xocalı qatili Serj Sarkisyanla görüşdü. (Ləğv edilmiş qondarma qurumun sonuncu başçısı Samvel Şahramanyan onunla görüşməyib) Təsadüfi deyil ki, təxribatçı keşiş mayın 9-da aksiyalara başlayanda "Qarabağ Ermənistandır" şüarını səsləndirmişdi.

***P.S.*** *Görünən odur ki, Baqrat israrla xalqı üçün növbəti "dəmir yumruq" arzusundadır.*

**Əntiqə Rəşid**

# Ermənilər sorğu edib: Serj və Robert "qalib", Əliyev fateh, torpaq təslim edən isə....

**Ermənilər ölkəsində sorğu aparıb və müstəqillik qazandıqdan sonra Ermənistana baçşılıq edənlərə münasibət öyrəniblər.**

Adalet.az xəbər verir ki, nəticələri "Hraparak" nəşri paylaşıb. Nəşr yazır:"Hitler 2-ci dünya müharibəsini başladan fürer kimi, bu müharibədə Stalin qələbə çalmasına görə yox, 1937-ci ildə düzənlədiyi represiyya görə yaddaşlara həkk olundu. 2003-cü ildə isə Corc Buş İraqı işğal etmək qərarına görə bəşəriyyətin yaddaşında qaldı. Putin qardaş Ukrayna xalqına vurduğu ziyanla, qardaş müharibəsinə başlaması ilə tarixə düşdü.

Zelenski indi təslim olmamaq üçün çıxılmaz mübarizə aparmasından asılı olmayaraq, Ukraynanı məhv edən lider kimi xatırlanacaq. İlham Əliyev torpaqları fəth edən, əvvəlki məğlubiyyətləri düzəldən lider kimi yaddaşlarda qalacaq".

Nəşr daha sonra öz ölkəsinin başçıları haqqında məlumat verir:"Ölkəmizin liderləri də eyni standartla yadda qalacaqlar: Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sarkisyan bütün səhvlərdən, hətta seçkiləri saxtalaşdırmaqdan asılı olmayaraq, tarixdə qalib prezidentlər kimi qalacaqlar, Nikol Paşinyan isə bir. ölkəni məğlub edən, böyük itkilər verən baş nazirə torpaqları təslim etdi".



***P.S.*** Ermənilərin sorğusunda "İlham Əliyev" cümləsinə qədər bütün nəticələrlə razılaşıram. Amma Ermənistan başçılarının yadda qalan tərəflərilə razılaşmıram. Azərbaycan xalqı Levon Ter-Petrosyanı nisbətən siyasətdən anlayan biri kimi tanıyır. O vaxtı ilə Qarabağın Ermənistana aid ərazi olmadığını vurğulamışdı. Robert Köçəryan və Serj Sarkisyan sözün həqiqi mənasında qalib yox qatil , terrorçu idilər. Siyasətdən anladıqları yox idi və elə bilirdilər ki, zorbalıq, vəhşilik və gücə hər şey deməkdir. Özgənin torpağına girib, əhalini qovub, etiraz edənlərin kütləvi şəkildə məhv edib , yurdları talan etmək qalibiyyət deyil. Yaxşı siyasətçi o zaman olardılar ki, qondardıqları "artsax"ı tanıda biləydilər. Demək dünya da da şahid oldu ki hər iki qatil işğalçıdır və gec-tez cavablarını alacaq. Sonunda "qalibiyyətləri" necə darmadağın olduğu da göz qabağındadır.

Sonuncu baş nazir Nikol Paşinyan əslində bir ermənidir. 2018-ci ilin 8 mayında Şuşada qol götürüb oynayan, Ermənistan ordusunun Şuşada qələbəsini qeyd edən bir erməni! O , əlbəttə ki, torpaq verəcək deyildi! Öz halal torpağını Azərbaycan xalqı mütəşəkkil şəkildə birləşərək ordusu vasitəsilə düşməndən geri aldı. Əslində Paşinyan ona görə , torpaqların təslimiyyatına ona görə qol çəkir ki, 1918-20-ci illərin xəritəsində həmin ərazilərdə "ermənistan deyə bir struktur istifadəçisi olmayıb. Odur ki, razılaşdırıldığı kimi delimitasiya və demarkasiya 1975-ci ilin xəritəsi ilə yoluna qoyulur. Paşinyan həm də anlayır ki, 10-15 XTQ -nin qarşısından qaçan 1500 erməni əsgərinə güvənmək olmaz! 44 günlük müharibənin məğlubiyyətindən sonra erməni ordusu ən azı 15 ilə özünə gələ - gəlməyə, döyüş əzmində ola- olmaya...

**Azərbaycan xalqı yer kürəsində 60 milyondur, ermənilər isə 6 milyondur. Sizcə, 60 milyonun yaddaş tutumu böyük olar, yoxsa 6 milyonun?**

**Əntiqə Aslan**

# Mazoxistlərin illuziyası davam edir: "ArtsaxTV" bərpa olundu

**Ermənilərin başına son 4 ildə 4 dəfə "dəmir yumruq "dəysə də illüziyalar yaşamaqdan əl çəkə bilmirlər.**

1988-ci ilin fevralından 2023-cü ilin sentyabrına qədər mövcud olmuş qondarma artsax "respublikası"nın qondarma bir TV-si də mövcud olub. Adı da Arsakh TV.

Deməli, "arsax" ləğv ediləndə onun tv-si də , "arsaxpress"i (sayt) də ləğv oldu və yayımını dayandırdı.

Bu gün erməni mediası sevinclə qeyd edir ki, eks "artsax"ın tele-radio verlişləri departamentinin sabiq sədri Geqam Stepanyan sosial şəbəkə hesabında Artsax televiziyasının bərpasılə bağlı paylaşım edib. Paylaşımda deyilir:""Artsax televiziyası kiçik heyətlə olsa da, son dərəcə mühüm rola malik olmaqla, artsax xalqı (???)arasında sosial




əlaqələr, erməni kimliyinin və Artsax dialektinin artsax xüsusiyyətlərinin qorunub saxlanması istiqamətində əlindən gələni etmək üçün fəaliyyətini bərpa edir. Məqsəd artsax xalqını narahat edən məsələləri işıqlandırmaq və onların səsini mütəmadi olaraq qaldırmaqdır". Görünən odur ki, bəzi hegemon dövlətlərin bir çoxu Qarabağı könüllü tərk edib gedən erməniləri yenidən Qarabağa qaytarmaq çalışmaları öz bəhrəsini verir. Ermənilər ABŞ, Fransa, İran, Rusiya və s. dövlətlərin bu yolda cənfəşanlığından bərk ruhlanıblar. Özlərini "Qərbi Azərbaycan " kimi bir müəyyən bir çevrədə görmək üçün ilk addımları atıblar.

***P.S.*** *Vallah, day, bu məxluqların ünvanına yazacağım təhqiramiz bənzətmələr, alçaldıcı sözlər, aşağılayıcı ifadələrdə bitib qurtarıb. Elə bil mazoxistdirlər. ( Mazoxizm - alçaldılma, zorakılıq və ya işgəncədən həzz almaq meylli) Nə söyüşdən, nə təhqirdən, nə alçalmadan, nə də döyülməkdən yumruqlanmaqdan usanırlar.*

**Ə. Rəşid**

# ABŞ Ermənistanda yeni AES tikəcək: Rusiya isə Metsamoru...

**Bu günlərdə Ermənistanda Amerikanın azaldılmış gücü ilə modul tipli atom elektrik stansiyasının tikintisinin mümkünlüyü müzakirə olunub. Baş nazir Nikol Paşinyan fevralın 8-də Ermənistanın modul tipli atom elektrik stansiyası tikmək imkanını nəzərdən keçirdiyini açıqlayıb və bunun daha təhlükəsiz olduğunu vurğulayıb.**

Ərazi idarəetmə və infrastruktur nazirinin müavini Hakob Vardanyan aprel ayında bildirmişdi ki, Amerika təşkilatları Ermənistanda yeni atom elektrik stansiyasının tikintisinin texniki və iqtisadi tədqiqatlarında da iştirak edir. Adalet.az xəbər verir ki, bu gün Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ-la yeni atom elektrik stansiyasının tikintisi prosesinin "mövzu mərhələsinə daxil olduğunu" açıqlayıb.

"Biz ABŞ ilə hüquqi müqavilə sahəsini müzakirə edirik, onsuz irəli gedə bilmərik. Hazırda topun ABŞ-ın meydanında olduğunu deyə bilərəm. Biz gözləyirik ki, ABŞ-ın daxili prosedurları keçəcək, sonra işə başlayacağıq". Təhlükəsizlik Şurası katibinin sözlərinə görə, Ermənistan təhlükəsizlik sektorunda diversifikasiyada böyük uğurlara malikdir, bunu iqtisadi sektor haqqında demək olmaz. "Burada çoxlu problemlər var ki, onların həlli üçün böyük işlər görülür və təsadüfi deyil ki, aprelin 5-də keçirilən iclasın gündəliyində prioritet məsələlər məhz iqtisadi xarakter daşıyırdı". Yeni AES-in gücü də müzakirə olunan mövzular sırasındadır. Rusiya reaktorlarının gücü təxminən 1000-1200 MVt-dır. Ermənistan isə daha az gücü olan atom elektrik stansiyası ilə daha rahatdır. Hazırda ölkənin bütün enerji təlabatı təxminən 1200 MVt təşkil edir.

Qeyd edək ki, Ermənistanda yeni atom elektrik stansiyasının tikilməsi məsələsi uzun müddətdir ki, müzakirə olunurdu. Çünki Metsamor AES-in istismar müddəti 2016-cı ildə başa çatmalı idi. Vaxtaşırı uzadılıb. Hökumətin 2021-ci il qərarına əsasən, 2036-cı ilə qədər istismara verilməsi planlaşdırılır. Texniki təchizat "Rosatom" tərəfindən həyata keçirilir.

**Əntiqə Rəşid**

# Rəngarəng xarakterlər ustası



*Nəriman Fərman*

**Nə yaşadı ki... Cəmi altmış bir il. Amma nələr yaratmadı bu altmış bir ildə... Yaşasaydı daha nələr yazıb-yaradardı...**

Onunla son dəfə 1995-ci il noyabrın 5-də ikimizin də doğması olan Eldar müəllimin övladının toy məclisində görüşmüşdük. O, toyda ibrətamiz çıxışıyla gəncləri təbrik edib, onlara xeyir-dua verdi. Həmin gün İsi müəllim nədənsə mənə fərqli -xeyli pərişan və bənizi solğun göründü. Amma o, məclisin ümumi ruhuna uyğun şən görkəmdə davranmağa çalışırdı. İsi müəllimin əhvalını pozaram - deyə düşünüb, ondan bu pərişanlığının səbəbini indi soruşmağı düzgün saymayıb, sonraya saxladım. Ancaq tale elə gətirdi ki, həmin ərəfədə onunla görüşə bilməmişdim. İsi müəllim isə o görüşdən sonra, aradan heç bir ay keçməmiş, 1995-ci il dekabrın 4-də qəfil ürək tutmasından dünyasını dəyişdi. Onun ölümü ədəbiyyatımız üçün, İsisevərlər üçün, doğmaları üçün böyük itki idi.

Onu yaxından tanıyanlar deyirdilər ki, İ.Məlikzadə yazıçı olmasaydı, aktyor olardı. İnandırıcıdır. Ancaq o zaman barmaqla sayılan məşhur "altmışıncılar"ın sayı bir nəfər də az olardı. Yaxşı ki, o, yazıçı olub, hekayələr və povestlər ustası kimi bir-birindən maraqlı, rəngarəng xarakterli obrazlar yaradıb. İndi arxayınlıqla demək olar ki, onun sözünün ömrü, öz ömründən fərqli olaraq uzunömürlü oldu... Bunu onun ölümündən otuz il ötməsinə baxmayaraq, oxucu sayının günü-gündən artması deməyə əsas verir.

Belə bir fikir var ki, yazıçı əsərlərində, əsasən, özünü yaradır. Bu, müəyyən mənada belədir. İsi müəllimin tədqiqatçısı, hörmətli professor Vaqif Yusifli yazır ki, "İ.Məlikzadənin "İki günün qonağı" povestindəki mühəndis İslam elə İsinin özüdür". Adı çəkilən povestdə müəllif özünü mühəndis İslam, atası Abbas əmini Eyvaz, anası Zəriş xalanı Əfruz obrazlarında təqdim edir. İ.Məlikzadə həmin obrazların geyim-keçimlərini, danışıq və davranışlarını, sifət cizgilərini elə canlı, elə təbii göstərib ki, onlarla yaxın qohum və qonşu olduğumdan Vaqif Yusiflinin bu sözlərini təsdiqləməyə borcluyam. O əsər, doğrudan, da İsi müəllimin avtobioqrafiyasıdır.

Ancaq bu fikirləri yazıçının "Gümüşgöl əfsanəsi" povestinin əsas qəhrəmanı Orxan haqqında söyləmək olmur. Orxan heç kəndlə fermanın fərqini də bilmir. Orxan "Çanaqqala"da xalçaçı Ağabəyimi axtaranda uçqar bir yerdə üç-dörd yastı-yapalaq ev, bir-iki tövlə görüb maşını saxlayıb soruşur:

-Bura kənddir?

-Bura fermadır, mal ferması - cavabını alır.

Bu epizodda Orxanı heç qınamaq da olmur. Axı, Orxan Bakıda - İçərişəhərdə doğulub, orada boya-başa çatıb. İsi isə kəndə yaxşı bələd olduğundan kəndlə fermanın fərqini yaxşı bilirdi. Odur ki, bu obrazı İ.Məlikzadənin prototipi hesab edənlərin fikirləri ilə razılaşmıram. Bu başqa məsələ ki, yazıçı özü yaratdıqları qəhrəmanları bir növ özününkiləşdirdiyindən o, qəhrəmanlardan birində və ya bir neçəsində öz xarakter çizgilərini verə bilər. Bu, əlbəttə, bütün yaradıcı adamlara xas olan cəhətdir. Ancaq müəllifin yaratdığı hər qəhrəman onun özü ola bilməz.

Mən onun yaratdığı obrazların prototiplərinin bəzilərini yaxından tanıyıram. Məsələn, "Qatarda" hekayəsindəki Dadaşovun prototipi - Ağcabədidə, bazarın girəcəyində çəkməçi köşkü olan pinəçi Sabirdi. "Evin kişisi"ndə Mikayılın prototipi - qonşumuz kor Soltan, "Küçələrə su səpmişəm"dəki ocaqçı Xəlil - qonşumuz Həsən, Çərkəz isə - qohumumuz Namaz kişidir. Onları gördəndən sonra həmin əsərləri təkrar oxumuşam. Əmin olmuşam ki, fikirlərimdə yanılmamışam. Mübaliğəsiz deməliyəm ki, İ.Məlikzadənin qələmində həm də mahir bir rəssamın əsrarəngiz fırça qüdrəti var idi. Çünki o qələm-fırça həmin qəhrəmanları ayrı-ayrılıqda öz xarakterinə uyğun elə boyayır ki, oxucu sanki onlara canlı tamaşa edir.

Bununla yanaşı yazıçı doğulub, boya-başa çatdığı, tozlu-torpaqlı doğma yurdu Ağcabədini də unutmur. Hər xırda detalları nəzərdən qaçırmamaqla oranın tablosunu yaratmağa çalışır. Oraların nəyindən yazmır? Hər şeyindən: rayonun mərkəzindən axıb gedən suyu lilli Qobusundan, "Qoç heykəlindən", Vəzirin həmişə haylı-küylü "Gündüşməz" çayxanasından, əyri-üyrü dolanbac küçələrindən, samanlı çiy kərpic evlərindən, həmin evlərin kol-kosla, qar-qamışla əhatələnmiş həyətlərindən, şər qarışanda sarımtıl ağcaqanadları qovmaq üçün həmin həyətlərdə yandırılan təzəklərdən havaya qalxan boz, göyümtül tüstüsündən, cırcıramaların yeksənək səsindən, narıncı çiçəkli yulğunundan, ətirli yovşanından və sair və ilaxır. Bunlar "Quyu", "Dədə Palıd", "Küçələrə su səpmişəm", "Çəhrayı dəftər" povestlərində böyük məhəbbətlə vəsf edilib.

İ.Məlikzadə hərdən öz qəhrəmanlarını mənsub olduqları bölgələrin şirin ləhcəsində danışdırmaqla yanaşı, onların anadangəlmə yaxud, sonradan qazanılmış vərdişlərini də göstərir. Məsələn, "Gümüşgöl əfsanəsi"ndə Ağazəki bu və bu kimi suallarla "Xaloğlu, de görüm, Birinci Dünya müharibəsində neçə Qarabağ atı iştirak edib?", "Teymurləngin topal ayağı sağlam ayağından nə qədər qısa idi?" və s. "qatı açılmamış" suallarına cavab tapmayanlara Ağazəki: -Savadlı olmaq, institut qurtarmaqnan dögül. Diplom almağa nə var?- kimi cavabları ilə diqqəti cəlb edir. Yaxud "Gəl qohum olaq" əsərindəki usta Qarabala ilə iş icraçısı Ədalətin arasında işlənən deyimlər: "Ə, mənə "Qaradolaq" Qarabala deyərlər ha", "Ə, lələ, mənə də gəncəli balası Ədalət deyərlər, ə" və s. kimi ifadələr İ.Məlikzadə dilinin necə zəngin olduğunu göstərirdi. Yaxud, "Dolaşaların novruz bayramı"ndakı dayə Nəsibin hirslənəndə başının ortası gicişirdi...

Yazıçının "Qatarda" hekayəsində Sabit Mirzənin müəllimi olan Məmməd Qayanın dilindən oxuyuruq: "Rastlaşdığınız adamların yanından biganə ötməyin. Onların danışığına, davranışına fikir verin." Yazıçı özü Məmməd Qayanın dediyi bu sözlərə həyatda tam əməl edib. O, insanların yanından nəinki biganə ötməyib, hətta onların daxili aləminə bələd olmağı da bacarıb. Yazıçının qızı Xatirə xanım danışır ki, uşaq vaxtı atam bizi gəzməyə aparanda, bizim gəzmək vaxtımızdan kəsib hərdən dayanıb nəyəsə, kiməsə diqqətlə baxmağının səbəbini sonralar başa düşdüm. Heç demə atam o anda gələcək əsərlərinin detallarını, obrazlarını axtarırmış. Düşünürəm ki, o tək övladlarının gəzmək vaxtından kəsməyib. Bütün yaradıcı adamlar kimi o da özünün istirahətindən, yuxusundan kəsdiyi günlərin sayı çox olub. Nəticəsi isə bizlərə yadigar qoyub getdiyi əbədiyaşar, müxtəlif xarakterli, rəngarəng obrazlar oldu. Onun pəncərəsindən sübhə qədər işıq süzüldüyünü çox görmüşəm. İ.Məlikzadə 1987-ci ilin oktyabrında valideyn qayğısından məhrum olan, internat məktəbində təhsil alan acı taleli uşaqların həyatından bəhs edən məşhur "Dolaşaların novruz bayramı" povestini bir həftəyə yazıb tamamladığını dəqiq bilirəm. O, bu müddəti özü söhbətlərinin birində demişdi. Sonra müəllifin sözügedən povestinin əsasında yazdığı ssenaridən qəlbləri riqqətə gətirən "Pəncərə" filmi çəkildi. Povestdə sözügedən internat məktəbində bir müddət oxuduğumdan və bu mühiti yaxşı bildiyimdən povest mənə çox təsir etmişdi. Çünki yazıçı o internatın abı-havasını elə dəqiqliklə təsvir etmişdi ki, inanmamsamda fikirləşmişdim ki, yəqin İsi müəllim da vaxtı ilə bu internat məktəbində oxuyub. Bu fikrimi və povest haqqında təəssüratlarımı İ.Məlikzadə ilə görüşəndə ona bildirdim.

Sözarası ona dedim ki, İsi müəllim, siz internatda oxumamısınız, ancaq oranın abı-havasını, o uşaqların ağrı-



acısını, arzu və istəyini, onların həyatını olduğu kimi elə real, elə təsirli təsvir etmisiniz ki, təsirlənib kövrəlmişəm. Doğrusu, əsərə görə hələ də heyrətdəyəm. Necə olub ki, orada baş verən hadisələri əsərdə belə dəqiqliklə verə bilmisiniz?

İ.Məlikzadə cavabında dedi: - Təsadüfən, internatın yanından ötürdüm (Həmin internat məktəbi Şuşada yerləşirdi - N.F.). Gördüm ki, bir adam internatın hasarlanmış divarına söykənib fikrə gedib. O, yaman pərişan və dalğın görünürdü. Gözləri yol çəkirdi, elə bil harasa lap uzaqlara baxırdı. Dayanıb bir xeyli ona baxdım. Birdən o, elə bil yuxudan oyandı. Mənə baxdı. Yaxınlaşıb ona salam verdim. Ədəblə salamımı aldı. Xeyli söhbət etdik. Məlum oldu ki, həmin şəxs vaxtilə buranın sakini olub, orta təhsilini bu internat məktəbdə başa vurub. İndi başqa respublikada yaşayır. Hər il gəlməsə də, bir neçə ildən bir buraya gəlib, o günləri xatırlayır. Onun dediklərini əsas götürmüşəm.

Bax, İ.Məlikzadənin istedadı, nəhəng yazıçı olmasının səbəbi bu idi. O, bu epizoddan qısa müddətdə sanballı bir əsər yaratmışdı. Buna görə də İ.Məlikzadə rəngarəng xarakterli obrazlar yaratmaq sahəsində əsl ustad idi.

"Alovlu Qış" romanında qoyulan məsələ çox ciddidir. Əsərdə təsvir edilir ki, inqilabdan sonra Azərbaycanın uçqar kəndlərinin birində - Daşlıda taun xəstəliyi tüğyan edir, insanlar qırılır, kənd vahimə içərisindədir. Romanda bu ölümsaçan yoluxucu xəstəliklə ölüm-dirim mübarizəsi aparan həkimlərin və aidiyyatı işçilərin fədakarlığından bəhs edilir. Bu çətin mübarizə öz bəhrəsini verir. Həkimlər az itkilərlə bu dəhşətli xəstəliyin qarşısını almağı bacarırlar. Daşlıda həyat yavaş-yavaş qaydasına düşür...

İ.Məlikzadənin yazılarını oxunaqlı edən onun yazıçı təxəyyülündən başqa, yazılarına həm də təbiətindən gələn duzlu yumorlarını, düşündürücü ironiyalarını qatması idi. Bu məziyyətlər, demək olar ki, müəllifin bütün yaradıcılığından, o cümlədən, "Alovlu qış" romanından da qırmızı xətt kimi keçir. "Alovlu qış" romanında da müəllif yaradıcılığına xas olan incə bir yumor və xəfif bir ironiya hiss olunur. Romandan bu hissəyə nəzər salaq :Şura sədri Yavərin həmişəki kimi işi başından aşır, qapı açılır, Mehralı ilə Seyfulla içəri girir. Məlum olur ki, Seyfulla Mehralının danasını kəsib xeyli vaxtı ətə həsrət qalan ailəsinə yedizdirib. Mehralının tələbi isə Seyfulladan danasının əvəzini qaytarmaqdır. Əks təqdirdə bunu Seyfullaya halal etməyəcəkdir. Sədr məsələni yarıyumor, yarıironiya şəklində belə bir "sülhlə" həll edir. Sədr Mehralıya belə deyir:

- Mehralı, tutalım ki, dananı halal etmədin, vaxt gəldi hər ikiniz köçdünüz o dünyaya, orda da inkir-minkir Seyfullanın ağzını-burnunu əzişdirib dananı alıb verdilər sənə. Camaat kefdə-damaqda, sən isə yedəyində dana gəzdirəcəksən. Heyvan da cənnətin gül-çiçəyini basıb yeyər, səni biabır edər. Ona görə də səni o dünyadan qovarlar.

Müəllif bu hadisəni və Daşlı kəndinin həmin müdhiş qara günlərini elə reallıqla əks etdirir ki, oxucu sanki müəllifin də o hadisələrin iştirakçılarından biri olduğunu zənn edir.

İ.Məlikzadə əsərlərində, əsasən, 1960-90-cı illərin reallıqlarını əks etdirmişdir. Onun qəhrəmanları sadə, imkansızı mənəvi cəhətdən zəngin, imkanlısı rəhimli, el-obanın xeyir-şərinə yarayan, borc alıb qonağa süfrə açandırlar. Bir sözlə, onlar Azərbaycanın mənəvi mentalitetinin daşıyıcılarıdır.

"Talisman" hekayəsindən məlum olur ki, yük maşını sürücüsü Binnət kənddə - Alpout yolunda təsadüfən qəza törədib. Ağarəhim müəllimin təzə "Juqili"sini vurub, min manat xərcə düşüb. Binnətin isə bu məbləği ödəməyə imkanı yoxdur. Binnət Ağarəhimi evinə aparır. Bu xəbəri eşidən Binnətin böyük qardaşı traktorçu Əfəndi haya gəlir. O, bu məbləği ödəmək üçün yollar arayır: evindəki xalı-xalçanı, Binnətin həyətdəki inəyini, bacısının evindəki ehtiyatlarından sabah bazara çıxarıb satmağa hazırlaşır. Buna görə də Ağarəhim müəllimdən bir gün gözləməsini xahiş edir. Ağarəhim müəllim qonaq qaldığı bu evdə ailənin imkansızlığını bilib, ürəyi yumşalır və səhərə kimi yata bilmir. O, səhər açılmamış obaşdannan durur. Binnəti narahat etmədən xəlvəti əzilmiş "Juqili"sinə oturur. İşə çatmaq üçün maşının sürətini artırıb Bakıya yola düşür. Göründüyü kimi, bu hekayədə mənəvi saflıq, təmizlik, səmimiyyət kimi insani xüsusiyyətlər öz əksini tapıb.

"Cehiz güzgüsü" hekayəsində isə hadisələr belə cərəyan edir. Qızının toyuna bir həftə qalsa da, Abdulla yaşadığı və digər iki qonşu rayonu axtarsa da, qızı üçün cehiz güzgüsü tapa bilməyib hirslənir: - Day güzgü zad axtaran deyiləm"- deyir.

Qonşusu və qohumu Nəsir isə: - "Güzgü mənim boynuma"- deyib təyyarə ilə Bakıya uçur. Səhərisi gün güzgü alıb, avtobusa əyləşib rayona qayıdır. Güzgü qırılar deyə ehtiyatlanıb güzgünü Nəsir sinəsinə sıxıb dörd yüz kilometr yolu yerindən durmadan beləcə gəlir. Rayona çatıb avtobusdan düşmək istədikdə əl-ayağı keyidiyindən güzgü düşüb qırılır. Əliboş evə gəlməyi isə özünə sığışdırmayan Nəsir, bu dəfə də qatara bilet alıb, elə həmin gün güzgü almaq üçün yenə Bakıya yola düşür.

Səmimiyyətlə və saflıqla dolu olan bu obrazlar bəzən oxucuya avam görünür. Belə görünsə də, ancaq onlar mənəviyyatca saf və pakdırlar, sadəlövdürlər. Onlar oxucunu təsirləndirib kövrəldir də, üzlərinə təbəssüm də gətirir.

İ.Məlikzadə 50-yə yaxın hekayənin, 20-yə yaxın povestin, bir neçə romanın müəllifidir. Düşünürəm ki, onun əsərlərinin hər biri ayrı-ayrılıqda araşdırılıb tədqiq edilməlidir.

İ.Məlikzadə ədəbiyyat sahəsində qırx il külüng vurdu. Özü də hay-küysüz, sakit, təmkinli olaraq... Ancaq təəssüflənirsən ki, bu xidmətləri yetərincə dəyərləndirilmədi.

**Ruhun şad, məkanın cənnət olsun, Ustad!**

## *Azərbaycanda ildırım-dolu hadisələrinin baş vermə intensivliyi artıb*

**Bu ilin iyun ayında ölkə ərazisində mürəkkəb hava şərait müşahidə olunub. Ay ərzində xüsusilə dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağışlar yağıb və tez-tez təkrarlanıb.**

Adalet.az xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov bildirib.

Onun sözlərinə görə, düşən yağıntının miqdarı əksər bölgələrdə normadan çox olub. Abşeron yarımadasında isə ay ərzində maksimal yağıntı iyunun 27-də qeydə alınıb, Sumqayıta 25 millimetrə qədər yağıntı düşüb.

Son 10 ilin müşahidə məlumatlarına əsasən, belə intensiv yağış 2011-ci ilin iyunun 9-da qeydə alınıb, Bakıya 14, Sumqayıta isə 26 millimetr yağıntı düşüb.

N.Mahmudov bildirib ki, son dövrlər ölkə ərazisində ildırım-dolu hadisələrinin baş vermə intensivliyi artıb, həmçinin əhatə dairəsi genişlənib. Ötən ilin iyun ayında 43 dəfə dolu düşdüyü halda, bu ilin iyununda 59 dəfə dolu hadisəsi qeydə alınıb.

Xidmət rəisi qeyd edib ki, iyun ayı yüksək temperatur rejimi ilə də fərqlənib. Ay ərzində havanın temperaturu 28 gün normadan yüksək olub. Lakin ayın sonuna doğru soyuq atmosfer cəbhəsinin təsiri nəticəsində ötən günlərlə müqayisədə temperatur bir qədər enib və 2 gün normadan aşağı olub. İyun ayı ərzində havanın maksimal temperaturu Bakıda və Abşeron yarımadasında 38°, Naxçıvan Muxtar Respublikasında və Aran rayonlarında 40 dərəcəyədək yüksəlib.

Orta aylıq temperatur 27.4° isti təşkil edib ki, bu da iqlim normasından 4.4° yüksək olsa da, rekord göstərici yenilənməyib. Belə ki, çoxillik müşahidə məlumatlarına əsasən, ən isti hava 2021-ci ilin iyun ayında qeydə alınıb, havanın maksimal temperaturu Bakıda və Abşeron yarımadasında 41°, bölgələrdə isə 43°-dək yüksəlib.

**"İyun ayının ayrı-ayrı günlərdə küləkli hava şəraiti ilə bağlı rəng şkalasına uyğun olaraq xəbərdarlıqlar verilib. Bakıda və Abşeron yarımadasında iyun ayında sürəti 15 metr/saniyədən çox olan küləkli günlərin sayı 6 olub, şimal-qərb küləyinin maksimal sürəti saniyədə 30 metrədək güclənib. Bölgələrdə isə 19 gün küləkli hava şəraiti müşahidə olunub, küləyin sürəti 15 metrdən çox olub, maksimal sürəti arabir saniyədə 30 metrə çatıb", - deyə N.Mahmudov qeyd edib.**

AQİL ABBAS

# LAÇINIM, LAÇINIM,

## SƏSİNİZİ KƏSİN, GÖRƏK BU İT UŞAĞI BURA NİYƏ GƏLİB?!

*(X məqalə)*

Rəşad Məcidlə şəhəri gəzirik. Bu mənim 38 il əvvəl gördüyüm səliqəsiz-səhmansız Laçın deyil. Camaatı daşdan çörək çıxarmağı bacarsa da, şəhərin üzündən bir kasıblıq, fağırlıq yağırdı. Yaraşıqlı, ikimərtəbəli evlər çox olsa da, amma ümumiyyətlə, şəhər yöndəmsiz və səliqəsiz idi.

İndi maşallah, əvvəl də qeyd etdiyim kimi, Laçın İsveçrənin abad bir dağ qəsəbələrinə oxşayırdı. Şəhər çox zövqlə tikilmişdi. Köhnə evlər də zövqlə bərpa olunmuşdu, küçələr də geniş və işıqlı.



Laçın quşu qartallar fəsiləsinə daxildir. Çox ucadan uçur. Ona görə də Laçının quşqonmayan dağlarına Laçın dağları deyirlər. Şəhər də onun döşündə salınıb.

Sovet vaxtı uzun müddət rəhmətlik Muradxan Cabbarov rəhbərlik edib Laçına, müstəqillik illərimizdə də bir müddət şəhər ona tapşırılmışdı.

Muradxan müəllim Laçın camaatının xarakterinə çox yaxşı bələd idi. Özü də məmə yeyəndən, pəpə deyənədək hamını adıyla tanıyırdı. Təkcə Laçında yox, bölgədə hörmət-izzət sahibi idi.

Hansı kənddə nə itsə, nə oğurluq olsa camaat milisə yox, Cabbarova müraciət edərdi. Rayonda baş verən bütün hadisələrdən dəqiq xəbəri olan Cabbarov mütləq o itiyi tapdırıb sahibinə qaytartdırardı.

Bir kəndə görüşə gedib, camaat yığışıb başına, hal-əhval tutur. Bir nəfər qayıdır ki, yoldaş Cabbarov, iki gündür mənim atımı oğurlayıblar.

Cabbarov gülür və üzünü kəndlilərdən birinə tutub deyir:

- Həsən, bu ağsaqqalın atını oğurlayıblar, bax gör neynirsən?!

Gecəynən atı gətirib bağlayırlar kişinin həyətinə.

Cabbarov yaxşı bilirdi ki, bu kənddə at oğrusu kimdi.

Mərkəzi Komitədən bir şöbə müdiri gəlir, Cabbarov onu ucqar kəndlərdən birinə görüşə aparır. Və camaata da deyir ki, nə probleminiz varsa söyləyin, bu yoldaş həll edəcək.

Hərə bir təklif verir, Mərkəzi Komitədən gələn də hamısını dəftərçəsinə qeyd edir.

Kəndin ağsaqqalı Məmməd kişi:

- Yoldaş Cabbarov, bir təklif də mənim var.

- Buyur görək.

- Bilirsiniz, bizim kənddə məktəb yoxdur. Uşaqlar məcbur olub aşağı kənddəki məktəbə gedir. Burdan da ora təxminən iki kilometr yoldu. Bunun qışı var, yağışı var, qarı var, çox əziyyət çəkirlər. Xahiş edirəm, bizim kənddən həmin məktəbə qədər bir naves qursunlar, uşaqlar palçığa batmasın, təpələrinə yağış döyməsin.

Cabbarov:

- Məmməd kişi, elə bir təklif ver ki, düzəltmək mümkün olsun də.

- Guya o biri yazdıqlarını düzəldəcək ki? Dedim mən də bir təklif verim, camaatdan geri qalmayım.

İclasların birində bir kolxoz sədrini Katib möhkəm danlayır və deyir, dur rədd ol kəndə, işləri düzəlt.

Kolxoz sədri dilxor-dilxor iclasdan çıxır, üz tutur kəndə. Yolda maşını saxladıb düşür, hirsini Katibdən çıxmaq istəyir, pəşosu ilə katibin familiyasını yazır, amma "ov"a çatanda pəşosu qurtarır.

Sürücünü çağırır ki, düş "ov"u da sən yaz.

Sürücü:

- Sədr, başına dönüm, katib mənim xəttimi tanıyır, verim sən yaz.

Cabbarovun oğlu Raufla universitetdə bir oxuyurduq. O da atası kimi səmimi, zarafatcıl, xoşxasiyyət bir oğlanıydı. Onun da atası kimi vuran əli vardı.

Rəşada deyirəm ki, bir çayxana tap çay içək. Yenirik aşağı, böyük bir çadır qurulub və burda çay, qəhvə, su verilir, ayaq üstə. Adam da çoxdu, bir stolun arxasına keçirik. Qonşu stolun başına 10-15 qadın yığışıb. Biz keçəndə bir-birlərinə təəccüblə deyirlər:

- Buuy, az-az, bu Aqil Abbas deyil?

- Hə, yanındakı da Məmməd Arazın qızıdı.

Rəşadın dayısı oğlu İlqardan soruşuram?

- Bunlar kimdi?

- Laçın məktəbinin müəllimələri.

Sonra yığışırlar bizim başımıza. Rəşad hamısını tanıyırmış, bir-bir təqdim edir. Sonra yaxşı mənada məni tuturlar topa. Mən də yumorla, yarızarafatla suallarına cavab verirəm. Sonra məndən həm məktəbləri üçün, həm də özləri üçün kitab istəyirlər.

İlqardan xahiş edirəm gedib maşından iyirmiyə qədər kitab gətirsin. Amma müəllimələrə də deyirəm ki, avtoqraf yaza bilmirəm, inciməyin.



Sonra yenirik Həkəri çayının sahilinə.

Rəşad bir ikimərtəbəli evi göstərib deyir:

- Bu rəhmətlik Xanlar müəllimin evidi. Tanıyırdın də, rayonun adlı-sanlı ziyalılarından biri idi.

Xanlar müəllimi yaxşı tanıyırdım. Laçının, o vaxtkı dillə desək, ispalkomuydu. Sayılıb-seçilən bir ziyalıydı. Yadıma bir hadisə düşür, möhkəm gülürəm. Və həmin hadisəni danışıram.

Deməli, Ağdam teatrının aktyorları Laçına qastrol səfərinə gəlirlər. Fikirləşirlər ki, saat 6-da tamaşanı başlayıb 8-də bitirərlər və gecə saat 10-da da rahat gəlib çatarlar Ağdama, evlərinə-eşiklərinə. Amma onların planladığı kimi olmur, zalda bir səs-küy var ki, tamaşanı saat 6-da başlaya bilmirlər.




- Ə, Vəli, mənim yanımda yer var, gəl bura.

- Həsən, qoyunları küzəyə ala bildin?

- Gələn Şur ansamblıdı?

- Yox, ə, teatr çıxaracaqlar.

- Şur ansamblı gəlməyibsə bizi bura niyə yığıblar?

Səs, küy, aktyorlar nə qədər edir camaat sakitləşmir. Xanlar müəllim də oturub birinci sırada. Aktyor Tofiq Qarayev üzünü tutur Xanlar müəllimə, deyir:

- Ağsaqqal, saa qurban olum, dur bu camaatı sakitləşdir, tamaşamızı göstərək, qayıdaq evimizə-eşiyimizə, uzaq yoldu.

Xanlar müəllim çıxır səhnəyə, üzünü tutur zala:

- Ə, Məmməd, otur aşağı da, altında qoz qabığı qalıb? Əli, sakit otur.

Birtəhər camaatı sakitləşdirmək istəyir, axırda əsəbləşib deyir:

- Ə, səsinizi kəsin, görək bu it uşağı bura niyə gəlib də?!

Tofiq Qarayev deyirdi ki, birtəhər tamaşanı başladıq, arada Xanlar müəllimin sözü yadımıza düşürdü, gülmək bizi tuturdu.

Tamaşadan sonra Xanlar müəllim ağdamlıları buraxmayıb, gözəl bir məclis təşkil edib, sonra da deyib ki, hamınız qalacaqsız Laçında, səhər özüm sizi yola salacam.

Səhər də aktyorlara yaxşı pul verib yola salıb, bir sözlə, könüllərini alıb.

Bir ağdamlı Laçının bir kəndinə dostugilə qonaq gəlir. Gecə yaxşı yeyib-içirlər. Səhər ağdamlı deyir ki, bəlkə bir ayı ovuna çıxaq?



Dostu razılaşır. Silahlanıb çıxırlar meşəyə, ayı axtarırlar. Qəfildən qarşılarına bir ayı çıxır. Ayını görən kimi laçınlı başlayır üzüaşağı kəndə tərəf qaçmağa. Ağdamlı görür ki, laçınlı götürüldü bu da düşür onun dalınca. Bir az qaçdıqdan sonra fikirləşir ki, əlimdə tüfəng, niyə qorxub qaçıram və çevrilib ayının qaşqasını verir gülləyə, ayı aşır. Laçınlı qayıdır, üz-gözünün tərini silə-silə deyir:

- Ə, sən neynədin?

- Qaqa, neynədim ki, ayını vurdum da. Ayı ovuna çıxmamışıq?

Laçınlı:

- Səfehin biri səfeh, mən ayını kəndə çatanda vuracaqdım. İndi özün bu leşi daşı kəndə.

Mən Laçın camaatının xarakterindən "Camış bağa girdi, gəl" adlı bir hekayə yazmışam və laçınlıların xarakterini bu hekayədə az-çox aça bilmişəm. Ərinmirsizsə, oxuyun. ("Camış bağa girdi, gəl").

Yenirik Həkəri çayının sahilindəki Sus kəndinə. Evlərin qabağında yük maşınları var. Camaat yük maşınlarından ev əşyalarını daşıyırlar, təzə köçənlərdi. Sus gözəl bir kənddi, belə demək mümkünsə, ölübqalmalı kənddi.

Çayın kənarında səliqəli bir restoran tikilib. Bizi restoranın sahibi İsgəndər kişi qarşılayır. Rəşadla görüşüb öpüşür:

- Seyid, xoş gəlmisən.

Restoranda qələbəlikdi. Məlum olur ki, Türkiyədən bir qrup iş adamı da burdadı. Onlarla da görüşürük. Azərbaycanda vaxtilə Türkiyənin böyük elçisi işləmiş, Turan sevdalısı Hülusi Kılıç rəhbərlik edir qrupa. Birdən gözüm ucaboylu bir kişiyə sataşır, o da məni tanıyır. Bir-birimizi bağrımıza basırıq. Vaxtilə Iqdır vilayətinin bələdiyyə başqanı işləmiş Nurəddin bəydi.

Rəşad Məcidlə və bir qrup jurnalistlə Iqdırda Nurəddin bəyin bir neçə gün qonağı olmuşuq. Özü də Aşura gününə təsadüf edirdi. Qəbiristanlığın yaxınlığında bir meydanda Aşura keçirirdilər, bəlkə on min adam vardı. Üç yerdə teatr göstərirdilər, yəni şəbeh çıxarırdılar. Mən ilk dəfəydi ki, belə bir qeyri-adi, maraqlı, insanı riqqətə gətirən şəbeh görürdüm.

Nurəddin bəydən soruşuram:

- Fatma xanım necədi?

- Fatma xanım yadından çıxmayıb?

- Elə bir zabitəli xanımı yaddan çıxarmaq olar?

Başa düşür nə deyirəm, gülür və deyir:

- Arvaddan qorxmayan kafirdi.

Nurəddin bəyin iki metrə yaxın boyu var. Xanımının boyu isə uzaqbaşı 1.60-dı. Hiss edirdim ki, Nurəddin bəy Fatma xanımdan çəkinir.

İsgəndər bəy böyük bir süfrə açdırır və türk qardaşlarımızla bir süfrə arxasında otururuq.

İsgəndər bəy deyir:

- Kabab qurbanlıq qoyundandı.

Yəni demək istəyir ki, içki olsmayacaq.

Vallah, burda bir söhbət başlayır ki, Azərbaycan-Türkiyə dostluğundan, sayın İlham Əliyevlə sayın Ərdoğanın dostluğundan, Turandan, Turançılıqdan, millətçilikdən, İkinci Qarabağ savaşındakı zəfərimizdən gəl görəsən. İçkisiz sağlıqlar deyilir. Sonra süfrəyə Həkəri çayının 38 ildir həsrətində olduğumuz balıq verilir. Bu balıq deyil ey, baldı, sadəcə olaraq "ıq" şəkilçisi var.

Və təbii ki, İsgəndər bəy hesabı almır:

- Hamınız mənim qonağımsınız.

Zarafatla deyirəm:

- İsgəndər kişi, onda axşamüstü də gələ bilərik?

- Nə vaxt könülünüz istəsə. Hesabınız bu rayonu azad edən, bizə bu şəraiti yaradan hörmətli Prezidentimiz tərəfindən ödənilib.

Yenirik çayın sahilinə. İradə atasının şeirini oxuyur:

*Min illərdir Araz belə, Həkəri belə...*

# LAÇINIM MƏNİM!

## LAÇINDA QOL AÇIB OYNAYA BİLMƏDİM

*(XI məqalə)*

İndi Həkəri çayında pırıl-pırıl balıqlar üzür. Yadıma "Dolu" romanının sonunda Komandirin Ağcabədinin Bayat kəndindəki kəhrizdə pırıl-pırıl üzən balıqlardan birini tutması, üzü Dünyanın Ən Varlı Şəhərinə doğru üzməsi və üzərkən də bütün şəhid qardaşlarının onun kimi bir balıqdan yapışıb üzü Qarabağa doğru üzməsi düşür.

Mən də bu pırıl-pırıl balıqların birini tutub Araza doğru üzmək istəyirəm, amma təəssüf ki, mən balta kimi üzürəm. Hərdən balıqların sıçrayıb sudan çıxması adama ləzzət edir.

Qayıdırıq Həkərinin sağ sahilindəki meydanda keçirilən Xalça sərgisinə. Yazımın əvvəlində demişdim axı, bizi bu sərgiyə dəvət etmişdilər.

Çayın üstündəki asma körpüdən keçib çıxırıq meydana. Meydanda bizi jurnalist və yazıçı həmkarlarımız qarşılayır. Necə şad və xoşbəxtdirlər ki, azad olunmuş Laçındadılar.

Bütün meydan Elnarə xanımın toxuduğu xalça eskizləri ilə bəzənib.

Bizim evdə də bir xalça var, yaşı 100-ü keçib. Nənəmə cehiz veriblərmiş, o da anama verib, anam da bizə bağışlayıb. Hərdən onu ayaq altına sərəndə dilxor oluram. Əvvəllər xalçaları divardan asardılar. İndi bu adət unudulub. Çox qəribədir ki, nənəmin cehizlik xalçası başdan-ayağa svastika ilə doludur. Bu xalça toxunanda hələ Hitler tumanpaça gəzirdi. Yəni svastika sırf türklərə məxsusdur. Almanlar da bunu türklərdən götürüb. Svastikanın bir neçə mənası var, bildiyimə görə, biri də bütün dünyanı tutacaq dörd ayaqdır. Türklər dəfələrlə bütün dünyanı tuta bilmişdilər. Hitler Avropanı tutsa da, bütün dünyanı tuta bilmədi və axırda da pox yemişə xətm oldu.

Evinizdəki xalçalara baxın, mütləq svastika görəcəksiniz.

Qarabağın demək olar ki, hər kəndində xalça toxunardı. Amma indi bu məsələdə Ağdamla öyünə bilmərəm. Çünki Qarabağda ən gözəl xalçaları cəbrayıllılar toxuyardı və onu Ağdam bazarına çıxaranda da üstündə qırğın düşərdi.

Ağcabədidə bir Avşar kəndi var, xalçabazdılar, özləri də toxuyurlar. Bəlkə hər evdə 40-50 xalça var. Dostlarla bir yerdə eskizlərə baxa-baxa gəlib çatırıq məhrəkə yerinə.

Mənə çox xoş olur ki, tədbiri "Dolu" filminin rejissoru, dostum Elxan Cəfərovun bacısı Lalə xanım aparır. Bizi birinci sırada əyləşdirirlər. Gözəl bir oyun havası çalınır. Ürəyimdən keçir ki, qalxıb rəqs edim, amma arzumu ürəyimdə saxlayıram.

Bilirsiniz niyə?

Ağdam azad olunandan sonra ilk dəfə şəhərə gedəndə Mənsum İbrahimov "Qarabağ" mahnısını oxuyanda özümdən asılı olmayaraq çiynimə saldığım paltonu atdım palçıqlı yerə, girdim meydana və başladım oynamağa. Sağ olsun "Qarabağ" komandasının uşaqları, məni tək buraxmadı, onlar da girdi meydana.

Məni nə ağrı-acı oynatmışdı bir özüm bilirəm, bir də Allahım. Amma sonra trollar töküldü sosial şəbəkəyə, məni yaş yuyub quru sərdilər ki, şəhidlərin ruhundan utanmır, oynayır. Mən belə şeylərə öyrəşmişdim, amma övladlarım da mənə irad tutdu ki, sən niyə ağzıgöyçəklərə mövzu verirsən.

Şəhidlər məhz ona görə şəhid olmuşdular ki, biz Ağdamda, Şuşada sevinək, gülək, yeyib-içib şənlənək. Onların hamısı bizim üçün əzizdir. Mən də şəxsən öz ailəmdən və nəslimdən şəhidlər vermişəm. Yəni şəhid ağrısının nə olduğunu məni söyənlərdən yaxşı bilirəm. Az qala 30 ildi əri Ağdamda şəhid olmuş bacımın qızını saxlayıram.

Məsələn, deyirlər ki, Şuşada yeyib-içmək günahdı, şəhidlərin ruhuna hörmətsizlikdi. Mən də dəfələrlə televizyon kanallarında və yazılarımda demişəm ki, niyə Şuşada yeyib-içmək olmaz, Şuşa məscidi? Məhz şəhidlər o şəhəri azad edib ki, biz orda xoşbəxt yaşayaq, deyib-gülüb, yeyib-içək. Nə isə

Oturmuşuq birinci sırada, havadan da yağış qoxusu gəlir, buludlar damcıları atır, gözəl bir oyun havası çalınır. Ürəyim partlayır, oynamaq istəyirəm, amma qol açıb oynaya bilmədim, ağzıgöyçəklərə yeni mövzu vermək istəmədim. Fikirləşdim ki, eybi yox, Laçından çıxanda hamının gözündən iraq, sakit bir yerdə, elə musiqisiz qol açıb oynayaram.

Bir azdan yağış başlayır. Heç demə, tədbir iştirakçıları buna da hazırmışlar. Meydanın hər tərəfində böyük çətirlər açılır, adamlar yığılır çətirin altına, amma heç kəs meydanı tərk eləmir. Biz də bir çətirin altına yığışırıq, tədbir davam edir.

Tədbirin axırına yaxın İradəyə deyirəm:

- Bəlkə gedək, yolumuz uzaqdı, hava da yağışlı-dumanlı.

Mənim könlümdən Minkəndə getmək keçirdi, amma Rəşad dedi ki, Minkənd uzaqdı, getsəniz gecəyə düşəcəksiniz, geri qayıtmaqda çətinlik çəkəcəksiniz.



Minkəndə niyə getmək istəyirdim, bunu ayrı bir yazıda açıqlaram.

Maşına minəndə yağış bərkiyir.

Laçın deyəndə yadıma ilk düşənlərdən biri də şair Ağa Laçınlı olur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi və axşam şöbəsinin dekanı idi.

Elçibəy qədər təmiz və səmimi adam idi. Şəxsən mənə dərs deməyib, amma dostluq edirdik. Universitetin müəllimi və dekanı olmasına baxmayaraq, mənəvi cəhətdən çox dövlətli olan bu şəxs əslində çox kasıb yaşayırdı. Əslində o, dekan deyildi, Ağamusa Axundov kimi, tələbələrin atası idi. Bir gözəl şeiri var, adı "Səmimiyyət"di.

*Ərkilə evinə gəlmişəm, ay dost,*
*Nə lazım utanıb, tər axıtmağın.*
*Sanma, bəyənmirəm yavan loxmanı,*
*Doyursan qəlbimi səmimiyyətdən*
*Bağrıma basaram kasıb daxmanı.*

İndi Laçın camaatı öz səmimiyyətləri ilə bizi doyurdular. Heç daxmaları da kasıb daxması deyildi, səliqəli-səhmanlı evlər idi. Və geri qayıdanlar yük maşınlarındakı ev əşyalarını elə sevinə-sevinə daşıyırdılar ki! Gərək bunu gözlə görəsən.

Bir müddət Məmməd Arazla Ağa Laçınlı "Ulduz" jurnalında bir yerdə işləmişdilər. Məmməd Araz deyirdi:

- Bir də gördün Ağa gəldi ki, Məmməd, səni döyərəm. Deyirdim, Ağa, cibində iyirmi beş manat var. Bir də gördün deyirdi ki, Məmməd, səni öldürərəm. Deyirdim, Ağa, cibində əlli manat var. Bir də gəlirdi ki, səni öldürərəm, qanını da batıraram, deyirdim, Ağa, cibində yüz manat var.

Bir dəfə Ağa Laçınlının anası xəstələnir. Mirzə İbrahimov öz "Volqa"sını verir ki, get kəndə, anana dəy. Deməli, gəlir Laçına, Qorçu kəndinə çıxanda maşın yoxuşu qalxa bilmir. Sürücü ha əlləşir, bir şey alınmır. Ağa maşından düşür, çıxır aşırıma, cibində dörd dənə qəttəzə iyirmi beşlik varmış, çıxarıb qoyur aşırıma, üzərinə də daş qoyur və sürücüyə deyir ki, sür. Bu dəfə maşın yoxuşu çıxır.

Ağa gülüb deyir:

- Pulun gücünə, qüdrətinə bax ey, o boyda maşını dartıb çıxartdı.

Ağanın həyat yoldaşı Ağdamın Üçoğlan kəndindəniydi, uzaq qohumuydular. Qızı götürüb qaçmışdı. Hətta buna görə Ağdamlı qohumları onu öldürmək istəmişdilər. Amma gücləri çatmamışdı. O da dağlar oğluydu. İndi, maşallah, gözəl övladları var və ədəbiyyata xidmət edirlər. Fəxri Uğurlu, Azər Qaraçənli, Oqtay Qorçu. Özləri də bomba oğlanlardı. Bakılılar demiş, nöşün nöşün ki, anaları ağdamlıdı.

Görən, ağdamlılar bilirmi ki, Ağdam haqqında ən gözəl şeiri laçınlı balası Hüseyn Kürdoğlu yazıb:

*Yenə də baş çəkim Ağdama gərək,*
*Qarqarın suları Ağdama gərək.*
*Bu yerin qədrini bilməyənlərin,*
*Qara gözlərinə ağ dama gərək.*

Elə az qalmışdı gözlərimizə ağ dama, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev qoymadı.

Qubadlıdan danışırsansa Eldar Baxışı, Kəlbəcərdən danışırsansa Sücaəti, Laçından danışırsansa Malik Fərruxu anmasan olmaz. Bunların hər üçü Qarabağın sayılıb-seçilən oğlanlarından idi. Qarabağda belə oğlanlara lay divar oğlanlar deyirlər.

Bir gün Malik Fərrux dostu Qəzənfərlə piyada kənddən Laçına gəlirlər. Yolda yorulub çinarın altında bir az dincləri almaq istəyirlər. Qəzənfər əl çəkmir ki, əgər şairsənsə bədahətən bir şeir de.

Malik qayıdır ki, zəhləmi tökmə, qoy yorğunluğumu alım. Qəzənfər əl çəkmir, yox ey, şairsənsə bədahətən bir şeir de.

Malik:

*Ey çinarlar, çinarlar,*
*Başında dünyanın dərdi-səri*
*Çinarların altında*
*Döyərlər Qəzənfəri.*

Və Qəzənfərə bir şapalaq vurur. Qəzənfər deyir ki, bəs, məni niyə vurdun?

Malik:

- Bədahətən şeirin təbi gətirdi.

Laçınlılara bir kitab təqdimatında həmin hadisəni danışdım və şeiri də burda yazdığım kimi yox, olduğu kimi dedim. Hamını gülmək tutdu. Bu vaxt qarayanız bir kişi irəli çıxıb dedi:

- Aqil müəllim, həmin Qəzənfər mənəm.

Bir dəfə Malik Laçındakı sevgisi haqda Baba Vəziroğlu ilə söhbət edir. Gözünə döndüyüm Baba da onun danışdığını olduğu kimi yazıb, dediyi adamların adları ilə birlikdə hekayə adı altında "Ulduz" jurnalında çap etdirir. Bu da Laçında böyük qalmaqal yaradır. Jurnalın redaktoru Siyavuş Sərxanlı ilə Mövlud Süleymanlını göndərir Laçına ki, camaatı sakitləşdirsin, desinlər ki, bu adi bir hekayədi, ədəbiyyatdı.

Siyavuşla Mövlud gedirlər Laçına, camaatı birtəhər dilə tutub sakitləşdirirlər. Yay imiş, qayıdanda deyirlər ki, gəl Həkəri çayında çimək. Soyunub girirlər çaya. Siyavuş çay qırağında böyüyüb, üzməyi bilir, Mövlud isə yox.

Bir türk anekdotu var. Əsgərlər təyyarədən paraşütlə atlanırlar. Hamı atlanır, bir əsgər üzə dirənir ki, atlanmayacam. Komandir səbəbini soruşur.

- Komutan, gecə yuxuda anamı görmüşəm, deyir ki, paraşütün açılmayacaq.

Komutan:

- Sənin paraşütün açılmayacaq da, al mənim paraşütümü, öz paraşütünü ver mənə.

Əsgər komandiriylə paraşütünü dəyişib atlanır və kef eləyə-eləyə havada süzür. Bu



vaxt komandir onun yanından daş kimi keçir və keçəndə də deyir:

- Senin anneni

İndi Həkəri iti axan çaydı, çay Mövludu götürüb gedir, Siyavuşun yanından keçəndə bağırır:

- Sənin ananı

Malik Fərruxun da yolunu davam etdirən ağıllı bir qızı var - Günay Malikqızı. Hazırda Naxçıvan nümayəndəliyində işləyir. Elə Malik kimi boylu-buxunlu, yaraşıqlı bir qızdı.

Eh! Məhəbbət Kazımov! Laçınım deyə-deyə ürəyin partladı! Yəqin indi ruhun şaddır. Laçın azaddı!

Xosrov bəy Sultanov küçəsinə çatanda, yəni şəhərin çıxışında duman dağları-dərələri götürür. İndi gəl bu dolamalarda, bu yağışda, bu dumanda maşını sür. Ağdamlı aktyorlar kimi mən də istəyirəm vaxtında Ağdama çatım.

İradə deyir:

- Qoy naviqatoru açım, vaxtında desin sağa-sola dön. Duman qoymur yolu görəsən.

Yenə yekə-yekə deyirəm:

- Maa da Qarabağda yox dəə.

Sürətimiz 10, uzaqbaşı 20 olur. Düz Şuşaya qədər 43 kilometr yolu belə gəlirik. Laçından qayıdırıq, yenidən Laçına, Kəlbəcərə dönmək üçün.

Növbəti səfərimiz Kəlbəcərə olacaq. Çünki mənim də, İradənin də uşaqlıq və gəncliyimiz Kəlbəcər dağlarında keçib.

*Nə imiş Parisin aşiqi olmaq*
*Bu dağın,dərənin*
*Laçının, Kəlbəcərin*
*Bir dəli Məcnunu olasan gərək!*
***HƏLƏ AĞDAMI DEMİRƏM!***

Hələlik bu qədər. İnşallah, növbəti yazım Kəlbəcər səfərimdən olacaq.

Və sonda. Xanımım yazını sosial şəbəkədə paylaşandan sonra Rasim Müzəffərli belə bir şərh yazıb: "Ay bajı, qağama denən bir az uzun yazsın dana, elə oxumağa başlayan kimi qurtarır, yəni demək istəyirəm elə qəşəng yazır ki, elə o yerlərin bulaq suyu kimi birnəfəsə içilir. Amma avtoqraf məsələsində təvazökarlıq edib, elə qəşəng yaza bilir ki!".

Rasim, dostum, sən ədəbiyyat adamısan, bəstəkarsan, musiqiçisən, hamını öz ürəyinlə ölçmə. İndi bu statuslar camaatın başını elə qatıb ki və camaatı elə öyrəşdirib ki, "uzun yazıları" oxumurlar. Sənin xətrinə sonuncu yazını bir az uzatdım.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Çingiz Əlioğlundan ÜRƏK xəbərdarlığı...

Bəri başdan deyim ki, bugünkü Azərbaycan ədəbi camiyəsinə bələd olduğum ilk gündən tanıdığım, oxuyub izlədiyim və həm də özümə böyük dost, doğma qardaş bildiyim imza sahibləri də var. Onların yaradıcılıqları kimi, şəxsiyyətləri də bütövdür.

Yəni bu adamlar təkcə şair, nasir yox, həm də Azərbaycan İNSANI kimi də həmişə mənim üçün maraqlı olublar və onu da etiraf edim ki, hələ gəncliyimdə, tələbəlik illərimdə onların hər kəs tərəfindən görünən hərəkətlərini, jestlərini özümünküləşdirməyə, özümə köçürtməyə də çalışmışam. Bu gün onlardan biri, özümün, ailəmin doğması olan Çingiz Əlioğlundan danışmaq istəyirəm.

Çingiz Əlioğlu yaradıcılığı mənim üçün ədəbiyyatımızda ayrıca bir səhifədi. Bu yaradıcılıqda bir ağayanalıq, bir özünəməxsusluq, bir kişi köynöylüyü, yeni sözü olduğu kim təqdim etmək məharəti var. Çingiz müəllim hər bir şeirində öz kübarlığını, öz zənginliyini ifadə etməyi bacaran Azərbaycan şairidi və mən də onunla olan dostluq münasibətindən ailəvi bağlılıqdan həmişə qürur duymuşam.

Elə bu yazını yazmağa başlayanda ilk ağlıma gələn uzaq gəncliyimin gözəl xatirələri. Rəhmətlik Nüsrət Kəsəmənli, Sabir Rüstəmxanlı və Çingiz Əlioğlu "üçlüyü" oldu. Necə deyərlər, həyatın mükəmməl bir dostluq nümunəsi... Nə isə.

Bəli, Çingiz müəllimin bütün kitabları mənim üçün maraqlıdı, əzizdi və mən də o kitabların hər biri ilə təmasda olanda nəsə öyrənmirəm, nəsə görüb götürürəm.

Bu dəfə də "Ömür ağacı" ilə həmsöhbət oldum. Şeirləri oxuduqca yaranan mənzərənin içərisində bir anlıq dayandım. Nəfəs dərmək üçün...Özümü toparlamaq üçün. Çünki söhbət ürəkdən gedirdi. Yəni Çingiz Əlioğlunun "Ürəyim" şeirindən. O şeirdə Çingiz müəllim yazır ki:

*Sevdalı ürəyim, aşiq ürəyim,*
*Nə çağlayıb, nə coşursan yenə də?*
*A darda dayağım, bərkdə gərəyim,*
*Qanad açıb, pərvazlanma sinədə.*

Yəqin ki, siz də bu məqamı, bu halı yaşamısız, ürəyinizlə söhbət etmisiz, onu dilə tutmağa, ondan sirr almağa, onu ovutmağa, onu yönəltməyə çalışmısınız. Xüsusilə ürəyin dəliqanlığı yerə-göyə sığmayan vaxtlarında siz də onu qapı ağzında dayanıb gözləmisiz...

Mən bu sözləri, bu fikirləri həqiqi mənada yaşamış biri kimi bilgisayara diktə edirəm və bilirəm ki, ürəyin yaman şey olduğunu deyən nasirimiz də yanılmayıbdı. Ona görə də Çingiz müəllimin sevdalı, aşiq ürəyinə üz tutmasını məhz həmin o yaşamlarla əlaqələndirirəm.

Bu məqamda da mən də ürəyimin pəncərəsini döyüb onun səsini sözə çevirmək istəyirəm və bu istəyimin təbii olduğunu da qəbul edəcəyinizə inanıram. Ürəyimə deyirəm ki:

*Bu yol uzaq, həm yaxın*
*Qəm gəlir axın-axın.*
*Seyrəlir solun, sağın -*
*Təklənirsən, ürəyim.*

Hə, qəmin axın-axın gəldiyi, solun-sağın boşaldığı bir zamanda ürəyin təklənməsi üzücüdü. Bunu hər kəs bilir. Elə mən də bildiyimə görə həmin o yaşadığım misralara köçürmüşəm. Çalışmışam ki, qəmin axın-axın gəldiyi bir zamanda təklənmiş ürəyimə dayaq durum.

Çünki Çingiz müəllim də ürəyi ilə danışanda vurğulayıb ki, "Darda dayağım, bərkdə gərəyim"sən! Belə olan halda təklənmək yaqin ki, dözüləndi. Lakin bunun nə qədər səmimi olduğunu deməyi bir kənara qoyub, həm də sadəlövhlük olduğunu da hiss edirəm.

Həmin o hiss etmə məqamı da ustadım Çingiz Əlioğludan gəlir. Çünki ürəyi ilə danışan Çingiz müəllim şeirinin ardını belə davam etdirir:

*Sadəlövh ürəyim, uşaq ürəyim,*
*Hər sevincə havalanıb ucalma.*
*Ünvan gəzir hələ neçə diləyim,*
*Sən indidən tez xərclənib qocalma.*

Bəli, burda artıq sadəlövh, uşaq ürəyin necə şıltaq olduğunu hiss etmək mümkündü. Çünki o, öz sahibinə qəribə məqamlar yaşadır. Gah sevincdən coşur, ucalır, gah özünü oda-közə, sağa-sola çırpıb xərcləyir və deməli, həm də özünü tükəndirir, qocalığa yaxınlaşdırır. Bu da ürək sahibini rahatsız edir, onu dilə gətirir.

Bax, bu da artıq Çingiz müəllimin yumşaq bir şəkildə ürəyinə həm xatırlatmasıdı, həm də onu özünə toparlamağa dəvət etməsidir. Mən də təklənən ürəyimin halını düşünə-düşünə içimin sızıltısını, iç dünyamın təlaşını sakitləşdirməyə, ona təsəlli verməyə cəhd edirəm. Bu cəhdin də təbii ki, şeirdə özünü ehtiva edir:

*Qaşıq qanım sovrulur,*
*Yanır, canım qovrulur.*
*İçində dərd qıvrılır -*
*Səksənirsən, ürəyim.*



Ağrıdan qıvrılan, gününü, anını, istəklərini bir qaşıq qan kimi sovuran ürək həm də bir səksəkə yaşayır, bir təlaşa imza atır. Bu da həyatın ona zaman-zaman vurduğu zərbələrin qarşısında açılan yeni mənzərələrin təpkisidir. Çünki arzuladığı, uğrunda çarpışdığı gerçəkliklər ona ağrı-acı və səksəkə hesabına başa gəlir.

O özünü nə qədər məşəl etsə də, işığı, daha doğrusu o məşəlin nuru bütün istəklərə qovuşmağa yetmir. Axı o təkdi.

Deməli, bu məqamda da Çingiz Əlioğlunun sözünə, şeirə ehtiyac yaranır. Mən bir oxucu kimi onun ürəyi ilə etdiyi söhbətin sonuna şahid olmağa can atıram. Çingiz Əlioğlu da yazır ki:

*A məşəl ürəyim, işıq ürəyim,*
*Demirəm ki, bir tonqal ol - qoru yox.*
*Deyirəm, gəl sakit yaşa, ürəyim,*
*Özümüzü qələbəyçün qoruyaq.*

Hə, görün şair, dostum məşəl etdiyi ürək üçün sonda hansı diləyi kağıza köçürür, hansı istəyimi bəyan edir.

Axı məşəl, işıq olan ürək özünü nə qədər yandırıbyaxsa da, hər şeyə nail ola bilməyəcək. Ona görə də bir az təmkinli, bir az səbirli, bir az sakit tərzdə baş verənlərə dəyər verərsən, onda ən azından uğurunda mücadilə edilən qələbəni görə bilər, ona qovuşa bilər.

Bunu da şeirin sonunda Çingiz Əlioğlu həm ürəyinə deyir, həm də oxucularına. Mən də zamanın yaşatdıqlarını, həyatın təpkilərini bir daha götür-qoy edib anlayıram ki, nə qədər bu həyat var, nə qədər ürək döyünürsə, deməli təklənmək də, səksəkə içərisində olmaq da ürəyimin alın yazısıdı və deməli bu naxışları olan ürəyin hərdən özünə də, ətrafa da şəklənməsi də təbiidir. Mən də bununla barışıb yazıram:

*Bozarır üzü yazın...*
*Höküm etdin düzün yazım.*
*Dağa dirənir ağzım -*
*Şəklənirsən, ürəyim...*

Gördüyünüz kimi, divara, dağa gedib dirənmək artıq son. Bu sona qədər də döyünən ürəyin yanında olmaq, onu qorumaq təkcə özümüz üçün yox, həm də çevrəmiz üçün gərəklidir.

Xüsusilə millətə fayda verən, onu təmsil edən, onun üçün yazıb-yaradan, vurub ucaldan şərtlər üçün...

Və Çingiz Əlioğlunun ürəyi ilə olan söhbətində mən bir daha inandım ki, ürəyi qələbə üçün qorumaq vacib şərtdi. Kaş ki, biz bunu bacara bilək.

# "ŞUŞA QALASI"

*Bu bir danılmaz tarixi gerçəklikdir ki, 2020-ci ilin 8 noyabr günü xalqımızın həyatında ən şərəfli və ən xoşbəxt zaman kəsiyidir. Məhz həmin gün bizim Qarabağ həsrətimizə son oldu! Məhz həmin gün bizim Böyük Zəfərimiz tarixin yaddaşına möhürləndi. Ordumuzun və Dəmir yumruğun qətiyyətli zərbələri torpaqlarımızın işğaldan azad edilməsi savaşını Qəti Qələbə ilə tamamladı.*

*Bu tarixi gündən başlayaraq işğaldan azad edilmiş torpaqlarımızda həyatın bərpasına, Böyük Qayıdışa hazırlıq işlərinə göstəriş verildi. Ölkə prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə bu qayıdış üçün ən zəruri olan iqtisadi, maddi, tikinti, bərpa, bir sözlə,*




*infrastrukturun təmin edilməsi üçün proqram və layihələr, iş cədvəlləri hazırlandı.*

*Gerçəkləşməyə başlayan tədbirlər proqramının bir istiqaməti də azad edilmiş torpaqlarımızın həm tarixi, həm də coğrafi-iqtisadi baxımdan dünya ictimaiyyətinə tanıdılmasıdır. Bunun üçün də adı çəkilən bölgələrimizlə bağlı elmi, tarixi əsərlərin yazılması, filmlərin, rəsm əsərlərinin çəkilməsi kimi vacib işlərin reallaşdırılması çox vacibdir.*




*Bax, həmin bu istiqamətə uyğun olaraq oxucuların, ədəbi ictimaiyyətin çox yaxşı tanıdığı Vasif Quliyev özünün "ŞUŞA QALASI" adlı kitabını çap etdirib. Əvvəlcədən xatırladım ki, on kitabçadan ibarət olan "ŞUŞA QALASI" bir az kitab-albom üslubundadır. Bu kitab-albomların 1-si "Şəhərin yaranması" adlanır. Adından da göründüyü kimi nəfis kitab-albomun birincisində söhbət məhz Şuşa şəhərinin yaranmasından gedir. Və elə bu ardıcıllıqla da "Məhəllələr və küçələr"," Toponimlər", "Tarixi- memarlıq abidələri", "Flora və fauna" , "Müqəddəs məkanlar", "Karvansaralar, hamamlar, bazarlar", "Sənətkarlıq" , "Ticarət" və "Bulaqlar" adlı kitab-albomlar artıq böyük tiraj və yüksək keyfiyyətlə nəşr olunub. Bu məqamda onu da qeyd edim ki, çap olunmuş kitab-albom ingilis, rus, türk, ərəb və digər dillərə də çevrilməkdədir. Bu gün faktiki olaraq "ŞUŞA QALASI"-nın ingilis dilinə çevrilmiş variantı çap olunub. Digər dillərə də tərcümə edilib yayılması işləri davam etdirilir.*

*Oxuculara onu da xatırladım ki, kitabın əvvəlində Prezident sərəncamı, 3-cü səhfəsində isə Ulu öndərin və Müzəffər Ali Baş komandanın Şuşa ilə bağlı fikirləri yer alıb. Kitab-albomun üz qabığındakı şəkil-fotolar Şuşanı təqdim edir. İnanıram ki, Qarabağ sevdalı Vasif Quliyevin bu xidməti heç vaxt unudulmayacaq.*

Əbülfət Mədətoğlu

## "Dahilərin həyatı və aforizmləri" çap olundu




Fəlsəfə araşdırmaçısı, tərcüməçi, gənc yazar Tural Cəfərlinin "Dahilərin həyatı və aforizmləri" adlı yeni kitabı işıq üzü görüb. Kitabda dahi şəxsiyyətlərin həyatları, yaşam fəlsəfələri, müdrik kəlamları yer alıb.

Məşhur filosofların, yazıçı və rəssamların bir-birindən fərqli, düşündürücü və ibrətamiz düşüncələri önə çəkilib. "Mücrü" nəşriyyatında çap olunan kitab müəllifin sayca üçüncü kitabıdır.

# Təbəssümün gizlətdikləri



Rəfail Tağızadə

**Kəlmələr kəlam kimi olanda ruhun dincəlir, ovqatın təzələnir. Təptəzə olursan. Düşüncən cilalanır. Sözə yanaşmanda dəyişiklik hiss edirsən. Sevinirsən. Sevinc üzünə, gözünə yayılır. Yeni söz, yeni fikir, yeni poetik ifadə düşüncəni zənginləşdirir, səni dəyişdirir. Onu ədəbiyyatın, poeziyanın uğuru sayırsan. Bu sözü işlədənə, bu ifadəni tapana içdən "Eşq olsun!" deyirsən.**

Şeirin dayağı sözdür. Fikrin vurğusudur. İfadənin canıdır. Söz şeirə qan verir. Yerinə düşən söz yazıda da, şeirdə də yerini möhkəmləndirir. Əsl şeirdə bir sözü dəyişəndə şeirin nizamı pozulur, ritmi dəyişir, fikir dağılır.

Sözündən, ifadəsindən tanınan şairlər, ilk cümləsindən tanınan yazıçılar xoşbəxtdirlər. Sən orda varmısan, xoşbəxtlər sırasındamısan?! Bunu yazı, şeir, əsər və zaman göstərir.

***İnsanın xarakteri heç də həmişə ən şanlı əməllərlə deyil, hər hansı bir kiçik hərəkətdə, sözdə və ya zarafatda açıla bilər.***

***Polutarx***

Mən Nəzakət Məmmədovanın şeirlərini ilk bəndindən tanıyıram. Onun şeirə özünəməxsus yanaşması var. Bəzən demək istəmədiklərinə ip ucu verir; bəzən ağrısına sevinc qatır, bəzən göz yaşlarının damlasıyla üstünü örtür gizlətmək istədiklərinin... Amma yığılıb qalanlar onu boğmasın deyə deyir.

Nəzakət xanımın şeirləri özüylə söhbətdir. Bəzən gizli, bəzən üzü örpəkli, bəzən bir az pafoslu. Yaşadıqları kimi. Şeir doğulduğu kimi təqdim olunur.

Nəzakət xanımın şeirləri onun baxışlarıdır. Görənlər üçün görünən, görməyənlər üçün gizli, müəmmalı...

Onun şeirlərində başqalarının acısından doğan bir ağrı da var. Bəlkə, Yaradan onu bunları yaşamaq və yazmaq üçün dünyaya gətirib. O, ağrıları maqnit kimi özünə çəkir. Təbəssümü üzünü örtdüyü ağrılardı.

Rəssamlardan biri yazırdı ki, sərgidəki rəsmlərim mənim içimin çılpaq görüntülərimdir. Şairin şeirləri də elədir.

Nəzakət Məmmədova şeirlərində səmimidir. Onun təsvirdən gizlətmək istədikləri bəzən fikrin ağrısının altından boylanır. Demək istədikləri səssiz pıçıltılardır. Şeir, əslində duyanlar üçündür. Şeirdən hərə özünə lazım olanı götürür. Axtardığını tapır.

Nəzakət xanımın şeirlərində həsrət və vətən dərdi, onun ağrıları Vətənə, torpağa olan sevgisindən doğur. O, hər şəhid anasını, şəhid yoldaşını, qaçqını, köçkünü bağrına basanda, sanki Vətəni, Torpağı, Şəhidi bağrına basır, həsrətini ovudur. Şəhid anaları ilə hər görüşdə bu təbəssümlü insanın üzünün ifadəsində anların çəkdikləri sətir-sətir oxunur. Çıxışlarında da şəhidlərlə danışırmış kimi boğula-boğula danışan, başdan-başa Vətən olan İnsan-Ana-Nəzakət Məmmədova şeirlərində də elədir.

***Göyləri titrədir ahı-naləsi,***
***Ana layla deyir qəbir daşına.***
***Hər gün qucaqlayıb soyuq məzarı,***
***Sanki gəlib keçir beşik başına.***
***Həzin layla çalır qəbir daşına.***

***Şeir yazanlar həyatın zəhərli dodaqlarından bal çəkənlərdir.***

***Villiam Rose Benet***

Parçalanan, bölünən, dağıdılan, viran qoyulan Vətənin ağrılarına dözə bilməyən həssas qəlbli şairin ağrıları başa düşüləndir.

***Ananın harayı dərdin səsidir.***
***Tanrı dərgahında uca sayılan***
***Oğlunun yetdiyi şəhid zirvəsi,***
***Ananın yeganə təsəllisidir.***

Bu kövrək qəlbli, ağrıları sətir-sətir, söz-söz yaşayan şair yoxluğun intizarını, doğmalarına sevgisini həssaslıqla verə bilir.

***Qar yağır.***
***Naxışlı, dümağ, bəmbəyaz.***
***Yağsın yerə-yurda, çölə-çəmənə.***
***Kaş insan ömrünə qış tələsməsin***
***Yağmasın qar, yağış insan ömrünə.***

Atasını erkən itirən, uşaqlığını, yeniyetməliyinin mehrini doğmaları olan, təkcə anaya, bacıya bağlayan Nəzakət xanım ağrının və sevginin bağının necə möhkəm olduğunun həssaslığını hər məqamda açıq və gizlin formada deyir, hətta mövzu ilk görünüşdən başqa olsa da.

Nəzakət xanımın bəzi şeirlərində ata nəsihəti,

***Qürurum, vüqarım, həm güvənc yerim,***
***Əlçatmaz zirvəsən, bir qarlı dağsan.***

***Həyatın ən çətin imtahanından***
***Sənin öyüdünlə qalib çıxmışam...***

***ana yaşantıları***
***Göz yaşların yanağının sığalı,***
***Qəm-qüssədir qəlb evinin qonağı,***
***Ağ saçların qara günün sınağı,***
***Tənha qadın, alın yazın beləymiş...***

***bacı sevgisi***
***Düşüb yol gedirəm tale boyunca,***
***Hər yanda önümə çıxır bu payız.***
***Bacımın ağaran telindən düşür,***
***Anamın qəbrindən baxır bu payız.***

Övlad yanğısı, sevgisi Vətənlə bağlı olanda daha çox hiss olunur.

***Şükür, sənin yanında alnım açıqdır, Vətən.***
***Həm cəsur, həm qəhrəman oğul böyütmüşəm mən.***
***Bir qarış torpaq üçün canını fəda edən,***
***Bayrağına, himninə, şərəfinə and içən,***
***Zabit anasıyam mən!***

Nəzakət xanımın Vətən sevgisi Azərbaycanla birmir, bu sevgi Türk dünyası boydadır:

***Türkün qədim diyarısan Əskişəhər,***
***Hər daşında tarixinin yaddaşı var.***
***Qartalqonmaz uca-uca qalaların***
***Neçə-neçə dövrlərin şahididir,***
***Neçə-neçə zəfərlərin sahibidir.***
***Tarixini özü yazan***
***Möcüzələr şəhərisən, Əskişəhər.***

***

***O tayın da, bu tayın da adı Vətən,***
***Qanqalların arasında gül bitirən,***
***Bülbülləri ağı üstə dil-dil ötən,***
***O da Vətən, bu da Vətən - Ərdəbilim.***

Nəzakət xanımın şeirlərində millət sevgisi,

***Qışın oğlan çağı yumruğa dönüb,***
***Azadlıq eşqinə yol açdı millət.***
***Döyüldü qapısı qan yaddaşımın,***
***Qeyrət kəlməsiylə dil açdı millət.***
***Milli qeyrətimin möhür yeridir,***
***Torpaqda ucalan şəhid məzarı.***

onun müharibə şeirlərində yanğı ilə bərabər qəhrəman, igid oğulların sədası, hayqırtısı və ana həyəcanı, ana qüruru və vətəndaş duyğuları da önə çıxır.

***Elə bil səngərtək qazılıb sinəm,***
***Qəlbimdə duyğular barıt qoxulu.***
***Uğrunda ölməyə hazıram, Vətən!***
***Hər misram döyüşən bir əsgər yolu.***

***Dərdinə qısılıb çəkir içini,***
***Bu yalçın qayalar, mamırlı daşlar.***
***Torpağın, ağacın, otun içindən,***
***Həmişə bir həsrət cığırı başlar.***



*Ayrılığa, həsrətə dözə bilməyən*

***Budanıbdı, nə sağım var, nə sol var,***
***Məntək dərddə nə ağa var, nə qul var.***
***Xan Arazdan Təbrizəcən nə yol var?***

- deyə soruşan şair yanğının sönəcəyinə, gələcəyinə ümidli olduğunu ifadə edir:

***Qəzəbini öz içində hörən, gəl,***
***Qara başın Babək kimi verən, gəl,***
***Koroğlu tək meydanlara girən, gəl,***
***Bəlkə, Vətən bağışladı bizləri.***

***İrəvanda gur səsimiz döyünə,***
***Qarabağda bayrağımız öyünə,***
***Ayaqyalın gedim o toy-düyünə,***
***Öpsün Vətən torpağını gözlərim,***
***Dəysin vətən torpağına dizlərim.***

Parçalanan, bölünən, dağıdılan, viran qoyulan Vətən ağrısına dözə bilməyən şairin ağrıları başa düşüləndir. Vətən sevgisi, itkilər, şəhidlər, məcburi köçkünlük, onların yaşantıları, şəhid ailələrin çəkdikləri ilə hər gün qarşılaşan həssas qəlbli Nəzakət xanım onların hiss və duyğularının şeirlərinə mütləq köçməli idi.

***Yaman narahatdır ruhun, bilirəm,***
***Durur qisas günün hələ, şəhidim.***
***Torpaq qan içində, düşmən əlində,***
***Dağın göz dağıdır elə, şəhidim.***

***Nə qədər ağrın var, ağrınla varam,***
***Yaramdı köksünün altdakı yaran.***
***Sən göydən enəsən, mən burdan duram,***
***Gələ zəfər günü, gələ, şəhidim.***

Nəzakət xanımın "Qarabağa bahar gəlir, İlahi!" şeiri onun illərlə yığılıb qalan Vətən həsrətinin zəfər sevincidir.

***Dalğalanır arzuların bayrağı,***
***Hər təbəssüm bir ümidin yarpağı,***
***Zəfər ətri bürüyübdür torpağı,***
***Qarabağa bahar gəlir, İlahi!***

***Ürəklərdə ümid naxış toxuyur,***
***Əllər zəfər nəğməsini oxuyur,***
***İndi vətən Şuşa ətri qoxuyur,***
***Qarabağa bahar gəlir, İlahi!***

Onun "Şəhid qızı" şeiri təsəlli ilə bərabər, həm də ağrılarının qoşalaşma ifadəsidir.

***Ağlama, şəhid qızı,***
***Dərdin mənə tanışdı...***
***Ürəyim paramparca,***
***Qəmim naxış-naxışdı...***

O, şeirlərini içinin yanğısından keçirən həssas və duyğulu şairdir.

***Sən elə beləsən başdan, əzəldən,***
***Bilirəm heç kəsə qalan deyilsən.***
***Sonuma gedirəm hey addım-addım,***
***Bilirəm, mənim də olan deyilsən.***

***Yaş olub gözündən düşənə kimi,***
***Əlindən nə çəkdim, biləydin barı.***
***Bir gün üz döndərib, üzündən sənin,***
***Çıxıb gedəcəyəm göylərə sarı.***

***Şəkil çəkmək səssiz poeziyadır, poeziya isə danışan şəkildir.***

***Polutarx***

Nəzakət xanım da təbəssümün altında gizlənənləri, yaşananları - üzdən vizual görünməyənləri şeiri ilə çatdırır. Qəlbinin şəklini şeirlə çəkir, tablo yaradır. Burda şairlik onu üstələyir.

***Rəssam, mənim şəklimi çək,***
***Rəngli çəkmə, ağ-qara çək.***
***Atamı çək, anamı çək,***
***Uzaqlardan sənə baxan uşağı çək,***
***Gözündəki işığı çək,***
***Qəlbindəki ümidi çək.. ......***
***Məni çəkmə, uşağı çək,***
***Yaddaşında qalanları,***
***Ümidini qıranları,***
***Həyatın hər üzünü çək...***

Yurd. Tez-tez xatırlanan uşaqlıq illəri, ötür-keçən ömür qatarı Nəzakət Məmmədovanın şeirlərində çox kövrəkdir. O, əsərlərində özünü daha dəqiq ifadə edir.

***Dözməkdən bezmişəm, ruhum ağrıyır,***
***Həzrəti İsatək sanki dardayam.***
***Bəxtim yatan yeri tapdım, oturdum,***
***O vaxtdan bu vaxta hələ ordayam.***

Ruhu, qəlbi təmiz insanın duyğuları da təmizdir. Elə "Qızlar" şeirində olduğu kimi:

***Əlçatmaz ən uca qarlı zirvənin***
***Bəmbəyaz, ağappaq qarıdı qızlar.***
***Bir nəslin qeyrəti, başının tacı,***
***Namusu, isməti, arıdı qızlar.***

Nəzakət xanımın mövzu dairəsi çox genişdir.

***Pəncərəm açılır qəbristanlığa,***
***Gördüyüm mənzərə gözümə batır.***
***Məəttəl qalıram uca Tanrıya -***
***Alimi cahillə yanaşı yatır.***

***Burda soruşmurlar kimsən, nəçisən,***
***Möminsən, canisən, ya dilənçisən.***
***Cərgəylə uyuyur sakit qəbirlər,***
***Burda heç bilmirsən sən neçəncisən.***

Həssas, duyğulu şair şeirlərini içinin yanğısından keçirərək yazır.

Bütün bunlar Nəzakət xanımın daxili pəncərəsindən baxışdır. Şair, insan baxışı.

Bəli, şair haqqında ən dəqiq fikri onun şeirləri dediyindən yazıda özü başdan-başa şeir olan Nəzakət Məmmədovanın şeirlərinə daha çox yer verildi.

---

## "Bakcell" ölkədə ilk dəfə VoWiFi texnologiyasını təqdim edib

**"Bakcell" şirkəti Azərbaycanda ilk dəfə olaraq Wi-Fi üzərindən zəng xidməti - VoWiFi (Voice over Wi-Fi) texnologiyasını istifadəyə verib.**

Adalet.az xəbər verir ki, yeni xidmət ölkə xaricində olan abunəçilərə smartfonda Wi-Fi şəbəkəsi aktiv olduğu halda dünyanın istənilən yerinə Azərbaycandakı tarif ilə zəng etmək imkanı verəcək.

Bunun üçün ölkə xaricində olarkən rouminq və VoLTE / VoWiFi xidmətlərinin aktiv olması kifayətdir.

VoWiFi xidmətinin üstünlükləri nələrdir?

- VoWiFi xidməti ilə abunəçi xaricdə olarkən daxil olan rouminq zənglərini tamamilə pulsuz qəbul edə biləcək.
- Şəbəkənin olmadığı yerlərdə belə, WiFi üzərindən mobil nömrə ilə yüksək keyfiyyətli zəng etmək mümkün olacaq.
- Xaricdə olarkən VoWiFi xidməti ilə edilən zənglərə Azərbaycandakı tarif tətbiq edilir. Bu isə beynəlxalq zənglərdə əlavə xərclərə qənaət etməyə kömək edəcək.

Smartfonun VoWiFi texnologiyasını dəstəkləməsini *309# kodunu yığmaqla yoxlamaq olar. Ətraflı məlumat bakcell.com/vowifi səhifəsində yerləşdirilib.

Qeyd edək ki, VoWiFi texnologiyası "Bakcell"in yeni brend strategiyasına daxil olan innovativ məhsullardan biridir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verməyi planlaşdırır.

---

## "BakıKart"ın adından dələduzluq

**"BakıKart" nağdsız elektron ödəniş alətinin adından dələduzluq kampaniyası həyata keçirilir.**

Adalet.az xəbər verir ki, bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) məlumat yayıb.Məlumata əsasən, kiberdələduzlar sosial şəbəkələr vasitəsilə məlumatlar paylaşaraq, vətəndaşları ictimai nəqliyyatdan pulsuz istifadə etmək vədi ilə saxta keçidlərə yönləndirirlər. Qeyd olunan keçidlərdə vətəndaşların bank kartı və digər fərdi məlumatlarını ələ keçirmək üçün bölmələr yaradılıb. Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara rəsmi olmayan səhifələrə etimad etməməyi və hər hansı qurumun həyata keçirdiyi kampaniyalarla bağlı məlumatlarla qarşılaşdıqda ilk növbədə həmin qurumla əlaqə saxlamağı və yaxud qurumun rəsmi veb-saytına daxil olaraq məlumatları dəqiqləşdirməyi tövsiyə edir.

# KİÇİK DÜNYANIN BÖYÜK HƏQİQƏTLƏRİ




***Lütviyyə Əsgərzadə***
***Filologiya elmləri doktoru***


**Son zamanlar kitab təqdimatı haqqında mətbuatda və saytlarda müxtəlif fikirlər yer alır. Kiminə görə, kitab təqdimatları oxucu kütləsini cəlb etmək baxımından xüsusi əhəmiyyət kəsb edir, "kitab oxumağı ictimailəşdirir" (Ş.Xuduoğlu), kiminə görə, "kitab təqdimatları formaca bir-birinə bənzəyir" və ya "klassik təqdimat zamanı yazıçıyla oxucu arasında ünsiyyət yaranır" N.Köçərli) və "yazarlar hansısa orijinal bir şəkildə təqdimata yeniliklər qatırlar." (R.Məcid).**

Mən də bu fikirdəyəm ki, kitab təqdimatları oxucu kütləsini cəlb etmək baxımından xüsusi əhəmiyyət kəsb edir, "kitab oxumağı ictimailəşdirir", "klassik təqdimat zamanı yazıçıyla oxucu arasında ünsiyyət yaranır", "yazarlar hansısa orijinal bir şəkildə təqdimata yeniliklər qatırlar." Kitab təqdimatı mənim üçün ziyalılarla görüş və yeni kitab deməkdir. Əməkdar jurnalist, tanınmış publisist və yazıçı Zemfira Məhərrəmlinin "Çox kiçikdir bu dünya " kitabının təqdimatı kimi... Nəfis poliqrafiyası ilə göz oxşayan və müəllifin xoş sözlərlə imzaladığı kitab mənim üçün ən gözəl hədiyyə oldu. "Çox kiçikdir bu dünya " oxucuların rəğbətini qazanmış müəllifin, sayca on səkkizinci kitabıdır.

"Çox kiçikdir bu dünya " kitabın adı xüsusilə, diqqətimi çəkidi, çünki mənim təsəvvürümdə Dünya hər zaman çox böyük məkan olub. Diqqətimi çəkənlərdən biri də müəllifin, kitabdakı povest və hekayələri "həyat hekayələri" adlandırması oldu. Düşünürəm ki, bu kitabı oxumağa həvəsləndirici bir detaldır və mən də bu həvəslə kitabı oxumağa başladım.

Mənim kitab oxuma adətim bir az qəribədir. Ən irihəcmli romanı birdəfəyə oxuyub qurtarmaq istəyirəm, hekayələri isə əksinə. Gəncliyimdə Mopassanın, Balzakın, O.Henrinin, Çexovun hekayələrini də bu şəkildə oxumuşam. Zemfira xanım Məhərrəmlinin də "Çox kiçikdir bu dünya " kitabını birdəfəyə deyil, hər gün bir hekayə oxuyaraq bu günlərdə bitirdim. Bir hekayənin bitirib digərinə keçmədən öncə oxuduğum hekayədəki hadisələr və obrazlar haqqında düşündüm. Həm çox bəhrələndim, həm də çox təsirləndim. Hekayələrin bəzisi hamımızın şahidi olduğu, amma münasibət bildirmədiyi, laqeydlik göstərdiyi real həyat hadisələrinin ədəbiyyatda inikasıdır. Yazıçı olmaq da elə bu demək deyilmi? Hamının görmədiyini görmək, hamının görüb susduğuna susmamaq... Duyarlı, həssas ziyalı, vətəndaş olmaq... Yazaraq yanmaq, yanaraq yaşamaq, bir sözlə, əzabla yaşamaqdır, yazıçı olmaq. Hələ bu yazıçı bir qadınsa Deyirlər ki, bütün dərdlər (Allah dərd göstərməsin!) qadınların ürəyindən keçir. Bəzisi dəyib keçir, bəzisi dəlib keçir. Gənc Zemfira xanımın bu yaşda açıq ürək əməliyyatı keçirməsi müəllifin cəmiyyətdə baş verən hadisələrə verdiyi reaksiyanın nəticəsidir, - deyə düşünürəm.

Həyat hekayələri kimi təsnifləndirilən "Anam niyə gəlmədi?, "On iki yaşın sevinci", "Dünya gör necə dardır", "Sənə yanan varsa", "Nöqtə boyda bir işıq", "Heç kimi qınama", " Yuxunu suya danış", "Ailə sənin məbədindir", "Qiyamətə qalmayan qisas", "Heyva çiçəyi və ötüb keçənlər", "Analıq haqqı", "Kişilik dərsi" və s. hekayələrindəki cəmiyyət-insan, ailə-mühit, fərd - tale məsələləri təsirli və diqqətçəkicidir. Hər bir hekayə fərqli mövzuları əhatə etsə də, bütövlükdə böyük əhəmiyyət kəsb edir. Birini digərindən ayırmaq istəməsəm də, bir qadın olaraq ən çox məni həyacanlandıran "Sənə yanan varsa", "Anam niyə gəlmədi?, "Ailə sənin məbədindir", "Qiyamətə qalmayan qisas", "Analıq haqqı" hekayələri və buradakı qadın obrazları oldu.

Müəllifin hekayələrindəki qadınlar, əsasən ləyaqətli, cəfakeş ana, həyat yoldaşı, sədaqətli ömür-gün yoldaşıdır. Qurulan süjet əsasında qadınların analıq missiyası, intiusiyası, ailəsinə olan sədaqəti, taleyə boyun əyməsi, övladına olan sevgisi, vətən qarşısındakı məsuliyyəti kimi məsələlər işiqlandırılır. Kitabdakı ilk hekayə "Anam niyə gəlmədi" adlanır.

Əsərin qadın qəhrəmanı Ləman həkimdir. Bütün dünyanı ağuşuna alan koronavirus bəlası ölkəmizi də qoynuna almış, insanların ona ehtiyacı var. Ailəsi ilə yanaşı, Ləman həkimin vətən qarşısında da məsuliyyəti var. Əslində, hekayədəki Koronaviris bəlasının fəsadlarını hamımız xatırlayırıq. Virusa yoluxan insanların ölümü, evlərimizə həbs olunmamız, özümüzü həyatdan təcrid etməmiz və s. Bunun üstündən o qədər də uzun zaman keçməyib. Belə çətin bir vəziyyətdə Ləman həkim bütün gücü ilə insanları "taclı virusun" əlindən qurtarmaq üçün öz həyatı bahasına xidmət yerində çalışır. Bu qədər gərginliyin içərisində o, bir an olsun qızı Laləni unutmur.. Təəssüf ki, xəstələri ölümün cəngindən alan həkimlər də bəzən bu xəstəliyə yoluxmaqdan özlərini suğortalaya bilmirdi, hər nə qədər kamuflyaj geyinsələr də Ləman həkimlə, şəfqət bacısı Sara da virusa yaxalanır. Ləman həkim "12 gündən sonra həmkarlarının tibbi yardımı ilə sağalıb xətəxanadan evə yazılsa da tibb bacısı Sara xalanı qurtarmaq mümkün olmamışdı. Evə yazılan ana "toparlanıb evə zəng etmiş, gələcəyini bildirmiş, qızının üzünü güldürmüşdü: "Lalə balanın gündə bəlkə yüz dəfə təkrarladığı "Anam niyə gəlmədi?!" - sualına cavab tapdığına şükürlər etmişdi.




Kitabdakı hekayələri oxuduqca oxucu, həm ailə-məişət probleminə, həm sosial, maddi və mənəvi durumuna görə fərqli qadın hekayələri ilə və qadın obrazları ilə üz-üzə qalır. "Ailə sənin məbədindir" hekayəsi də bunlardan biridir. Oxucu hər gün döyülən, söyülən, şiddətə və təhqirə məruz qalan, qucağında cəmiyyətin gələcəyini böyüdən qadının acınacaqlı həyat hekayəsini İdman İnstitutunun tələbəsi ilə birlikdə izləyir: "Basketbol yarışından evə yorğun-arğın dönən tələbə birdən haradasa lap yaxında zarıltı,



inilti səsi eşitdi. Eyvana çıxıb ətrafa göz gəzdirdi, aşağı boylandı, yenidən otağa döndu. Bu dəfə qəzəblə çığıran kişinin qulaqbatırıcı səsi hönkür-hönkür ağlayan qadının səsini üstələmişdi. Qadına ünvalanan nalayiq söyüşlər açıq-aydın eşidilirdi. Biədəb söyüşlər bir deyil, iki deyildi. Qırılıb yerə tökülən qab-qacağın cingiltisi, döşəməyə çırpılan ağır əşyaların taqqıltısı divarın o üzündəki "dava meydanı"ndan xəbər verirdi. "Vurma, ağrıdır axı! "Yaxın gəlmə körpəni əzərsən", - fəryadı ananın faciəsindən, kimsəsizliyindən, gücsüzlüyündən, çarəsizliyindən xəbər verirdi. Ananın övladlarının gözü önündə döyülməsi və ya övladlarının ananın gözü önündə döyülməsindən ağır nə ola bilər ki

Hekayədən nümunə olaraq verdiyimiz bu sətrlərlə müəllif, hadisələrin baş verdiyi dörd düvarın içərisində yaşananları o qədər təsirli bir dillə anladır ki, bir oxucu olaraq özümü dörd divarın xaricində deyil, tam mərkəzində hiss etdim. Gözümün önündə övladın "İmdad" diləyən səsinə kar olan əyyaş atanın obrazı canlandı.

Müəllif, hekayədə iki kişi prototipini qarşı-qarşıya qoyur. Qadına əl qaldıran, təhqir edən də kişidir, onu müdafiə edən də. Burada maraqlı bir nüans ortaya çıxır. Bu necə ola bilir? İstər qadın olsun, istərsə də kişi böyüdüyü, tərbiyə aldığı ailənin güzgüsüdür. "Əzazil"i də dünyaya gətirən və tərbiyə edən anadır, humanist "gənc tələbə"ni də. Hər bir insanın formalaşmasında ailə mühitinin önəmli rolu var..Belə ki hekayədəki hadisələrin bənzəri ilə, döyülən, söyülən, övladlarının önündə mənliyi alçaldılan qadınlarla rastlaşdığımız çox olub, amma reaksiya vermişikmi?. Müəllif də, qadının yerini və dəyərini verməklə yanaşı, ailə münasibətlərinə, ailələrin sevgi və hörmətlə deyil, zorbalıqla idarə edilməsinə qarşıdır

Zemfira xanımın hekayələrinin hər biri çox qiymətlidir və günümüzlə səsləşən mövzulardır. Məsələn, "Sənə yanan varsa..." hekayəsi... Hekayədə yaşananlar günümüzün reallıqları əks etdirilir. Qadınların qadınlar tərəfindən kiçildilməsi, ailələrə yalançı sevgilərlə olunan müdaxilələr, kişilərin vəfasızlığı (bu məsələdə qadınlar da istisna deyil), məbədindəki qadına dəyər verməməsi, xoşbəxtliyi, anlıq xoşbəxtlik eşqiylə səadəti başqa qadınlarda araması kimi məsələlərə ürək ağrısı ilə toxunulur. Müəllif, sadə, ancaq ustalıqla qurduğu süjetlə müəyyən maddi məqsədlərlə, ailəli kişiləri yoldan çıxaran qadınların iç üzlərinin açılmasına nail olur.

Zemfira xanımın "On iki yaşın sevinci" hekayəsini xüsusilə, qeyd etmək istəyirəm. Hekayədəki ata obrazı "Ailə sənin məbədindir" hekayəsindəki ata obrazını xatırladır. Cəmiyyətimizdə tez-tez rast gəldiyimiz əyyaş, sərxoş ataların obrazı "Alkoqol düşkünü olduğu üçün onu işdən çıxarıblar. Əcaib hərəkətləri, kobud davranışı ilə arvadını xəstə edib." 12 yaşlı oğul, öz-özünə düşünür: "Bu həyat, görəsən, nə vaxt bitəcək?" Çünki evə kefli gələn kişi, hər gecə yaratdığı qalmaqal, dava-dalaşla kiçik yaşlı oğlunu, yüksək qan təzyiqindən əziyyət çəkən arvadını, hətta qonşuları da boğaza yığıb. Heç bir nəsihəti, yalvarışı vecinə almır, hətta ayaq altında diyirlənən boş araq şüşələrinə nifrətlə baxan yeniyetmə oğlunun bu fəryadına da əhəmiyyət vermir. "Ata, nə olar, az iç bu zəhrimarı! Çoxdan mizan-tərəzisi pozulmuş ailənin sözdə başçısı, oğlunun "ata, sabah mənim ad günümdür, istərdim ki, bizim də süfrəmizdə gözəl yeməklər olsun, sinif yoldaşlarımla bu günü qeyd edim", - deməsinə heç bir reaksiya vermir.

Evdən baş götürüb çıxan, başında qarışıq fikirlər dolaşan oğlan məhəllədə yaşıdları ilə qarşılaşsa da, onlara bənd olmayıb yoluna davam edir.

Hara gedəcəyini bilməyən parkda xəzəlləri ayağı ilə dağıda-dağıda yürüyən oğlan xəzəllərin altına düşmüş "təptəzə "Ayfon" telefonu tapır. İlk başda sevinir və düşünür: "bu bahalı telefonu satsam, xeyli pulum olar, evimizə çoxlu ərzaq, anama dava-dərman və təzə paltar alaram. Axı, sabah həm də ad günümdür." Bu zaman əlindəki telefon zəng çalır.

Telefonun ekranında bu sözlər yazılmışdı: "Anamın zəngi." Telefonu açmasa da telefonu itirən şəxsin anasının zəngləri bir an ara vermir, övladından nigaran qalan ana cavab almaq üçün israrla zəng edirdi. "Axı, telefonu aça bilmərəm, cavab versəm, telefonu mütləq qaytarmalı olacağam", - kimi ziddiyyətli fikirlərlə oğlan birdən öz anasını xatırlayıb qeyri-iradi telefonu açır və cavab verir. Qızından nigaran ananın, "Kimsiniz, qızımın telefonu niyə sizdədir? Neçə saatdır ki, qızımla danışa bilmirəm. Onun başından bir tük əskik olsa sözlərinə oğlan, "Qızınız barəsində heç nə bilmirəm. On dəqiqə öncə bu telefonu xəzəllərin arasından tapmışam", - deyə cavab verir. Oğlan isə ananın təlaş dolu səsini dinləyə-dinləyə sövq-təbii qızın axtarışına çıxmışdı. Sıx çətirli ağacların arasındakı skamyada tənha bir qızın oturduğunu görüncə, ona yaxınlaşıb soruşdu: "Siz telefonunuzu itirmisiz? Sizin "Ayfon"u tapmışam. Alın, ananızla danışın." Qızı ananın görüncə başına gələnləri anladır, sonda isə deyir: "Kaş belə bir qardaşım olaydı, ana..."

Azyaşlı oğlan etdiyi hərəkətlə özü-özünü ödülləndirmişdi. Dünyanı "Yaxşı əməl, yaxşı söz və yaxşı iş" qurtaracaq", düşüncəsi doğruymuş. Xeyir əməl pis əmələ qalib gəlmək, nəfsi öldürməkdir.12 yaşlı oğlanın etdiyi hərəkət gözəl örnəkdir.

Bütövlükdə, kitabdakı hekayələr: "Heç kimi qınama", "Qisas da qiyamətə qalmır", "Kişilik haqqı", "Heyva çiçəyi və ötüb keçənlər" maraqlı və oxunaqlıdır. "Nöqtə boyda həyat işığı" isə qardaş Türkiyədəki dəhşətli zəlzələ qurbanlarının xatirəsinə həsr edilmişdir. Kitabın "Qarabağ hekayətləri" bölümündə isə savaşın həyatımıza gətirdiyi fəlakətləri inikas etdirən, əsasını vətənpərvərlik, yurdsevərlik təşkil edən nəsr nümunələri yer almışdır. Hekayələrdə Birinci Qarabağ savaşı dönəminə məxsus nəslə vurulmuş psixoloji zərbələr, işğal illərində yaşadığımız ağrı, kədər, mənfur erməni quldurlarının törətdiyi vəhşiliklərlə yanaşı, millətimizin vətən sevgisi, Ali Baş Komandanın rəhbərliyi və müzəffər ordumuzun bir yumruqtək birləşərək böyük zəfərə çatmaq üçün göstərdiyi igidlik, vətən səmalarında dolaşan şəhidlərimizin, qəhrəman qazilərimizin bəxş etdiyi böyük Zəfərimiz çox real və təsirli şəkildə əks olunmuşdur. Çünki 1991-ci ildən mətbuatda hərbi mövzuda çıxış edən, Zemfira Məhərrəmli, dəfələrlə "qaynar" nöqtələrdə olub, Qarabağ müharibəsinin dəhşətləri, torpaqlarımızın bölünməzliyi uğrunda vuruşan oğul və qızlarımızın hünərini əks etdirən silsilə cəbhə reportajları dərc etdirib. Müəllif, yaradıcılığında Vətənin azadlığı uğruna döyüşən "Ağ atlı oğlan"la "Ağ atlı qız"a eyni müstəvidən yanaşıb. Vətən eşqi ilə döyüşə atılan, qəhrəmanlıqları ilə dastan yazan "Ağ atlı qız"larımıza - Nərmin Abbasquliyevanın dastan yazıb, bədii obrazını əbədiləşdirib. "Son görüş və ayrılıq... Əbədi xatirə" hekayəsində yarımçıq taleləri, ayrılıqları böyük kədərlə hekayəsinə mövzu edib. Hekayənin qəhrəmanları Salehlə Gülərin sevgisi ötən illərdə Qarabağda yaşanan və Salehin şəhid olması ilə yarıda qırılan nakam sevgilərin real bədii təsviri, yüzlərlə real hekayənin ədəbiyyatda inikasıdır.

Belə bir deyim var ki, "Söz uçar, yazı qalar." Hələ bu söz taleyin məğlub etdiyi insanlar - ziyalılar tərəfindən deyilib və ya yazılıbsa Yazıçının da yazmaqda məqsədi budur; yazılan əsərin əbədilik qazanması, oxucular tərəfindən oxunması, sevilməsi, ən əsası isə həyat yollarında onlara yol göstərməsi, fənər olub yollarını işıqlandırması

**Zemfira xanımın "Çox kiçikdir bu dünya..." kitabı kitabsevərlərə böyük töhfədir. Əminik ki, oxucular tərəfindən oxunacaq, seviləcək, ən əsası isə onlara həyat yollarında yol göstərəcək, yollarını işıqlandıracaq. Mübarək olsun!**

ETİBAR ƏBİLOV

# İLK DƏFƏ DEPUTATLIĞA NAMİZƏDLƏ GÖRÜŞDƏN YADIMDA QALANLAR



**(Sənədli hekayə)**

Başa düşürəm ki,bu yazını yazmaq üçün ensiklopediyasız ötüşə bilməyəcəyəm və atamın kitabxanasından " Bolğşoy Sovetskiy Gnsiklopediə"nın (rusca) " V" hərfi olan qalın cildini götürürəm- həmin cilddə " Verxovnıy Sovet SSSR" bölməsini tapıram və həmin bölmədən bilirəm ki,mən axtardığım tarix 1970-ci ildir.Konkret olaraq 1970- ci ilin 14 iyunu.Həmin gün VIII çağırış SSRİ Ali Sovetinə seçkilər sona çatmışdı və həmin hadisədən bir neçə gün sonra axşam "Günün ekranı" xəbərlər proqramında xəbər verdilər ki,Salyan seçgi dairəsindən (o zaman Neftçala hələ müstəqil rayon deyildi,Salyanın tərkibində şəhər statusunda olan bir yaşayış məntəqəsiydi), Muğanın ağsaqqalı,Salyan rayon Nizami kolxozunun sədri,Sosialist Əməyi Qəhrəmanı,təkcə Azərbaycanda yox,bütün SSRİ-də qabaqcıl əmək qəhrəmanı kimi şöhrət qazanmış Qüdrət Səmədov SSRİ Ali Sovetinin deputatı seçilib.Qüdrət Səmədovun deputat seçilməsi yəqin atamın da ürəyindən oldu,çünki atam Qüdrət Səmədovla dost idi,rəhmətliklər Süleyman Rüstəm,Aşıq Pənah,Əliağa Kürçaylı,Qabil... ilə birlikdə bir neçə dəfə o kişinin qonağı olmuşdu,süfrəsində çörək kəsmişdi.O da yadımdadır ki,həmin axşam atam komutator telefonla (o vaxtlar telefonların əksəriyyəti komutator tipli idi) Qüdrət kişiyə zəng elədi (zəng etmək də müəyyən qədər vaxt alırdı),Qidrət kişini deputat seçilməsi münasibəti ilə təbrik elədi.O vaxt deputat olmaq,indiki kimi səsli-küylü hadisə hesab olunmurdu (əslində hər dairədən bir nəfəryəni kim seçiləcəksə onu namizəd verirdilər).Deputatları indiki kimi tənqid,bəzən də təhqir hədəfinə çevirmirdilər və camaatın böyük əksəriyyəti heç öz deputatlarını tanımırdı da...Eyni zamanda deputatlarla mətbuatın arasında keçilməz bir sədd mövcud idi...Mətbuat da deputatlara o qədər maraq göstərmirdi.

Nəsə...Mətləbdən uzaq düşməyim.O zaman,yəni 1970-çi ildə mənim 10 yaşım var var idi və demək olar ki,bütün uşaqlar kimi deputatların nə işlə məşğul olduqları haqda zərrə qədər də olsun anlayışım yox idi.

Yazımın bu yerində yenə də ensiklopediyaya ehtiyac hiss edirəm.Bu dəfə ASE-yə,yəni Azərbaycan Sovet Ensiklopediyasına. "S" hərfi olan cildi götürüb Qüdrət Səmədovun vəfat etdiyi tarıxə baxıram: Qüdrət kişi 1972-ci ilin 8 yanvarında,67 yaşında vəfat edibYaşını ona görə yazıram ki,rəhmətlik Qüdrət kişiyə baxanda elə bilirdin 100 yaşı var.Sıx saçları eynilə pambiq kimi ağ-appağ idi...Nə isə 1972-ci ilin 8 yanvarında atam,dayım İsmayılın maşını ilə Sarvana,Qüdrət kişinin dəfninə getdi və gedərkən məni də özü ilə birlikdə apardı,İndiki kimi yadımdadır,qışın oğlan çağı olsa da hava xoş idi və Qüdrət kişi ilə vida mərasimi kənd klubunda keçirilirdi.Və ölkənin bütün məşhur əmək qəhrəmanları həmin mərasimdə idilər.

Bura qədər yazdıqlarım yazıya giriş idi.İndi gəlirəm əsas məsələyə.Qüdrət kişi vəfat edəndən sonra onun SSRİ Ali Sovetindəki yeri də boşaldı,yəni boş qaldı və təbii ki,həmin boş yerə növbəti seçki keçirilməli idi.Əlbəttə,bu presuduranı indiki təcrübəmlə yazıram.O vaxt,yəni 12-13 yaşım olanda nə qanırdım ki,bir deputat dünyasını dəyişəndə,onun yerinə növbəti seçgi keçirirlər.O zaman orta məktəbin VII sinfində oxuyurdum.Şəhərimiz,yuxarıda dediyim kimi kiçik bir yaşayış məntəqəsi idi,əhalisinin yalan olmasın tən yarısı da rus idi...Belə günlərin birində,günortadan sonra (ikinci növbə oxuyurdum) xəbər yayıldı ki,deputatlığa yeni namizəd Neftçalaya,zəhmətkeşlərlə görüşə gəlir və görüş Neftçaladakı Mədəniyyət Sarayında olacaq.Mədəniyyət Sarayı ilə oxuduğumuz məktəbin arasındakı məsafə heç üç dəqiqəlik məsafə deyildi.Əlbəttə,bu xəbər biz uşaqlar üçün o qədər də maraqlı xəbər deyildi.Onsuz da bizi tez-tez həmin Mədəniyyət Sarayında keçirilən müxtəlif tədbirlərə aparırdılar və bu tədbirlərin əksəriyyəti də adətən darıxdırıcı olurdu...

Daha bir neçə dəqiqə də keçdi və uşaqlardan kimsə deyəndə ki,deputatlığa namizəd generaldır,nəsə bizim canımızı maraq aldı Çünki o vaxta qədər heç vaxt canlı general görməmişdik.O generalı görmək xatırinə 3-4 uşaq dərsdən qacıb Mədəniyyət Sarayının qarşısına gəldik.Mədəniyyət Sarayının qarşısında xeyli insan var idi.Bir qədər də keçdi və bir də gördük ki,budur,o vaxt şəhərimizin mərkəzi küçəsi olan (Mədəniyyət Sarayı da həmin küçədə yerləşirdi) Nizami küçəsi ilə soxlu sayda maşın gəlir.Maşınların önündə də "Çayka" avtomobili.Biz uşaqlar həyatımızda ilk dəfəydi ki,"Çayka" görürdük və "Çayka" maşınına görə 1-2 dərsdən yox,10-15 dərsdən də qaçmağa dəyərdi."Çayka" gəlib Mədəniyyət Sarayının qarşısında dayandı.O vaxt şəhərimizin rəhbəri,atamın dostu və qohumu Saday Kərimov idi (Saday Kərimov təəssüf ki,erkən rəhmətə getdi).Saday dayı (mən ona belə müraciət edirdim) abırlı,mədəni,işgüzar,kübar bir şəxs idi və qanunla deputatlığa yeni namizədi o qarşılamalı idi.General isə hələ "Çayka" da idi.Arxa oturacaqda oturmuşdu yanında da o vaxt Salyan Rayon Partiya Komitəsinin I katibi Nadir Abbasov əyləşmişdi.Nəhayət "Çayka"nın qapısı açıldı və maşından hərbi geyimli,kitelinin yaxası çoxlu sayda orden və medallarla bəzənmiş,hündür boylu (mən o vaxta qədər o boy buxunda adam görməmişdım), başı az qala Mədəniyyət Sarayının ətrafında əkilmiş uca çinarların başına dəyən general Pavel Vasilyeviç Melnikov düşdü (sonralar bizim deputat olacaq bu insanın adı o vaxtdan ömürlük olaraq yadımda qaldı)...Sonralar biləcəkdim ki,Melnikov sıradan olan bir general deyil,hələ II Cahan müharibəsində ən gənc divizyon komandiri olub,indi isə böyük bir vəzifədədir; Zaqafqaziya Hərbi dairəsinin komandanıdır,özü də general- polkovnikdir (Sonralar bu general- polkovnik SSRİ də ən ali hərbi təhsil ocağı olan,Moskvadakı məşhur Frunze adına hərbi akademiyanın rəisi oldu).Bu yazını yazarkən həmin gün baş vermiş digər detallar da yadıma düşür.O vaxt şəhərimizdə əslən ləzgi olan (adını təəssüf ki,unutmuşam) bir kişi yaşayırdı.Özü də hal əhli idi.Bəlkə də günün 24 saatını miyana da olsa kefli olardı.Amma heç vaxt özünü elə aparmırdı ki,kimsə ona artıq-əskik bir söz desin.Və eyni zamanda zəhmli bir görkəmi vardı və nə gizlədim,biz uşaqlar nəyə görəsə ondan qorxurduq da...

Demək hündür boylu Melnikov "Çayka" dan düşür,Maşının o biri qapısından da Nadir Abbasov düşür və qaydaya görə qonaqları Şəhər sovetinin sədri Saday Kərimov qarşılamalıdır,amma Saday müəllim Melnikova yaxınlaşana qədər həmin o hal əhli olan ləzgi kişi Melnikova yaxınlaşır və xalis rus dilində onu Neftçala zəhmətkeşləri adından salamlayır.Yəqin Melnikov da bu görüşə gələnə qədər hardasa boğazını yaşlayıb,o da ləzgi kişi kim hallıdır və nəhəng qamətli Melnikov az qala normal adam boyu qollarını geniş açıb onu salamlayan ləzgi kiçini bağrına basır və rus adəti üzrə onu 3 dəfə öpür.Bu vaxt Nadir Abbasov tələsik özünü onlara yetirir,Melnikova başa salır ki,şəhərin indiki dillə desək meri bu ləzgi kişi yox,bir qədər kənarda dayanmış Saday müəllimdir...Nə isə,Nadir Abbasov Ləzgi kişinin qulağına tələsik nə deyir,nə demir,ləzgi kişi kənara çəkilir və Saday müəllim qonaqlara "Xoş gəldin" deyir və sonra onları Mədəniyyət Sarayına dəvət edir.Əlbəttə məni və mənim yaşıdım olan uşaqları bu dəm "Çayka"dan başqa heç nə maraqlandırmır..."Çayka"nın sağından soluna keçirik,nikellərinə tamaşa edirik,ön faralarına,arxa işıqlarına baxırıq,təkərlərinə göz atırıq,əlimizi maşına sürtürük,pəncərələri bağlanmış şüşələrin arxasından maşının muzeyə bənzəyən salonuna boylanırıq...Hələlik bizə mane olan yoxdur və biz də "Çayka" kefimizi çıxarırıq. 5,yaxud 10 dəqiqə keçir. "Çayka" hərəkətə gəlir,hərbi forma geyinmiş sürücü "Çayka"nı Mədəniyyət Sarayının arxa tərəfinə sürür və orada artıq "Çayka"nı qoruyan hərbçilər var və heç kəsi bu maşına yaxın buraxmırlar...Mən yalnız indi başımı qaldırib ətrafa baxıram və görürəm ki,"Çayka" ya olan diqqət təkcə biz uşaqların maraq dairəsində deyilmiş.İclasa çağırılmış xeyli yaşlı "əmilər"də "Çayka"ya tamaşa etməyi iclasda iştirak etməkdən üstün tutublar.

Bir müddət "Çayka" ya uzaqdan tamaşa edirəm.Yaxından tamaşa etmək daha maraqlı idi."Çayka" ya uzaqdan tamaça etmək o qədər də maraqlə gəlmir mənə.

Birdən-birə darıxıram.Bayaq ki,xoş əhvalım məni tərk edir.Məktəbə qayıtsam dərsdən qaçdığıma görə danlanaçağam (Onsuz da səhər məktəbdə yetərincə danlaq gözləyir məni).Üstəlik atam bilsə ki,Melnikova görə dərsdən qaçmışam,onda vay mənim halıma.

...İndi mən,gerçəkdən də heç cür xatırlayıb yadıma sala bilmirəm ki,Mədəniyyət Sarayındakı o iclasa məni necə buraxdılar.İçəri keçməyimə kim icazə verdi.Necə oldu ki,mən,12,13 yaşlı uşaq iclas zalına kecdim,daha doğrüsu keçə bildim.Məndə bu həvəs hardan yarandı və ümümiyyətlə,elə bir həvəsim var idimi? Heç cür yadıma sala bilmirəm...Bir də gördüm ki,iclas zalındayam.General da odlu alovlu çıxış edir.Ayaq üstündə idim.Və təbii ki,nəzər-diqqəti cəlb edirdim.Yaxşı ki,atamın əmisi oğlu,o vaxt adlı-sanlı neftçi olan Əlifağa dayı yaxın oturacaqda əyləşibmiş,bəxtimdən yanında da boş yer var imiş.O məni həmin boş yerdə oturtdu.Özümü tələyə düşmüş kimi zənn edirəm,Melnikovun nə danışdığını anlamıram,bu iclasın mənə zərrə qədər də dəxli olmadığını bilirəm və onu da bilirəm ki,bu zalda bir nəfər artıq adam varsa o da mənəm.Melnikovun hər sözünü zalda əyləşənlər alqışlarla qarşılayırlar.

Melnikov insaflı adam imiş,az danışdı.Sonra Saday müəllim çıxış elədi.O da rus dilində.Yəqin ki,deputatlığa namizədə,əgər deputat seçilərsə (buna kimin şübhəsi ola bilərdi ki...) gələcək fəaliyyətində ugurlar arzuladı.Hamı əl çaldı.Mən elə bildim ki,iclas sona yetir.Amma sən demə iclasın rəsmi hissəsi sona çatırmış.Melnikovla Saday müəllim səhnədən endilər.Hərbçilər bir göz qırpımında səhnədəki stol stulları yığışdırdılar.Sən demə Zaqafqaziya Hərbi dairəsinin müsiqi kollektivi, general-polkovniklərinin xoş günündə öz komandirlərini tək qoymayıblar...Konsert başladı,nə başladı.Hərbçilər oxuyur,hərbi orkestr çalır,xor müxtəlif marşlar ifa edir...Nəhayət qızlardan ibarət rəqs qrupunu səhnəyə dəvət edirlər.Yaraşıqlı,cəlbedici,üzü gülər,bütün salona təbəssüm paylayan dörd qız səhnədədir.Hamısı əyninə dar köynək,gen,qırçın ətəkli rəqs paltarı geyinmişdi.Həm oxuyur,həm də rəqs edirdilər.Çox cəlddirlər,hərəkətləri elastikdir.Rəqsin ritminə uygun dövrə vurarkən qırçınlı,gen donlarının ətəkləri bir anlıq yana acılır...Bədən quruluşları da,rəqsləri də gözəldir...Bu qızlardan biri,sarışın,ala gözlu, dodaqları albalıya bənzəyən qız,o biri qızlardan daha gözəl görünürdü mənə.Zalımın qızı o qədər gözəl, o qədər xoş simalı idi ki,gözlərimi ondan çəkə bilmirdim.Bütün varlığıma qəribə,ilıq, bu vaxta qədər duymadığım xoş bir hiss hakim kəsilmişdi və ilk dəfə qarşılaşdığım bu şirin,əsrarəngiz hissin nə olduğunu bilmirdim. Mənim bu sarışın gözələ elə diqqətlə,heyranlıqla baxdığımı qiz da hiss eləmişdi...O qeyri-adi gözəlliyi,sehrli gözləri ilə sözün həqiqi mənasında məni əfsunlamışdı.O da səhnədən mənə baxır,işvə dolu gözlərini gözlərimdən çəkmirdi...Mən sehirlənmiş kimi idim...Hər şeyi,dərsdən qaşmağımı da,səhər bu əməlimə görə sinif rəhbərim tərəfindən bəlkə döyüləcəyimi də,dərsdən qaçdığımı bilərsə atamın mənə necə qəzəblənəcəyini də... tamamilə unutmuşdum...Qız isə baxışları ilə mənə elə xoş hisslər yaşadırdı ki...Və bu vaxt az qala ağlımı başımdan alan bir hadisə baş verdi; Sarışın rus gözəli səhnədən mənə göz vurdu.Və göz vurarkən cingiltili gülüşlə gülümsədi də...Mən tam əmin idim ki,onun gülüşünü o salonda məndən başqa kimsə eşitmədi,görmədi...O məxsusi mənə görə,mənim könlümü xoş etmək üçün gülümsəmişdi. Bu hadisə o qədər gözlənilməz baş verdi ki...Allaha şükür ki,həyacandan özümdən gedib döşəməyə yıxılmadım...Rəqs bitdi..Alqışlar...Və qızlar eyni anda hər iki əllərini dodaqlarında birləşdirib sonra zərif əllərini salona,onları alqışlayan tamaşaçılara sarı uzatdılar,yəni səhnədən salona öpüşlır göndərdilər.Dodağının nəmi hələ də barmaqlarının ucunda quramamış olan sarışın rus gözəli,göyərcinə bənzəyən əllərini konkret olaraq mənə doğru uzatmişdı.Buna mənim zərrə qədər də olsun şübhəm yox idi...

Nəhayət qızlar səhnəni tərk etdilər.Səhnəyə yenidən xor əldi.Ağlıma heç nə batmırdı.Bütün fikrim o rus qızının yanında idi.Hətta səhnədə xor oxuyanda bayıra çıxmaq istədim.Heç nədən xəbəri olmayan (xəbəri olsaydı bəlkə bayıra çıxmagıma kömək edərdi) Əlİfağa dayı qoymadı:

-Konsertin bitməsinə az qalıb,bir az da döz- dedi.

Əlifağa dayı mənim halımı nə biləydi ki...

Konsert isə uzandıqca uzanırdı (bəlkə də mənə uzun gəlirdi).

Bir əsgər rus dilində şeir deyirdi.

Əlqərəz,nə başınızı ağrıdım,nəhayət konsert bitdi.

Mən özümü foyeyə atdım.Qarışıqlıq idi.Salonu tərk edənlər,ora-bura qaçışan hərbçilər.Gözüm o sarışın rus gözəlini axtarırdı.Ona nə deyəcəyimi əslində hec bilmirdim də...Amma axtarırdım.Məndən azı 5-6 yaş böyük olan,bəlkə də səhnədən mənimlə sadəcə əylənən,şıltaq zarafat edən,yaxud da əksinə,ürəyimə necə od saldığından məmnun qalan,ona qarşı ürəyimdə baş qaldıran ilahi hissdən təsirlənən və bu hesaba da mənə həmin ilahi hissləri yaşadan o rus gözəlini görməyi elə arzlayırdim ki...Kaş onu tapa biləydim.O gülüşlə,o xoş təbəssümlə kaş bir dəfə də mənə baxaydı...Lütf eləyib mənə bir göz də vuraydı.

Amma o qız yox idi.Ümumiyyətlə,rəqqas qızların heç biri yox idi.

Sonradan biləcəkdim: Onlar rəqs nömrələrini bitirib gəldikləri maşınla iclasın sonunu gözləmədən geri qayıtmışdılar.

Amma o vaxt bunun fərqində deyildim.Usanmadan,yorulmadan Mədəniyyət Sarayının künc bucağmnı axtarırdım.Neçə dəfə Mədəniyyət Sarayının həyətinə düşdüm.Bir-bir maşınların pəncərəsindən içəri baxdım.Hətta birtəhər imkan edib "Çayka"ya da nəzər saldım.Qız elə bil əppəy olub göyə çəkilmişdi...General- polkovnik Pavel Vasilyeviç Melnikov "Çayka"sına minib getdi.Sonra axırıncı adamlar da dağılışdılar.Mədəniyyət sarayının qarşısında bir nəfər də olsa innicinni qalmadı.Sonra da qəfil yağıç başladı.Əvvəl narın yağırdı.Sonra leysana çevrildi.Mən isə leysan yağışın altında,Mədəniyyət Sarayının qarşısında dayanıb möcüzə gözləyirdim.

Möcüzə isə baş vermədi.

...İndi o vaxtdan 52 il vaxt keçir.

İndi məndən soruşsalar ki,VIII çağırış SSRİ Ali Sovetinə Salyandan (demək həm də Neftçaladan) mərhum Qüdrət Səmədovun yerinə deputat seçilmiş Zaqafqaziya Hərbi dairəsinin komandanı,general- polkovnik Pavel Vasilyeviç Melnikovun sənə (13 yaşlı uşağa) bir xeyri dəydimi?

Cavab verərdim: Hə, xeyri dəydi.

Soruşsalar hansı xeyri nəzərdə tutursan?

Cavab verərəm ki,Pavel Vasilyevicin hesabına ömrümdə ilk dəfə general (özü də adi general yox,general -polkovnik) gördüm.

İkincisi,o generalın hesabına ömrümdə ilk dəfə "Çayka" avtomobili gördüm ki,rayondakı o vaxtki tay-tuşlarımın bəlkə də 99 faizi ömürlərində "Çayka" görməmişdilər.Amma həmin uşaqlar həmişə "Çayka" görməyi arzulayırdılar.

Üçünçüsü və ən ümdəsi,gözəl bir rus qızı öz sehirli təbəssümü,göz vurması və göyərçin əllərinin barmaqları ucunda 13 yaşlı bir yeniyetməyə öpüşlər göndərməklə o 13 yaşlı yeniyetmıyə,yəni mənə ömrümün o vaxta qədər duymadığım ən bəxtəvər,xoş,unudulmaz anlarını yaşatdı.

Qaldı,yaşadığım şəhərin yaşlı sakinlərinə bir xeyri dəydimi o deputat generalın?

Bax,bu suala cavab vermək bir qədər qəliz məsələdir.

**Neftçala şəhəri**
**11 may 2024.**



# BAYAT



№ 13 (873)



*Çingiz Əlioğlu - 80*

Mən sözsüz şeirlər yazmaq istərəm,
Təkcə səslər olsun, kəlmələrsə yox.
Öz doğma dilimdən səda, nidalar,
Yabançı lisandan gəlmələrsə yox.

Qınayan olacaq, qoy olsun nolar,
Söyən də lap söysün, danlasın məni-
Hər kəsin öz haqqı, öz hüququ var,
Təki bir, ariflər anlasın məni.

Ən böyük mənalar səslər arası
İstərəm gizlənsin fasilələrdə.
Diqqətli oxucu fikir arasın
Misradan-misraya vəsilələrdə.

İlk sözdən öncəki azad mühitdə,
Hüdudsuz fəzada yaranıb şeir.
Sən dayan, sükuta bir qulaq kəsil,
Ən gözəl şeiri səssizlik deyir.

Ölçüdən öncəki ölçüsüzlükdə
Gizlənib poeziya röyalar kimi.
Çıxsan bu dünyanın cazibəsindən
Dinəcək ilahi dualar kimi...

***

Ha baxdım yayındı çox şey gözümdən,
Yetmədi zərrəcə dada zərrəbin.
Gah tapdım, gah qopdum özüm-özümdən
Qazanc bir olanda çəkdim zərər min.

Fələk tolazlasa qoşadır zəri,
Qoynunda zər-ziba bürünmüş pəri.
Buzladı alnımın peydərpey təri,
Dü-birdi mən atan eyzən zər, Rəbbim.

Nəzər cəlb eyləyən həzər nakəsdən,
Zər qədri bilməyən məzar nakəsdən.
Yüz zina nakəsdən, azar nakəsdən
Bir sığal ummadım, aldım zərbə min.

Nə savaş, nə cəngdir şair sənətim,
Mən zənlə hər kəsi qardaş zənn etdim.
Sevdalı qəlblərdir zəngin sərvətim,
Naxışı zinətdir zərgər zərbimin.

***

İlahi düzənlə yaranıb həyat...
Günəş gün yerində, Ay ay yerində.
Göylərdə gördüyün ulduzlu büsat
Saymaqla bitməz, ha say, say yerində.

Milyard səyyarəni demirəm hələm,
Elə hey fırlanıb-dolanır aləm.
Bir üzü güləşdir, bir üzü ələm,
Toy-bayram yerində, vay vay yerində.

Heyranam yaranış şəcərəsinə.
Məəttəl qalmışam macərasına.
Hərdən bir çıxsa da öz məcrasından
Dəniz öz yerində, çay çay yerində.

Nə qədər ki, vardı dizimdə taqət,
Cəzb etdi, özünə çəkdi təbiət.
Gör neçə din gördüm, neçə təriqət,
Yaxşı öz yerində, zay zay yerində.

Təbiət söylədim, qışı, yazı var,
Buna da ilahi, ali yazı var!
Qışda ki, istidir istək-arzular
Yetişib yer tutar yay yay yerində.

Sevdim torpağımın hər dörd fəslini,
Bu yurdun məskunu insan nəslini.
İstərdim ən çoxu yarın vəslini,
Mart-aprel bir ayrı, may may yerində.

Hər şey yerbəyerdir söylədik bir bax,
Dünəni dünəndir, sabahı sabah.
Bəs necə nızamdır, bu qadir Allah
Oturmaq bilməyir hay hay yerində.

Tökülən qan qalmaz yerdə heç zaman,
Analar döşündən halal süd əmən
İgidlər verməzlər yağıya aman,
Qalacaq leşləri lay-lay yerində.

...Şair, bu çabalar de, nə vəd edir?
Yazırsan, pozursan gör nə vədədir
İnsanlıq karvanı baş alıb gedir,
Gədəsi gədədir, bəy bəy yerində.

## *Südabə xanıma*

İlin rəngi qırmızıdır, sarıdır...
Mənim yarım hələ cavan qarıdır.
Çeşmək taxıb mərci, düyü arıdır.
Mərc gəlirəm, nəzəri mən sarıdır.

Hara getsəm gözü məni izləyir,
Pul kisəmi güya qəsdsiz gizləyir.
İşdir, evə balaca gec qayıtsam,
Qaşqabaqla səssiz-sözsüz bizləyir.

Elə sanır yenə həmin Çingizəm,
Qasırğayam, yenə coşqun dənizəm.
Xəbərsizdi, bilmir ki, ta mən yazıq
Aydan arı, sudan duru, təmizəm...

...İlin rəngi ha qırmızı, ha sarı,
Abır itər bassa əgər his arı.
Sadiq qarım, tək yarımdı qəlbimin
Tükənməyən səs-nəvası, hisarı...

## *Binə qondar, ev ucalt*

Ucalığı xəbər alma alçaqdan,
Hər zərbədən xilas umma qolçaqdan.
Ağ mərmərdən yapammasan dər-divar,
Kəs kərpici palçıq-saman-qılçıqdan.

Kimdən ötür sərvət, seçir kimini...
İş o deyil mat qoyasan hamını.
Saray olsun, daxma olsun, dam olsun,
İş ondadır, düz qoyasan himini.

Alçaq ev var çox ucadan ucadır,
Alçaqsansa uca cəhdin bicadır.
Dövrana bax, dərsini al dünyadan,
Qoca dünya xocalara xocadır.

Qonşuları sən seçməsən bəxt seçər,
Yamanları zəli kimi qan içər.
Yaxşı olsan günahından yaxşılar
Olan işdir, boş ver deyib tez keçər.

Bir şey üçün hər qapıya yüyürmə,
Ağız açan olsa ağız əyirmə.
İstəsən ki, sirr qapıdan çıxmasın,
Asta danış, heç vaxt evdə böyürmə.

Balalara dərsdi evin havası...
Dərd ondadır, tükənməsin davası.
Diləsən ki, qada-bala yan ötsün,
Dinclikdir hər dərdin əlac-davası.

Evdən sudu, şamdı, kibrit, duz-əppək
Əksilməsin il uzunu heç gərək.
Xoş üz göstər hər qapına gələnə,
Büdrəyənə, yıxılana ol dirək.

Çıxsın deyə rasta işin avandı,
Boş saxlama evdə tabaq-tavanı.
Dəxli yoxdur yağdı, baldı, yavandı,
Ruzi edir evdə uca tavanı.

...Nə qaldı ki, daha səndən uması,
Evlərin də insan tək var siması.
Boz-bulanıq gün də sənə bayramdı,
Açıqdırsa öz evinin səması...

***

Sevgili payızım, zalım payızım,
Payızım, ayazım, qızıl, bəyazım,
Sənin tərifini mən necə yazım,
Şəninə yaraşsın havam, avazım?

Qayalar tilində, zirvədə izim,
Tülünə bürünüm, çənində azım.
Bulaqlar təbilim, cığırlar sazım,
Bəmində bircə xal, zildə yüz yazım.

Heyrətdən dilim də tutulur bəzən,
Sən bürün altuna, qızıla bəzən.
Sənin vurğununam, bazın a zalım
Mən çoxu görmüşəm, sən qalan azım.

Azımda çoxumun qəm qalığı var,
Nə xoş ki, payızın xoş qılığı var.
Hələ murazımın qamqalağı var,
Alışar payızın çınqısı ilə.

Ömür bir varaq da qapadıb-örtür,
Payızı yaşayan nə xoşbəxt kəsdir!
Payız son deyil ki, sona uvertür,
Möhtəşəm mis cingdən müjdədir, səsdir.

## *İstedad*

Bu da belə bir zaddır:
Təbiət ki, hakimdir,
Kim də ki yox, azaddır,
Kim də ki, var, məhkumdur.

Özgə taleləri də
Yaşamağa məhkumdur.
Başqasının dərdini
Daşımağa məhkumdur.

Bu hürriyyət aşiqi
Azad olmur heç zaman.
Halına bir yanan yox,
Ha çoxdur ondan uman.

Bir qarnı ac, biri tox,
Quruca qüruru var.
Çox vaxt hara üz tutsa
Yolunu kəsər divar.

Qibtə, həsəd, paxıllıq...
Düşmənidir bu üçü.
Neçə çabadan keçir,
Bir gün qələbə üçün.

Axır düşür cığıra,
Bu da uzun tarixdir.
Əl ki, çatdı uğura,
Hamı ona şərikdir.

Bir vaxt ətini yeyən,
Şöhrətinə şərikdir.
Ardınca ağız əyən
İzzətinə şərikdir.

İstedad qanunuyla
Yaşayan qəlb genişdir.
Bilir axı, bu həyat
Gah yoxuş, gah enişdir.

Hamını əfv eyləyir,
Qınamayır dünyanı.
Bağışlayır kinlini,
Qucaqlayır duyanı.

Qələmindən çıxanı
Çalış isti-isti dad.
Üstündür zamanından,
Ucadır çox istedad.

Üstün ism, üstün ad...
Fərqli rənglər, üstün dad.
Qatıb eyzən bozluğa
Ustad olur istedad.

***

Şair olmağın mən bilən yolu
Övxarlı saxla təbini...
Oxu, axtar məktəbini.
Axtala saxta təbini,
Qəlp mədhiyyə yazılmasın.

Xəyanəti bağışlama,
Xain xəbis alqışlama.
Dəftəri nahaq xışlama,
Söz sahmanın pozulmasın.

Şeir yazma dəmdən-dəmə,
İlhamını qoyma dəmə.
Heç vaxt mən şairəm demə,
Qürrələnmə, söz olmasın.

Şan-şöhrətə çox can atma,
Şər atıb günaha batma.
Kişi ol, kölgədə yatma,
Od-atəşin azalmasın.

Olma ayaq altı qazan,
Çalış hörmət-izzət qazan.
Qaynasın asdığın qazan,
Çömçəndə pay az olmasın.

Xalq dərdini gətir dilə,
Bacar, əlac becər elə.
Öz elinlə ver əl-ələ
Əlin əldən üzülməsin.

Eyzən elin dilində yaz,
Bir əldə tar, birində saz.
Qoy eyləsin gözəllər naz...
Nə şairdir baz olmasın!

Əyir sözü, dara iptək,
Geydir atlas, qumaş, ipək.
Söz başına, bax, az turp ək,
Çılpaq olsun, bez olmasın.

Hisslərini toz almasın,
Hey pardaxla söz almazın.
Söz də bardır, söz alması
Heç soluxub-sözalmasın.

Səs şıltaqdı, söz perikən...
Yaşarısan söz piriykən.
Bax ha, gözlə, sən diriykən
Bir gün qəbrin qazılmasın!...

***

Ay insafsız, yolunu
Sal bircə kəs qoynumdan!
Bir cüt bəyaz qolunu
Çələng et, as boynumdan.

Sənsiz günüm qəhr olsun!
Nolar, insaf et bir az.
Öpüşlərə qərq olsun
O şümşad boyun-boğaz.

Bircə dəfə toxunsun
Bu dodaq o dodağa.
Könlüm quşu oxusun
Qonub yaşıl budağa.

O şivərək əndamın
Ağuşumda gərilsin!
O qoşa nar çiçəyi
Dişlərimlə dərilsin.

Necə parlaqdı, Tanrım,
Dişlərinin incisi!
Dişləyim dil-dodağı,
Nə dil, nə ləb incisin.

Titrək əllə xışlansın
Ətək naxış-tumacı.
Tumar çəkim xoşlansın
Xəlif topuq yamacı.

Ağ buxağın səfası
Dəyər yüz cənnətinə!
Xoşdur cövr-cəfası
Aşiqlər millətinə.

Başda şəvə haləsi,
Qaşda zülmət şələsi.
Gözdə Kəbə şöləsi,
Zülm etsin... mən köləsi...

Qəsd edib ölləm qəsdən...
Puçurrasın qan-tərim.
Nəfəsimlə nəfəsdən
Təki bircə ah dərim!

Ahını bal tək udsam,
Qorxunc deyil uçurum!
...Dəli istək-umudsan,
Havalanıb uçuram...

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

№ 24 (2398) 5 iyul 2024-cü il

Azərbaycan Respublikasının Mediənın İnkişafı Agentliyi

# Vətənin hər qarış torpağı...

**...Görəsən, dünyada Vətəndən, torpaqdan, yurddan şirin bir şey varmı?! Varsa, deyin biləк! Və mənə görə dünyada ən şirin, ən əvəzedilməz və ən gözəl varlıq Vətəndir! Vətən həm də axı "Ana" deməkdir. Anasız və Vətənsiz yaşamaq ya olmur, olsa da insan yetim uşağa bənzəyir. Bax, o yetim uşaq hansı hissləri, hansı duyğuları yaşayırsa, Vətənsiz də olan adam elə onun günündədir.**

Torpaqlarımızın 20 faizi ermənilər tərəfindən işğal olunandan sonra öz yurdlarından məcburi didərgin salınmış insanlar düz 30 il Vətənsiz yaşadılar. Daha doğrusu, bir milyona yaxın insan 30 il bu dərdlə çarpışdı, vuruşdu, hər şeyə dözdü. Amma dərdə dözməyənlər də oldu. Onlar dərddən alışıb-yandılar və dünyasını dəyişdilər. Axır ki, İkinci Qarabağ savaşından - daha doğrusu, 2020-ci il 44 günlük Böyük Vətən müharibəsindən sonra işğal altında olan torpaqlarımız azad olundu. Qüdrətli Azərbaycan ordusu və Azərbaycan əsgəri Vətənimizi erməni işğalından təmizləyərək, Füzuliyə, Cəbrayıla, Hadruta, Qubadlıya, Şuşaya, Zəngilana, Ağdama, Laçına və Kəlbəcərə Azərbaycan bayrağını taxtdılar. Antiterror əməliyyatı zamanı isə bütün Qarabağ, o cümlədən Xankəndi, Xocavənd, Xocalı, Əsgəran... Və digər yaşayış məntəqələri, kəndlər və qəsəbələr erməni murdarlarından azad edildilər. Və beləcə Vətənimiz, yurdumuz rahat nəfəs aldı...




...30 ildən sonra insanlar yenidən Zəngilana, Füzuliyə, Laçına və digər yaşayış yerlərinə qayıtmağa başladılar. Yurd yerinə qayıdanların necə sevindiyinin mən də şahidi olmuşam. Ən azından ona görə ki, mənim də Vətənim Füzuli 30 il erməni işğalı altında qaldı. Və 30 ildən sonra insanlar qısa zaman kəsiyində tikilmiş, inşa olunmuş Füzuli şəhərinə qayıtdılar. Əlbəttə, Füzuli şəhərini ermənilər yer üzündən silmişdilər. Hansı ki, bir-birindən gözəl parkları, xiyabanları, yaşayış binaları, sosial obyektlər, məktəblər, xəstəxanalar, restoranlar, istirahət mərkəzləri var idi. Ermənilər onların heç birini salamat qoymamışdılar. Hətta Füzuli şəhəri erməni işğalından azad olunanda bu barədə Ali Baş Komandan, Preziden İlham Əliyev qələbə xəbərini verəndə bayrağı sancmağa bir ev, bir mənzil, bir sosial obyekt tapmamışdılar. Prezident də demişdi ki, bayrağımızı ən uca yerə - torpağa sancın! Azərbaycan əsgəri də Prezidentin tapşırığını yerinə yetirərək, Azərbaycan bayrağını torpağa - ən uca yerə sancdılar!



Füzuli şəhəri işğaldan azad olunandan sonra qısa müddətdə yenidən tikilməyə başlandı. Orda yeni infrastruktur - su, işıq, qaz, rabitə xətti çəkildi. Bərbad yollar yenidən tikilərək asfaltlandı. Ən böyük iş isə çoxlu sayda yaşayış binalarının tikilməsi, inşa edilməsi idi. Bununla yanaşı, məktəb, sosial obyektlər və digər bir-birindən gözəl tikililər inşa olundu. Ən başlıcası Füzuli yenidən, yavaş-yavaş o əvvəlki şəhər görkəmini aldı. Orda Beynəlxalq Hava Limanı qısa zaman kəsiyində tikilərək istifadəyə verildi. İnsanların istirahəti üçün lazım olan digər şərait də yaradıldı. Və bundan sonra insanların köçü başlandı.

O köçlər Füzuli şəhərinə gedəndə mən də onların yanındaydım. Daha doğrusu, şəhərə köçənlərin əksəriyyəti ya qohumum, ya da tanışlarım idi. Özü də onlar Füzuliyə qayıdarkən yol polisini və təcili tibbi yardım maşınlarının müşayiətilə geri döndülər. Mikroavtobus şəhərə girəndə yaxın dostlarımdan olan Elmin İdrislinin gözləri yaşardı. Dedi, əhd eləmişəm ki, Füzuliyə girəndə onun torpağından öpəcəyəm. Torpağını sığallayıb, köksümə basacam! Elə belə də etdi. Mikroavtobusdan düşən kimi əyilib torpaqdan öpdü, sonra da onu bağrına basdı. Əziz balasını, anasını, atasını hansı sevgiylə əzizləyirdisə, torpağı da elə bir məhəbbətlə qucaqladı. Gözləri yaşardı və boğazını qəhər boğdu. Amma bu göz yaşları 30 il bundan əvvəlki göz yaşlarına bənzəmirdi. Və bu göz yaşları həsrət, kədər göz yaşları deyil, sevinc və vüsal göz yaşları idi...

...Sonra sevinə-sevinə hökumət nümayəndələri tərəfindən ona verilən və ailəsinə ayrılmış mənzilin açarını aldı. Bax, onda dostum və qardaşım Elmin İdrislinin gözlərində dünya boyda bir sevinc gördüm. O sevinc tək onun gözlərində deyil, Füzuli şəhərində yeni mənzillərin açarlarını alan bütün insanların gözlərində hiss olunurdu. Elmin açarı aldı, ailəsi - balaları, əzizləri ilə birlikdə yeni tikilmiş binaya sarı getdi və mənzilinin qapısını açarla açıb içəri keçdi. Gözəl və yaraşıqlı otaqlar idi. Bir otağa baxdı, bir divara baxdı, bir də tavana diqqət yetirdi və yenidən gözləri doldu. Dedi ki, mən həmişə köhnə evimizi yuxumda yanmış görürdüm. Görürdüm ki, ev yanıb, heç qapısı, pəncərəsi də qalmayıb. Fikirləşirdim ki, gedib bəlkə daşını taparam. Amma daşını da aparmışdılar. İndi şükür Allaha, yeni evimizdəyəm. Heç onu da düşünmürdüm ki, Füzuli şəhəri alınar və biz də belə qəşəng və yaraşıqlı mənzilə köçərik. Yuxumuzda görmədiklərimizi Prezident İlham Əliyev bizə həyatda bəxş elədi. Atam sağ olsaydı, Füzulini görüb sevinərdi. Elə o da mənim kimi evimizin daşından, torpağından öpərdi. Elmin İdrislinin atası çox böyük ziyalı olub. Füzuli rayonunda Tarix Diyarşünaslıq Muzeyinin direktoru idi, həm də elmlər namizədiydi. Bir ziyalı, bir alim kimi adı və soyadı Füzulinin tarixinə düşüb.

Elmin İdrislə yanaşı, Füzuli şəhərinə köçmüş Cəmil kişini, Rəhim kişini, Əvəz kişini də təbrik elədik. Onlara gözaydınlığı verdik. Əvəz kişi dedi ki, bala, mənim 90-a yaxın yaşım var. Düşünürdüm ki, ölərəm, Füzulini görmərəm. Amma Allah mənə möhlət verdi və bu sevinci yaşadıq. Mənim kimi 5 minə yaxın Füzuli sakini şəhərə köçüb. Buna görə göydə Allaha, yerdə Prezidentimiz İlham Əliyevə minnətdaram.

Bilirsiniz, Füzuli necə gözəldir?! Təmiz havası, təmiz suyu, təmiz insanları! İndən sonra ölsəm, heç bir dərdim yoxdur. Bilirəm ki, öz Vətənimdə dəfn olunacağam.

Bəli, füzulililər bu gün yurda qayıdıblar, öz gözəl şəhərlərində yaşayırlar və işləyirlər. Bundan gözəl nə ola bilər?!

**Əlbəttə, yurda dönüş, Vətənə qayıdış insana ikinci bir nəfəs deməkdir. İkinci nəfəs olmasa, insan Vətənsiz yaşaya bilməz. Balıq susuz yaşaya bilmədiyi kimi, insan da Vətənindən uzaq düşəndə bax elə bir anlar yaşayır. O anları qürbətdə olan insanlar daha yaxşı bilirlər. Gəzməyə də Vətən yaxşıdır, ölməyə də! Füzuli isə gəzməli, yaşamalı və ömür sürməli bir gözəl məkandır!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Ermənistan qədim abidələrimizə hücumu dayandırmır: Lori Berd qalası

**Erməni mediası yenə də Ermənistandakı qədim türklərə məxsus abidələrin bərpası ilə bağlı xəbərlər yazır.**

Adalet.az xəbər verir ki, bu günlərdə Ermənistan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin sifarişi ilə Lori vilayətində yerləşən Lori Berd qəsrinin- kilsəsinin Tədqiqat Mərkəzi tərəfindən hazırlanmış bərpa layihəsi ilə aparılan bərpa işlərinə başlanılıb.



Bu barədə Ermənistanın Tarix-Mədəni İrs Araşdırma Mərkəzi məlumat yayıb.

"Restavrasiya işlərinə müəllif nəzarətini elmi layihə işləri üzrə direktor müavini, memar Ovannes Sanamyanın rəhbərlik etdiyi elmi tədqiqat mərkəzimiz həyata keçirir.

Qrafikə uyğun olaraq tikinti sahəsi hazırlanıb. Bərpa üçün lazım olan daş növləri seçilib, damlarda yığılmış qrunt qatı təmizlənib, əsas bərpa işləri üçün meydançalar hazırlanır", - məlumatda deyilir.

Oxucularımız üçün bildirək ki, Qərbi Azərbaycan İcmasına məxsus westaz.org-un məlumatına görə, Loru Berd qalası XI-XII yüzilliklərdə Dağ Borçalı mahalının Kolagirən çayının sol sahilindəki, Cəlaloğlu şəhərindən Stepanavan 4 km şərqdə Loru şəhərində yerləşir. Qala Səfəvilər dövlətinin, Qarabağ bəylərbəyliyinin doqquz mahalından biri olan qaladakı məscidin iç memarlığının Şuşa Gövhərağa məscidi ilə oxşarlıq təşkil etməsi ərazidə azərbaycanlıların yaşadığını və hökmranlıq etdiyini təsdiq edir. Qarabağ bəylərbəyliyinin mahallarından biri olan Loru mahalı və onun mərkəzi olan Loru şəhəri 1236-cı ildə monqol istilası sonrası dağıdılıb və bu dağıntı nəticəsində qala da zərər görüb. XIV-XV yüzilliklərdə təmir olunsa da sonrakı dövrdə baş verən hücumlar nəticəsində yenidən dağıntıya məruz qalıb. Loru şəhəri və bölgəsi qalanın adı ilə adlandırılıb. Azərbaycanlıların yaşadığı ərazidə müdafiə məqsədilə tikilib. Mənbələrdə Lori qalası, Ermənistanın Lori əyalətinin Lori Berd kəndi yaxınlığında yerləşən XI yüzilliyə aid erməni qalası kimi təqdim olunsa da 1065-ci ildə Taşir-Dzoraget Krallığının paytaxtı olmaq üçün "David Anhoghin tərəfindən inşa edilmişdir" kimi yazılsa da ərazidə azərbaycanlıların yaşaması faktı bunu təsdiq etmir.

Milli Məclisin Əmək və sosial müdafiə və Mədəniyyət Komitələrinin və Toponomiya komissiyasının üzvü. Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərlinin araşdırmasına görə, qalanın ilkin adı Loruqala olub.

Erməni mediası yazır ki, Qala 35 ha ərazini əhatə edir, dəniz səviyyəsindən 1490 m hündürlükdə yerləşir.

***P.S. Qeyd edək ki, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi başlayandan Ermənistan hökuməti qədim türk abidə, məbəd , qala və digər mədəni irsimizə aid olan tikililərdə təmir və bərpa işlərinə başlayıb. Bunun səbəbi heç də dağılmaqda olan qədim türk tikililərini - abidələrini yenidən bərpa etmək deyil, orta əsrə aid abidələrdən və daha sonra ondan da qədim olan alban abidələrindən türk , islam izlərini silməkdir.***

***Artıq Ermənistanın büdcəsindən bu məkrli planı həyata keçirmək üçün vəsait də ayrılıb.***

**Əntiqə Rəşid**

*Leyla Mustafayeva*



### *Bəlkə belə yaxşıdı...*

**Bəlkə belə yaxşıdır...-**
**nə əl çatır, nə ayaq.**
**Ürək yükü nə ağırmış -**
**Gündüzləri dəli olub,**
**Gecələri qaldım oyaq.**
**Bəlkə belə yaxşıdı...**

**Bu da qismət, bu da tale -**
**Ömrümüzün kor naxşıdı...**
**Nə sən inci, nə də mən.**
**Bəlkə birgə yaşasaydıq**
**Biz olardıq yağı, düşmən?**
**Bu sevginin adı dildə,**
**Xatirəsi ovundurur**
**hər bir ayda, hər bir ildə.**
**Bəlkə belə yaxşıdır...**

**Ayrılıqlar, intizarlar**
**Hərdən yaman bal dadır.**
**Çöldə bitən gül də, kol da**
**Səndə İlham yaradır.**
**Bəlkə belə yaxşıdır...**

**Qovuşsaydıq sevgimizə**
**Heç qalmazdı dadı, duzu.**
**Sədd çəkərdi qarşımızda,**
**Bağlayardı yolumuzu.**
**Bəlkə belə yaxşıdı...**
**Əldə etmək asandı,**
**Ən çətini ürəyində, qəlbində**
**Qıvrılaraq yatandı!...**

# *"Ömür dastanının qıfılbəndləri"- Ramiz İsmayıl*





**Öncədən bildirim ki, müəllifi Ramiz İsmayıl olan və bu ilin birinci yarsında çap olunaraq böyük oxucu içtimayyətinə təqdim olunan "Ömür dastanının qıfılbəndləri" kitabına ÖN SÖZÜ Əli bəy Azəri yazıb " Sinəsi folklor Budaq Təhməz" adlanan həmin yazıda vurğulanır ki," Budaq Təhməz canlı əfsanədir, sinəsi dolu folklordur.Onun yaradıcılığını çox az adam başa düşə bilər."**

Kitabın müəllifi Ramiz İsmayıl ötən əsrin 60-cı illərindən ədəbi mühitə daxil olmuşdu.Və bu günə qədər dövrü mətbuatdaözünü oxuculara tanıtmışdı. Onu da qeyd edim ki, Ramiz müəllim həm də səkkiz kitab müəllifidir.

Bu gün barəsində söz açdığımız kitabı o yazar dostunun 85 illiyinə ərmağan edib. Kitab oxucuya özünü iki həmmüəllifin yaradıcılıq nümunəsi kii təqdim edir. Ona görə ki, hər iki dost bu kitab üzərində böyük həvəslə işləmiş, onların dialoqları, deyişmələri, bir-birlərinə həsr etdikləri bədii nümunələr kitabı daha da zənginləşdirmişdi.

Düşünürəm ki, bu kitab da öncəki , bədii nümunələr kimi müəllifə və onun ürək dostuna yeni oxucular qazandıracaq!

**Əbülfət**

# Cavid Cəfərovdan "QƏDİM YAZI"

**Masamın üstündə bir kitab var...Doğmalarımdan biri bağışlayıb mənə. "Qanun Nəşriyyatı"-nda işıq üzü görüb bir il öncə , yəni 2023-də... Adı diqqətimi çəkdi... Ona görə də elektron məlumat bazasına daxil olub müəllif barədə bilgiyə baş vurdum.**

**Elmi dərəcəsi və elmi adı:** Tarix üzrə fəlsəfə doktoru, dosent

**Vəzifəsi:** Çap kitablarının tədqiqi şöbəsinin müdiri

**Tədqiqat sahəsi:** Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqatın metodları; Elmşünaslıq

**Tədqiqat mövzuları:** Qədim əlyazma və əski çap kitablarının fakturasının tədqiqi; müəllif hüquqları; elmmetriya

**Elmi əsərlərinin sayı:** 58

**Əlaqə vasitələri:** tel.: (+994 12) 4923197, e-mail: cavid@manuscript.az




Və bu cavan oğlanın maraqılı bir sahə üzrə, həm də çoxşaxəli fəaliyyəti diqqətimi çəkdi. Bu qiyabi tanışlıq da öz növbəsində "Qədim yazı"-ya marağımı artırdı.

Kitabın üz qabığındakı imza sırası özü - özlüyündə bu toplunun mahiyyətindən xəbər verirdi. Xüsusi ilə ona görə ki, həmin imza sahibləri müxtəlif corafiyanı təmsil edirlər. Həm də müxtəlif dillərdə yazırlar. Deməli həmin müəllifləri orijinaldan dilimizə çeviran Cavid Cəfərov həmin dillərə mükəmməl sahiblənib ki, belə bir ağır və məsuliyyətli işə çiyin verib. Bir oxucu kimi deyə bilərəm ki, kitabdakı yazıları oxuyarkən tərcümə olduğunu hiss etmədim.Yeri gəlmişkən onu da qeyd edim ki, tərcümə edilən yazılar təkcə bədii yaradıcılıq nümunələri deyil. Onların arasında müsahibələr də var. Təbii ki, bu da kitabın dəyərini artırmaqla yanaşı, tərcümə edənin də nüfuzuna müsbət xallar əlavə edir. Elə bu bir-iki cümləlik təqdimatla oxucuları "Qədim Yazı"-nı arayıb tapmağa ,oxumağa dəvət edirəm. İnanıram ki, bu oxuyanlara çox xoş olacaq!

**Ə. Mədətoğlu**

# *"Notariat Sirri" povestini Əlisəfa Azayev yazıb*






**Bu gün, yəni 1 iyul 1951-ci ildə Kürdəmir rayonunun Qaramahmudlu kəndində dünyaya gələn Əlisəfa Azayev ədəbi yaradıcılığa ötən əsrin 70-ci illərində başlayıb. Onun "Yeddi il sonra", "Çin qızıl gülü", "Gözlənilməz hadisə", "Sirli qətl", "Amansız qatil", "Qürbət ellərdə", "Bayıl məhbusu", "Sahildə qətl", "Vahimə", "Kürdəmir şəhidləri", "Əsgər anası", "Qatarda hadisə", "İstintaq sirri"Və digər kitabları oxucular tərəfindən həmişə maraqla qarşılanıb.**

Elə həmin marağın diqtəsi ilə istər mətbuatda, istərsə də yazıçı ilə keçirilən görüşlərdə çıxış edənlər onun hekayə və povestlərinin çoxunun macəra-detektiv janrında yazıldığını, əsərlərində boğazdan yuxarı pafosun olmadığını, millət və Vətən sevgisinin incə sözlərlə ifadə edildiyini, konfliktlərin əsasını ağır cinayətlərin açılması və həqiqətin üzə çıxması təşkil etdiyini bildiriblər.Bu isə onu göstərir ki, yazıçı-hüquqşünas Əlisəfa Azayev müraciət etdiyi mövzuları yaşadığını, şahidi və bəzən də iştirakçısı olduğu hadisələrdən götürür.Təbii ki, bu da oxucu üçün həm inandırıcı, həm də önəmlidi. Yeri gəlmişkən qeyd etmək istərdim ki, bugünlərdə Əlisəfa Azayev öz oxucularına yeni kitabını ərmağan edib. "Maarif" nəşriyyatında Vaqif Alıyevin redaktorluğu ilə çap olunmuş kitabın adı "Notariat Sirri"-dir. Bu kitabında da Əlisafa müəllim öz üslubuna və mövzu dairəsinə sadiq qalaraq bir sənətin özəlliklərini sərgiləyib. Düşünürəm ki, müəllifin bu povesti də öz oxucularını tezliklə tapacaq.

**Əbülfət Mədətoğlu**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 185
Çapa imzalanmışdır: 04.07.2024